Tərəfimizdən ölkəmizin müxtəlif ekoloji-coğrafi bölgələrində yetişdirilən texniki üzüm sortlarından şərab hazırlanması və hazırlanan şərabların orqanoleptik və fiziki-kimyəvi göstərici- lərinin öyrənilməsi qarşıya qoyulmuşdur. Belə ki, Abşeron torpaq-iqlim şəraitində yetişdirilən Xindoqnı və Rkasiteli, Şamaxıda Mədrəsə və Moldova, Cəlilabadda Həməşəra,

Kürdəmirdə yetiş- dirilən Şirvanşahı üzüm sortlarının məhsullarından orta nümunələr götürülərək, tərkibində şəkərliyi,turşuluğu və digər əhəmiyyətli göstəricilərin texnoloji ehtiyatı müasir cihazlar vasitəsilə təyin edilmiş, lazımi yetişkənliyə çatdıqdan sonra yığılaraq onların hər birindən nəzərdə tutulan tədqi- qatlar planına uyğun olaraq müxtəlif variantlar üzrə şərab materialları hazırlanmışdır.

Azərbaycanda yetişdirilən üzüm sortlarından şərabların istehsalı və keyfiyyət xüsusiy-yətlərinin öyrənilməsi ilə bağlı həm elmi-tədqiqat, həm də tədris institutlarının əməkdaşları tərəfindən müxtəlif tədqiqat işləri aparılmışdır.

Aparılan tədqiqatlara görə Şərabda 0,8 q/l-ə qədər limon turşusu olur. Şərabda alma turşusu2 q/l dən çox olduqda xoşa gəlməyən kəskin dad hiss olunur ki, buna da yaşıl turşuluq deyilir. Şərabda onun miqdarı 1,4-1,8 q/l olduqda normal hal sayılır. Alma turşusu 0,7-0,8 q/l arasında olduqda isə şərabın tərkibindəki turşuluq tamı xoşagələn olmur. Üzüm şirəsində və şərabda aktiv turşuluq (pH=3,0-4,2), titrlənən turşuluq isə (şərab turşusuna görə) 5-8 q/dm^3 arasında olmalıdır. Süd turşusunun L-forması üzümdə əsasən 0,05 q/l-ə qədər, şərabda isə 5,0 q/l-ə qədər olur. Spirt və alma-süd turşusu qıcqırması zamanı cavan şərablarda 1,5-2 q/dm^3-a qədər CO_2 olur. Qırmızı şərablarda normaya görə 100-200 mq/dm^3, ən çox 300 mq/dm^3-a qədər, ağ şərablarda 700 mq/dm^3, tündləşdirilmiş şərablarda isə 200-300mq/dm^3 arasında karbon qazı olmalıdır. Folin metodu ilə ölçülən ortalama ümumi polifenol tərkibi qırmızı şərab üçün 216 mq/100 ml və ağ şərab üçün 32 mq/100 ml-dir. Ümumiyyətlə, şərabın əsas komponentlərinin ortalama konsentrasiyaları: su 86%; etanol 12%; qliserol və polisaxaridlər və ya digər iz elementlər 1%; müxtəlif turşular 0,5%; vəuçucu birləşmələr 0,5%-dir.

Ümumi polifenol miqdarının 2000 ilə 6000 mq/l arasında olduğu təxmin edilir.

Ümumi ekstrakt şərabda vacib xüsusiyyətlərdən biridir. Bu karbohidratların, uçucu olmayan turşuların, fenol, azot və mineral maddələrin, həmçinin qliserin və digər qeyri uçucu çoxatomlu spitlərin (2,3 butilenqlikol, sorbit, inozit, mannit) ümumi miqdarıdır. Gətirilmiş ekstrakt-ümumi ekstraktdan reduksiyaedici şəkərləri çıxmaqla alınır. Qalıq ekstrakt (turşusuz)- gətirilmiş ekstraktdan titrləşən turşuluğun çıxılması ilə alınır.

Ümumi ekstraktın miqdarı üzüm şirəsinin keyfiyyətini səciyələndirir. Qalıq ekstrakt cavan şərab materialına, gətirilmiş ekstrakt isə hazır şərabçılıq məhsuluna yetişdirilmiş şəraba obyektiv qiymət verilməsinə imkan verir. Ümumi ekstraktı təyin etmək üçün bir neçə üsul mövcuddur. Onlardan daha dəqiqi piknometrik üsul sayılaraq, şərabda bütün uçucu maddələri kənar edərək sonra şərabın həcmini destillə suyu vasitəsilə əvvəlki səviyəyə çatdırmaqla alınmış qarışığın nisbi sıxlığının təyininə əsaslanır.

Şərabda ekstrakt faizlə (q/100sm^3) yaxud promillə (q/dm^3) ifadə olunur. Ekstraktlıq şirədə şəraba nisbətən çox olur. Çünki ekstraktın (şəkərsiz ekstrakt) bir hissəsi mayalar tərəfindən mənimsənilir və spirt olan mühitdə həllolma xüsusiyyəti pisləşdiyindən çökür.

Yapışqanlanma, filtirasiya, termiki işlənmə və yetişdirilmədə ekstrakt maddələrinin miqdarı azala bilir. Ekstraktın miqdarı üzümün sortundan, torpaq-iqlim şəraitindən və meteoroloji şəraitdən, gilənin yetişgənlik dərəcəsindən, emal üsulundan və şərabın tipindən asılıdır. Ağ turş süfrə şərablarında şəkərsiz ekstraktın miqdarı orta hesabla 22 q/dm^3; qırmızı turş şərablarda 30 q/dm^3; tünd və desert şərablarda 30-40 q/dm^3; ayrı-ayrı hallarda isə 60 q/dm^3 və çox ola bilir.

ARAŞTIRMA VE BULGULAR

Tədqiqat üçün Xindoqnı, Rkasiteli, Mədrəsə, Moldova, Həməşəra, Şirvanşahı üzüm sortları, onlardan alınmış şirə, şərab materialları, şərablar, texnoloji işlənmə proses və rejimləri, fiziki-

kimyəvi və orqanoleptik keyfiyyət göstəriciləri, aktiv mədəni quru mayalar obyekt olaraq götürülmüşdür. Tədqiqatlar institutun laboratoriyalarında aparılmışdır. Tədqiqatın aparılma metodologiyası qarşıya qoyulan vəzifələrə kompleks yanaşmaya əsaslanmış, müxtəlif texnoloji faktorların, o cümlədən üzümün yetişdirilməsinin aqrotexniki üsullarından başlamış ağ və qırmızı şərabların hazırlanması və keyfiyyət xüsusiyyətlərinin öyrənilməsini əhatə edir. Texnoloji mərhələlər zamanı proseslərin optimal rejimlərinin dəqiqləşdirilməsi üçün şərab materiallarının əsas tərkib komponentlərinin öyrənilməsi üzrə kompleks fiziki-kimyəvi araşdırmalar həyata keçirilmişdir.

Araşdırmada ağ və qırmızı şərabların keyfiyyətinin ayrı-ayrı fiziki-kimyəvi tərkib göstəricilərindən asılılıq vəziyyətinin riyazi-statistik analizi aparılmışdır.

TARTIŞMA VE SONUÇ

Ölkəmizin müxtəlif bölgələrində yetişdirilmiş yerli və introduksiya olunmuş texniki üzüm sortlarından "Üzümün emalı və şərabın texnologiyası" şöbəsinin əməkdaşları tərəfindən hazırlanan şərab nümunələrinin orqanoleptik xüsusiyyətləri Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun Dequstasiya Komissiyası tərəfindən qiymətləndirilmişdir. Şərabların qiymətləndirilməsi Beynəlxalq Üzüm və Şərab Təşkilatı (OIV) tərəfindən təklif edilmiş 100 ball sistemi üzrə aparılmışdır. Sədr, katib və 5 üzvdən ibarət olan komissiya tərəfindən ağ və qırmızı süfrə və desert şərablar kateqoriyalarına aid olan nümunələr test edilmişdir.

Müxtəlif bölgələrdə yetişdirilən yerli və introduksiya olunmuş üzüm sortlarının məhsullarından orta nümunələr götürülərək, tərkibində şəkərliyi, turşuluğu və digər əhəmiyyətli göstəricilərin texnoloji ehtiyatı müasir cihazlar vasitəsilə təyin edilmişdir (cədvəl 2).

Cədvəl 2. Üzüm sortları üzrə şirələrin kimyəvi tərkibi

s/s	Üzüm	Şəkərlərinkütlə payı, q/100 sm^3	Titrlənənturşuluq q/dm^3	Fəal turşuluqpH	Laboratoriya şəraitində şirə çıxımı, %-lə	SHQM/turş.
1	Bayanşirə*	22,0	8,2	3,4	74,2	28,4
2	Mədrəsə** + Merlo**	23,3	5,9	3,3	74,3	41,0
3	Merlo**	23,5	5,6	3,2	74,0	46,6
4	Rkasiteli*	23,0	5,3	3,2	73,8	47,5
5	Mədrəsə*	22,7	5,3	3,3	74,0	43,9
6	Xindoqnı*	23,0	5,2	3,1	73,2	45,8
7	Şirvanşahı	23,2	6,1	3,2	73,6	41,8
8	Moldova*	21,1	6,4	3,1	74,8	34,4
9	Mədrəsə**	21,7	6,2	3,3	74,6	35,8
10	Həməşəra	22,2	6,3	3,4	74,6	36,9

Qeyd: *Abşeron şəraitində yetişdirilmiş; **Şamaxı şəraitində yetişdirilmiş.

Şərab nümunələrinin fiziki-kimyəvi xüsusiyyətlərinin öyrənilməsi üçün klassik və müasir üsullarla analizlər həyata keçirilərək tədqiqatlar aparılmışdır (cədvəl 3).

Cədvəl 3. Öyrənilən üzüm sortlarından hazırlanan şərabların keyfiyyət göstəriciləri

№	Tərkib göstəriciləri	Bayanşirə*	Mədrəsə**+ Merlo** (1/1)	Merlo**	Rkasiteli	Mədrəsə*	Xindoqnı	Şirvanşahı	Şirvanşahı***	Moldova	Mədrəsə**	Həməşəra
1	Spirt %	13.0	13.5	14.0	13.6	13.5	13.6	13.8	16.7	12.7	13.0	13.3
2	Şəkər q/l	0.14	0.27	0.31	0.22	0.24	0.23	0.25	15.0	0.3	0.25	0.28
3	Ümumi turşuluq q/l	7.13	4.88	4.87	4.90	4.88	4.65	5.0	5.2	5.5	5.2	5.2
4	Uçucu turşuluq q/l	0.3	0.76	0.23	0.35	0.57	0.47	0.4	0.42	0.24	0.21	0.11
5	SO_2 mq/l	-	-	3.2	3.0	3.3	3.1	3.2	3.4	3.2	3.2	3.1
6	Alma turşusu q/l	0.31	0.06	0.8	1.0	0.7	0.6	0.05	0.4	0.32	0.23	0.07
7	Süd turşusu q/l	0.01	1.31	0.54	0.01	1.23	1.21	0.6	0.5	0.6	0.9	1.0
8	Çaxır turşusu q/l	3.97	1.86	0.4	3.3	1.88	1.78	1.8	1.2	1.7	1.35	2.0
9	Limon turşusu q/l	0.02	0	0.02	0.01	0.01	0.02	0.01	0.02	0.02	0.02	0.02
10	pH	3.08	3.18	3.19	3.4	3.3	3.4	3.2	3.4	3.2	3.4	3.4
11	Piroüzüm turşusu q/l	0.01	0	0	0.01	0	0	0	0.01	0	0	0
12	Ca mq/l	55	61	76	54	75	74	75	72	74	76	76
13	Dequstasiya qiyməti, bal	92	93	92	87	92	92	92	94	85	95	95

Qeyd: *Abşeron şəraitində yetişdirilmiş üzümdən hazırlanmış; **Şamaxı şəraitində yetişdirilmiş üzümdən hazırlanmış; ***Şirvanşahı sortundan hazırlanmış tünd şərab.

Tədqiqat işləri zamanı müasir analiz üsullarından istifadə edilərək əvvəlcə sortlar üzrə üzümün şirəsində şəkərlilik və turşuluğun miqdarı müəyyən edilmişdir. Belə ki, şəkərlərin kütləpayı Bayanşirə üzüm sortunda 22,0 q/100 sm^3, Merlo sortunda 23,5 q/100 sm^3, Rkasiteli üzüm sortunun şirəsində 23,0 q/100 sm^3, Abşeron şəraitində yetişdirilmiş Mədrəsədə 22,7 q/100 sm^3, Xindoqnıda 23,0 q/100 sm^3, Şirvanşahıda 23,2 q/100 sm^3, Moldovada 21,7 q/100 sm^3, Şamaxı şəraitində yetişdirilmiş Mədrəsədə 21,3 q/100 sm^3, Həməşərada isə 22,2 q/100 sm^3 olmuşdur.

Turşuluq göstəriciləri isə Bayanşirə üzüm sortunda 8,2 q/dm^3, Merlo sortunda 5,6 q/dm^3, Rkasiteli üzüm sortunun şirəsində 5,3 q/dm^3, Abşeron şəraitində yetişdirilmiş Mədrəsədə 5,3 q/dm^3,Xindoqnıda 5,2 q/dm^3, Şirvanşahıda 6,1 q/dm^3, Moldovada 6,4 q/dm^3, Şamaxı şəraitində yetişdirilmiş Mədrəsədə 6,2 q/dm^3, Həməşərada isə 6,3 q/dm^3 olmuşdur.

pH göstəricisi sortlar üzrə 3,1-3,4 olaraq norma daxilində tərəddüd etmişdir.

Şirə çıxımı sortlar üzrə 73,2-74,8% olmaqla qənaətbəxş səviyyədə formalaşmış və ən yüksək nəticəni Moldova sortu, ən aşağı nəticəni isə Xindoqnı sortu göstərmişdir.

SHQM/turşuluq nisbətlərinin qənaətbəxş səviyyədə olduğu müəyyən edilmişdir.

Aparılan analizlərin nəticələrinə görə etil spirtinin miqdarı Rkasiteli üzüm sortundan hazırlanan şərabda 13,0%/h; Abşeron şəraitində yetişdirilmiş Mədrəsədən alınan şərabda 13,5;

Xindoqnıda 13,6; Şirvanşahıda 13,8; tünd Şirvanşahı şərabında 16,7; Moldovada 12,7; Şamaxı şəraitində yetişdirilmiş Mədrəsədə 13,0; Həməşərada isə 13,3 %/h olaraq müəyyən edilmişdir. Ümumi turşuluq Bayanşirə üzüm sortundan alınan şərabda aparılan analizlərin nəticələrinə görə ən yuxarı 7,13 q/dm^3, Xindoqnı şərabında isə ən aşağı 4,65 q/dm^3 olmuşdur. Uçucu turşuların miqdarı Rkasiteli üzüm sortundan hazırlanan şərabda 0,35; Moldovada 0,24 q/dm^3 olaraq müəyyən edilmişdir.

Kükürd 4-oksidin miqdarı müxtəlif şərablarda aparılan analizlərin nəticələrinə görə 3,0 ilə 3,4 mq/l arasında tərəddüd etdiyi müəyyən edilmişdir.

Şəkər qalığının miqdarı, ümumi ekstrakt, pH-ın miqdarı və dequstasiya nəticələri standartlara və ədəbiyyat məlumatlarına uyğun olaraq təyin edilmiş və müqayisə edilmişdir.

Səlimov (2019) və başqalarının əldə etdiyi nəticələrə görə də torpaq iqlim şəraiti Mədrəsə üzüm sortundan alınan məhsulun keyfiyyətində mühüm rol oynayır. Bizim aldığımızneticə də bununla uyğunluq təşkil edir. Şamaxı şəraitində yetişdirilən Mədrəsə üzümündən hazırlanan şərabın orqanoleptik göstəricilərinin Abşeron şəraitində yetişdirilənə nisbətən yüksək olduğu müəyyən edilmişdir. Bu da Mədrəsə üzümündən hazırlanan şərabın fenol birləşmələrinin, dad və ətir verən maddələrin və digər əhəmiyyətli komponentlərin optimal səviyyədə formalaşmasında texnoloji proseslərlə yanaşı, torpaq-iqlim şəraitinin də mühüm rol oynadığından xəbər verir.

Kürdəmir, Şamaxı, Cəlilabad və Abşeron şəraitində yetişdirilən yerli və introduksiya olunmuş üzüm sortlarında şəkərin kütlə payı 21,1-23,5 q/100 sm^3, titrlənən turşuluq 5,2-8,2 q/dm3, pH 3,1-3,4, laboratoriya şəraitində şirə çıxımı 73,2-74,8 %, yetişmə indeksinin isə 28,4-47,5 intervallarında tərəddüd etdiyi müəyyən edilmişdir ki, bu da həmin üzüm sortlarının yüksək keyfiyyətli süfrə şərablarının hazırlanması üçün qiymətli xammal mənbəyi olduğunu göstərir. Kürdəmir bölgəsində yetişdirilən Şirvanşahı texniki üzüm sortundan hazırlanmış desert şərabda 16,7% etil spirti, 15 q/l şəkər olduğu müəyyən edilmişdir ki, bu da onun dad tam keyfiyyətlərinin yüksək olmasını təmin etmiş və dequstasiya nəticəsində 94 balla qiymətləndirilmişdir. Şirvanşahı texniki üzüm sortundan hazırlanmış qırmızı süfrə şərabında isə 13,8% etil spirti, 0,25 q/l şəkər qalığı təyin edilmişdir. Həməşəra üzüm sortundan hazırlanmış şərabda 13,3% etil spirti, 0,28 q/l şəkər qalığı, 5,2 q/l ümumi turşuluq, pH-ın miqdarı isə 3,4 olaraq müəyyən edilmiş, dequstasiya qiyməti isə 95 ball olmuşdur. Ümumiyyətlə hazırlanmış süfrə şərablarının keyfiyyətinin müasir metodlarla analizi və təhlili nəticəsində müxtəlif şərablarda etil spirti 12,7-14,0%, şəkər qalığı 0,14- 0,31 q/l, ümumi turşuluq 4,65-7,13 q/l və pH-ın miqdarının 3,08-3,40 arasında olduğu təyin edilmiş,dequstasiya qiymətləri isə 87-95 ball arasında olmuşdur. Müxtəlif torpaq-iqlim şəraitlərində yetişdirilən üzüm sortlarının xarakterik ekoloji-coğrafi zonallıq xüsusiyyətlərinin öyrənilməsi, fərqli terroirə sahib olan, coğrafi göstəricilərinə görə tanınan rəqabətqabiliyyətli milli brendlərin istehsalı və ixrac potensialının yüksəldilməsi baxımından çox əhəmiyyətlidir. Beləliklə, müəyyən edilmişdir ki, tədqiqata cəlb olunan üzüm sortlarından hazırlanan şərabların tərkibindəki komponentlər lazımı səviyyədə formalaşmışdır. Tövsiyə olunan üzüm sortlarından yüksək keyfiyyətli şərabların hazırlanma texnologiyası əsasında normativ-texniki sənədlər işlənib hazırlanmış və müvafiq təşkilatlara təqdim olunmuşdur.

KAYNAKLAR

Azərbaycan ampeloqrafiyası, I cild / V.M. Quliyev, T.M. Pənahov, M.R. Qurbanov [və b.] -Bakı: «Müəllim» nəşriyyatı, - 2017. - 736 s.

Əhmədov, Ə.İ. Azərbaycan üzümündən qidalı ərzaq məhsulları, monoqrafiya / Ə.İ.Əhmədov; Bakı: «Azərnəşr», - 2009. - 266 s.

Fətəliyev, H.K. Şərabın texnologiyası / H.K. Fətəliyev. - Bakı: Elm, - 2011. - 596 s.

Mikayılov, V.Ş. Qida məhsullarının dequstasiyası / V.Ş.Mikayılov; - Bakı: "Kooperasiya" nəşriyyatı, 2012. - 384 s.

Mikayılov, V.Ş. Qida məhsullarının ümumi texnologiyası / V.Mikayılov, E.Fərzəliyev; - Bakı: Kooperasiya, - 2018. - 832 s.

Nəbiyev, Ə.Ə. Qida məhsullarının biokimyası / Ə.Ə.Nəbiyev, E.Ə.Moslemzadeh;- Bakı: Elm, -2008. - 444 s.

Pənahov, T.M, Üzümün saxlanması, qurudulması və emalı texnologiyası / T.M.Pənahov, M.Ə.Hüseynov - Bakı: "Adiloğlu" nəşriyyatı, - 2019. - 348 s.

Şərifov, F.H. Üzümçülük / F.H. Şərifov; - Bakı: Şərq-Qərb, 2013. - 584 s.

Şükürov, A.S. Müxtəlif ekoloji şəraitdəki üzüm sortlarının aqrobioloji və təsərrüfat-texnolojixüsusiyyətlərinin öyrənilməsi. // Aqrar elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işinin avtoreferatı, Bakı: 2016, 26 s.

Tahirov, Ş.A., Azərbaycanın torpaq-iqlim şəraitində yetişən üzüm sortlarından süfrə şərablarının istehsal texnologiyasının əsasları, I hissə / Ş.A.Tahirov, M.Ə.Hüseynov - Bakı: "Müəllim" nəşriyyatı, - 2020. - 136 s.

Üzümçülükdə innovativ differensial texnologiyalar və risklər / V.S. Səlimov, M.Ə. Hüseynov,

A.S. Şükürov [və b.] - Bakı: «Müəllim» nəşriyyatı, - 2019. - 357 s.

Валуйко, Г.Г. Технологические правила виноделия 2 т,т / Г.Г.Валуйко, В.А.Загоруйко // Симферополь: Таврида. – 2006, Том 1, - 488 с.

Макаров, А.С. Особенности изменения фенольного комплекса винограда сортов селекции института Магарач в системе «Виноград-виноматериал-игристое вино / А.С.Макаров, Е.Н.Якименко, Н.М.Агеева. // Ялта:- Виноградарство и виноделие, - Магарач: - 2018. №4 - с.91-93.

Панасюк, А.Л. Мономерные формы антоцианов вин из винограда Донских автохтонных сортов / А.Л.Панасюк, Е.И.Кузьмина, Л.И.Розина, [и.др.] // Москва: - Виноделие и виноградарство, - 2016. №2, - с. 14-17.

Пытель, И.Ф. Реализация моделей селекционных сортов винограда технического направления / И.Ф.Пытель, В.А.Волынки, Н.П. Олейников//ГБУ ННИИВИВ Магарач-Виноградарство и виноделие, 2015. №3, с. 74-75.

Современное методическое обеспечение технохимического контроля в виноделии

/Н.С.Аникина, В.Г.Гержикова, Ю.Д.Погорелов [и др.] // Магарач: - Виноградарство и виноделие, -2018. № 4- с. 78-79.

Трошин, Л.П. Ампелографический скрининг генофонда винограда / Л.П. Трошин, Д.Н. Маградзе; - Краснодар: КГАУ, - 2013. - 120 с.

Черноусова, И.В., Полифенолы винограда– пищевые функциональные ингредиенты тихих столовых и игрисеых вин / И.В.Черноусова., Г.П.Зайцев, Ю.В.Гришин,[и др.] // «Магарач» Виноградарство и виноделие, - Магарач: -2018. №4- с.93-95.

Якименко, Е.Н. Особенности витаминного и аминокислотного состава виноматериалов из красных сортов и клонов винограда / Якименко Е.Н., Агеева Н.М., Бирюкова С.А // Москва: -Виноделие и виноградарство, - 2018. №4 - с. 36-40.

Amanov, M.V., Salimov, V.V., Musayev, M.K. Azerbaijan native varieties of grapevine (Magradze D., Rustioni L., Turok J., Scienza A., Failla O. Caucasus and Northern Black Sea Region Ampelography) / M.V. Amanov, V.V. Salimov, M.K. Musayev; Vitis, Journal of Grapevine Research, Germany, - 2012. – pp. 89-168.

AAWE. (2021, Sentyabr 16). Tag archive: Azerbaijan. Retrieved from wine-economics: https://www.wine-economics.org/tag/azerbaijan/.

AAWE. (2020, April 13). Tag archive: Azerbaijan. Retrieved from wine-economics: https://www.wine-economics.org/tag/azerbaijan/.

http://wine-grape.gov.az Yerli üzüm sortları və şərabçılıq məhsulları portalı.

http://www.azstat.org, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.

http://www.e-qanun.az/framework/1021, Üzümçülük və şərabçılıq haqqında Azərbaycan Respublikasının Qanunu.

https://president.az/articles/28381/print, “2018–2025-ci illərdə Azərbaycan Respublikasında şərabçılığın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

THE ROLE OF ZEOLITE ON DEVELOPMENT OF POTATOES UNDER DROUGHT STRESS

Aynur Özbahçe
Ali Fuat Tarı
Erdal Gönülal
Prof. Dr., Head of Landscape Architecture and Ornamental Plants, Selçuk University, Konya-Türkiye
Harran University, Agricultural Structures and Irrigation Department, Şanlıurfa-Türkiye
Bahri Dağdaş International Agricultural Research Institute, Konya-Türkiye
ORCID ID: https://orcid.org/0000-0001-7199-176X

Abstract

This study investigated the effect of application of different doses of the natural zeolite clinoptilolite and different irrigation levels on yield and quality of potatoes (*Solanum tuberosum* L., cv. Agria) and the nutrient contents of the soil under water-deficit stress in Konya-Karapınar, Türkiye. The study was conducted in a split-plot design with three replications. The primary element was the zeolite dose (Z0:0, Z3:30, Z6:60, Z9:90 andZ12:120 t ha−1) and the sub factor the irrigation level (I50:0.50, I75:0.75 and I100:1.00). The highest crop yields, 33.9–39.1 and 33.5–34.3 kg ha^{-1}, respectively, were obtained from Z6 I100 and Z6I75 applications in both years. In the experimental years, water consumption of Z6I75 treatment was determined as 509 and 420 mm, respectively. Some physical and chemical contents (CEC, ESP and total P, K, Ca, Mg, Zn and Mn contents) of the experiment soil were affected by zeolite treatments. These outcomes pointed that particular zeolite doses with optimum irrigation can be rewarding for potato grown in water-deficit stress conditions due to positive impacts on some soil physical and chemical properties and crop quality.

Keywords: potato, quality, yield, zeolite, nutrient content.

KURAKLIK STRESİ ALTINDA PATATESİN GELİŞİMİ ÜZERİNDE ZEOLİTİN ROLÜ

Özet

Bu çalışmada, doğal zeolit klinoptilolitin farklı dozlarının ve sulama seviyeleri uygulamalarının patatesin (*Solanum tuberosum* L., cv.Agrea) verim ve kalite ile toprağın besin elementi içeriğine etkileri araştırılmıştır. Deneme Türkiye, Konya-Karapınar'da tesadüf bloklarında bölünmüş parseller deneme deseninde ve 3 tekerrürlü olarak yürütülmüştür. Ana konuları zeolit dozu (Z0:0, Z3:30, Z6:60, Z9:90 ve Z12:120 t ha^{-1}) ve alt faktör ise sulama düzeyi (I50:0.50, I75:0.75 ve I100:1.00) oluşturmuştur. Her iki yılda da en yüksek ürün verimi sırasıyla 33,9–39,1 ve 33,5–34,3 kg ha^{-1} ile Z6 I100 ve Z6I75 uygulamalarından elde edilmiştir. Deneme yıllarında Z6I75 konusunun su tüketimi sırasıyla 509 ve 420 mm olarak tespit edilmiştir. Deneme toprağının bazı fiziksel ve kimyasal içerikleri (katyon değişim kapasitesi-CEC, değişebilir sodyum yüzdesi-ESP ve toplam P, K, Ca, Mg, Zn ve Mn içerikleri) zeolit uygulamalarından etkilenmiştir. Bu sonuçlar, optimum sulama ile belirli zeolit dozlarının, toprağın bazı fiziksel ve kimyasal özellikleri ve ürün kalitesi üzerindeki olumlu etkileri

nedeniyle su eksikliği stresi koşullarında yetiştirilen patatesler için faydalı olabileceğini göstermiştir.

Anahtar Kelimeler: patates, kalite, verim, zeolit, besin içeriği.

SPRING ASPECTS OF EPHEMERES AND EPHEMEROIDS OF THE CASPIAN COASTAL AREAS

Münəvvər SƏFƏROVA
Müəllim, Odlar Yurdu Universiteti, Təbiət və texnologiya fakültəsi

Abstract

Studying the current state of the Earth's vegetation in a period of climate change is one of the most important and urgent problems of great human importance. Recognizing that the earth's vegetation is dynamic and variable, it is considered one of the urgent issues to control the changes in the flora composition of the vegetation of individual areas against the background of climate changes. As we know, the terrain of Azerbaijan is located between the Greater Caucasus and Lesser Caucasus Mountain ranges and is an area with very diverse terrain features, climate types and soil cover. The presence of 9 climate zones in Azerbaijan creates conditions for the rich and mosaic vegetation here. Various hydrological, seismological, physical, etc. occurring in the Caspian Sea. processes have their positive and negative effects on vegetation on the Absheron Peninsula. The flora of Absheron occupies one of the important places with its species richness. Phytocenoses found in the territory of the Absheron Peninsula start from the sand dunes and reach the hardened sandy areas as they move away from the Caspian Sea. The ephemeris and ephemeroids found in the territories of the Absheron Peninsula are found not only in the coastal zone of the Caspian Sea, but also in the species composition of the formations included in the composition of vegetation types in other areas of the Absheron Peninsula as they move away from the sea to a certain extent. Currently, Absheron Peninsula is one of the important ecological and geographical areas of our Republic, so the study of the vegetation of the peninsula has been set as a goal. There are many important aspects of studying the vegetation of the Absheron Peninsula. During the fulfillment of the tasks arising from this goal, the study of ephemeris and ephemeroids found in the flora of Absheron and the determination of their morphological characteristics were carried out. For this purpose, seasonal observations of the vegetation of the Absheron peninsula were conducted in separate years, and ephemeris and ephemeroids found in the vegetation of the area in spring and winter seasons were studied. In this article presented to your attention, some spring aspect features of ephemera and ephemeroids found in the vegetation of the Absheron Peninsula are described. The results of the conducted field research were examined, camera research was carried out in the laboratories. The species composition of ephemera and ephemeroids found in the vegetation of the Absheron peninsula was determined using the existing reference books.

Key Words: ephemeris and ephemeroids, formation, vegetation type, relief, soil, Caspian Sea.

XƏZƏR SAHİLİ ƏRAZİLƏRİN EFEMER VƏ EFEMEROİDLƏRİNİN YAZ ASPEKTLƏRİ

Özet

Yer planetində iqlim dəyişkənliklərinin baş verdiyi bir dövrdə Yer kürəsinin bitki örtüyünün müasir vəziyyətinin öyrənilməsi mühüm bəşəri əhəmiyyət kəsb edən ən vacib həlli təxirə salınmaz problemlərdən biridir. Yer kürəsinin bitki örtüyünün dinamik və dəyişkən olduğunu qəbul edərək iqlim dəyişkənliklərinin baş vermə fonunda ayrı-ayrı ərazilərin bitki örtüyünün flora tərkibinin dəyişməsinin nəzarətdə saxlanılması təxirə salınmaz məsələlərdən hesab olunur. Bildiyimiz kimi Azərbaycanın relyefi Böyük Qafqaz və Kiçik Qafqaz sıra dağlarının arasında yerləşir və çox rəngarəng relyef xüsusiyyətlərinə, iqlim tiplərinə və torpaq örtüyünə malik bir ərazidir. Azərbaycanda 9 iqlim qurşağının olması burada bitki örtüyünün daha zəngin və mozaik olmasına şərait yaradır. Xəzər dənizində baş verən müxtəlif hidroloji, seysmoloji, fiziki və s. proseslər Abşeron yarımadasında olan bitki örtüyünə öz müsbət və mənfi təsirlərini göstərir. Abşeron florası öz növ zənginliyi ilə əhəmiyyətli yerlərdən birini tutur. Abşeron yarımadasının ərazisində rast gəlinən fitosenozlar ləpədöyən ərazilərdən başlayır və Xəzər dənizindən uzaqlaşdıqca bərkimiş qumluq ərazilərə qədər gedib çatır. Abşeron yarımadasının ərazilərində rast gəlinən efemer və efemeroidlər yalnız Xəzər dənizi sahil zonasında deyil, həmçinin dənizdən müəyyən qədər uzaqlaşdıqca Abşeron yarımadasının digər ərazilərində də bitkilik tiplərinin tərkibinə daxil olan formasiyaların növ tərkibində də rast gəlinir. Hal-hazırda Respublikamızın mühüm əhəmiyyət kəsb edən ekoloji, coğrafi ərazilərindən biri də Abşeron yarımadası olduğuna görə yarımadanın bitki örtüyünün öyrənilməsi qarşıya məqsəd qoyulmuşdur. Abşeron yarımadasının bitki örtüyünün öyrənilməsinin bir çox vacib tərəfləri vardır. Bu məqsəddən irəli gələn vəzifələrin yerinə yetirilməsi zamanı Abşeronun florasında rast gəlinən efemer və efemeroidlərin öyrənilməsi onları morformoloji xüsusiyyətlərinin təyin olunması sistematik analizinin aparılması həyata keçirilmişdir. Bu məqsədlə ayrı-ayrı illərdə Abşeron yarımadasının bitki örtüyünün mövsümi müşahidələri aparılmış, ərazinin bitki örtüyündə yaz və qış fəsillərində rast gəlinən efemer və efemeroidlər öyrənilmişdir. Diqqətinizə təqdim olunan bu məqalədə Abşeron yarımadasının bitki örtüyündə rast gəlinən efemer və efemeroidlərin bəzi yaz aspekt xüsusiyyətləri təsvir olunmuşdur. Aparılmış çöl tədqiqat işlərinin nəticələri araşdırılmış, lobaratoriyalarda kameral tədqiqatlar həyata keçirilmişdir. Mövcud təyinat kitablarından istifadə etməklə Abşeron yarımadasının bitki örtüyündə rast gəlinən efemer və efemeroidlərin növ tərkibi müəyyən edilmişdir.

Açar sözlər: efermer ve efemeroidlər, formasiya, bitkilik tipi, relyef, torpaq, Xəzər dənizi.

GİRİŞ

Azərbaycan Respublikasının florası və bitki örtüyü dünyanın ən zəngin flora və bitki örtüyünə malik ərazilərindən biri hesab olunur. Azərbaycanın bitki örtüyünün növ tərkibinin 4500-dən çox ali bitki növü olmasının və müxtəlif bitkilik tiplərinin respublikamızın ərazisində rast gəlinməsinin səbəbi Azərbaycan Respublikasının coğrafi ərazilərinin relyef, torpaq, iqlim xüsusiyyətlərindən asılıdır. Azərbaycanın relyefi Böyük Qafqaz və Kiçik Qafqaz sıra dağlarının arasında yerləşərək çox rəngarəng relyef xüsusiyyətlərinə, iqlim tiplərinə və torpaq örtüyünə malik bir ərazidir. Belə ərazilərdən biridə Abşeron yarımadası hesab olunur. Abşeron yarımadası öz unikal torpaq, iqlim xüsusiyyətlərinə görə respublikamızın digər ərazilərindən fərqlənir. Abşeron yarımadasında bitki örtüyünün yaranmasında, formalaşmasında onun növ

tərkibinin rəngarəngliyində Xəzər dənizinin çox böyük və həll edici rolu olmuşdur. Belə ki, bitkilik tiplərinin formalaşmasında Xəzər dənizinin fiziki coğrafi xüsusiyyətləri orda baş verən hidroloji proseslər və s. bitki örtüyünün formalaşmasına növ tərkibinin rəngarəngliyinə şərait yaratmışdır. Abşeron yarımadasının qumlu ərazilərində xüsusi ilə də Xəzər sahili ərazilərdə spesifik iqlim şəraitində və spesifik yaşama mühitində bitkiliyin formalaşmasında mövsümi və illik dəyişkənliklərinin xüsusi rolunu qeyd etmək lazımdır. Ədəbiyyat məlumatlarına görə Abşeron ərazisində 300000 hektardan çox qumlu sahələrə rast gəlinir. Abşeron yarımadasının iqlimini quru subtropik iqlim tipinə aid etmək olar. Bu iqlim tipinin formalaşması şimal (xəzri), cənub (giləvar) küləklərinin təsiri altında formalaşmışdır. Bütövlükdə isə Abşeron yarımadasının iqlim xüsusiyyətləri isti və mülayim qışı, günəşli payız və isti yay mövsümləri ilə xarakterizə olunur. Torpağın quraqlığı əsasən cənub küləklərinin təsiri altında və orta tempratur göstəricisinin yayda 40-45 ℃ çıxması ilə xarakterizə olunur. Burada yarımsəhra və səhra bitkilik tipləri xüsusi ilə geniş yayılmışdır. Ərazinin ayrı-ayrı sahələrində ayrı ayrı lokal ərazilərdə səhra bitkilik tipinin xarakterik xüsusiyyətlərini özündə cəmləşdirən bitki qruplaşmalarınada rast gəlmək mümkündür. Bütövlükdə ərazinin bitki örtüyü haqqında danışanda qeyd etmək lazımdır ki, burada sahil zonasında qumlu ərazilərdə litoral və psamofil formasiyalarına rast gəlinir. Bu formasiyalar müxtəlif assossassiyalardan təşkil olunmuşdur. Psamofil və litoral bitkilik tiplərinin əsas növ tərkibinə daxil olan fəsilələrdən taxılları, paxlalalıları müxtəlifotluları və s. fəsilələrin növlərini göstərmək mümkündür. Qeyd etmək olarki, Abşeron yarımadası bitkiliyinin tərkibində əsasən psamofil və litoral bitkilik formasiyalarına rast gəlinir. Abşeron yarımadasının ərazisində rast gəlinən fitosenozlar ləpədöyən ərazilərdən başlayaraq Xəzər dənizindən uzaqlaşdıqca bərkimiş qumluq ərazilərdə də rast gəlinir. Coğrafi relyef dəyişdikcə ərazidə rast gəlinən bitki formasiyalarının tərkibi də dəyişir. Bitkiliyin ümumi xarakteristikası kəskin iqlim şəraitində ətraf mühitə, torpağa az tələbkar bitkilər ilə müəyyən olunur. Bitkilərin morfoloji, anatomik xüsusiyyətləri ərazinin torpaq iqlim şəraitinin təsiri nəricəsində formalaşmışdır. Fitosenozların tərkibində birillik, çoxillik ot bitkilərinə, bəzi ərazilərdə isə yarımkollara və kollara da rast gəlmək mümkündür. Xəzər dənizinin qumlu sahillərində bitkilik tiplərinin yayılması qumluq ərazinin xüsusiyyətlərindən, duzluluq dərəcəsindən və qumların bərkimə xüsusiyyətlərindən asılıdır. Belə ki, formasiyaların rast gəlindiyi ərazilərdə qumun yaş olmasından və yaxud quru qumluqların olmasından, bərkimiş qumluqların olmasından asılı olaraq bitkilərin də bioekoloji xüsisiyyətləri dəyişir. Abşeron yarımadası ərazisində Xəzər dənizinə yaxın sahələrdə yaşayan bitkilər duzadavamlılığı ilə seçilirlər. Bu ərazilərdə rast gəlinən formasiyalar məhdud sayda növ tərkibinə malik olur və bunlar qapanmamış birlik kimi xarakterizə olunurlar. Qeyd etmək lazımdır ki, Abşeron yarımadasının ərazisində efemer və efemeroidlərin vegetasiya dövründə çim əmələgəlmə müşahidə olunur. Bəzi formasiyaların tərkibində kökümsova malik çoxillik sürünən bitki növlərinə rast gəlinir ki, bunlarda aşağı yarusun əsas kompanentləri hesab olunur. Onlar güclü inkişaf edirlər xüsusi ilə də kökümsovları yaxşı inkişaf edir, sərtdir, uzundur. Abşeron yarımadasının bitki örtüyünün tərkibində ayrı-ayrı ləkələr şəklində rast gəlinən efemer və efemeroidlər fitosenozun tərkibində özünəməxsus fitosenoloji fon yaradırlar. Belə ki, ilk baxışdan qısa bir müdət ərzində vegetasiya etmək xüsusiyyətlərinə malik olmalarına baxmayaraq efemer və efemeroidlər Abşeron yarımadasının ərazisində rast gəlinən səhra və yarımsəhra bitkilik tipinin ayrı-ayrı ərazilərində yuxarıda qeyd olunan kimi özünəməxsus fitosenoloji fon əmələ gətirərək Abşeron yarımadasına xüsusi gözəllik verir. Abşeron yarımadasının efemer və efemeroidlərinin əmələ gətirdiyi bitki qruplaşmalarında fitosenotiplər yerüstü və yeraltı fitokütləsinə görədə bir birindən kəskin fərqlənirlər. Bu isə ilk növbədə fitosenotiplərin yayıldığı ərazinin ekoloji şəraiti ilə senozların formalaşmasında iştirak edən növlərin bioloji xüsusiyyətləri ilə xüsusi ilə dominant növlərin bioekoloji və həyatilik

xüsusiyyətləri ilə üzvi surətdə bağlıdır. Qeyd etmək lazımdir ki, Abşeron yarımadasının bitki örtüyündə rast gəlinən efemer və efemeroidlərin formasiyaları digər çoxillik bitkilərin yayıldığı ərazilərdə də rast gəlinir. Abşeron yarımadasının həm yaş qumlu həm də quru qumlu ərazilərində rast gəlinən bitki qruplaşmalarının formasiyalarının növ tərkibinə adətən 10-12 ali bitki növü daxildir. Bu bitkilərdən 3-4 növ formasiyanın daimi nümayəndələri hesab olunur. Efemer və efemeroidlər qısa vegitasiya xüsusiyyətlərinə (1 ay, 1 ay yarım) malik olduğuna görə onlar formasiyanın tərkibində müəyyən bir dövrdə güclü inkişaf edir və qısa bir müddətdən sonra isə dəyişən iqlim şəraitinin təsiri nəticəsində havaların temperaturunun qalxması, mövsüm dəyişməsi ilə, fəsillərin dəyişməsi ilə əlaqədar olaraq da tez sıradan çıxırlar. Efemer bitkilərin Abşeron yarımadasının ərazisində rast gəlinən formasiyalrın tərkibində özünəməxsus yarus mərtəbəlilik xüsusiyyətləri də vardir ki bu da aşağı yarusu. birinci mərtəbəni əmələ gətirirlər. Efemer formasiyaları bütövlükdə Xəzər sahili üçün xarakterik formasilar hesab olunur amma Abşeron yarımadasında isə bunların daha özünəməxsus, rəngarəng növlərə malik olan formasiyaları daha geniş yayılmışdır.

Abşeron yarımadasının ərazilərində rast gəlinən efemer və efemeroidlər təkcə Xəzər dənizi sahil zonasında deyil dənizdən müəyyən qədər uzaqlaşdıqca Abşeron yarımadasının digər ərazilərində də bitkilik tiplərinin tərkibinə daxil olan formasiyaların növ tərkibində də rast gəlinir. Belə ki, Abşeron yarımadasında yovşanlı səhraların geniş yayıldığı səhra tipli bitkilik tipinin növ tərkibində efemer və efemeroidlərə rast gəllinir. XX əsrin ayrı-ayrı vaxtlarında müxtəlif alimlərin Xəzər dənizi sahili və Abşeron yarımadası ərazisində həyata keçirdikləri geobotaniki tədqiqatların nəticələri ilə son tədqiqatların nəticələrini müqayisə etdikdə, bu ərazilərin bitki örtüyünün formasiya tərkibində nəzərə çarpan dəyişkənliklər olduğu müəyyən olunur. Bu eyni zamanda bitkilərin bioekoloji xüsusiyyətlərində də müşahidə olunur. Bu dəyişkənliklərin baş vermə səbəbləri iqlim dəyişkənlikləri və antropogen faktorun təsirləridir. Ərazinin bitki örtüyünün növ tərkibində rast gəlinən bəzi bitki növlərinin arealının daralması, proyektin örtükdə faizinin aşağı düşməsi, formasiyaların və assosiasiyaların növ tərkibinin kasıblaşması tədqiqat ərazisində təxirə salınmaz tədbirlərin həyata keçirilməsini zəruri edir. Bu məqsədlə qorunan ərazilərin sahəsinin genişləndirilməsi, ərazinin bitki örtüyünün yaxşılaşdırılma işlərinin aparılması, bəzi sahələrdə fitomeliorativ tədbirlər planının həyata keçirilməsi vacibdir. Yuxarıda qeyd olunan tədbirlər metodiki olaraq həyata keçirilmiş olarsa, unikal bitki örtüyünə və floraya malik olan tədqiqat ərazisində gələcəkdə baş verə biləcək ekoloji fəlakətlərin və pozuntuların qarşısını almaq mümkün olar.

TƏDQİQAT METODU

Tədqiqatlar geobotaniki tədqiqatların yerinə yetirilməsi qaydalarına uyğun olaraq çöl və kameral təcrübələr əsasında həyata keçirilmişdir. Mövümü müşahidələr nəticəsində Abşeron yarımadasının ayrı-ayrı ərazilərində efemer və efemeroidlər rast gəlinən bitki formasiyaları müəyyən olunmuş. Onların foto şəkilləri çəkilmiş, növ tərkibi müəyyən edilmiş, ərazinin proektiv örtüyü mərtəbələliyi və s. xüsusiyyətləri öyrənilmişdir.

NƏTİCƏ

Aparılmış çöl və kameral tədqiqatlar nəticəsində Abşeron yarımadasının efemer və efemeoridlərin yaz aspektlərinin təhlili zamanı fitosenozların növ tərkibində rast gəlilən

taxilkimilər fəsiləsinə aid olan bəzi bitki növləri müəyyən olunmuş və bu bitki növlərindən ən çox rast gəlinən növlərdən bəziləri aşağıda göstərilmişdir:

Crypsis aculeata, Alopecurus myosuroides, Trisetum cavanillesii Trin, Avena pilosa MB, A.bruhsiana Grun, Ammochloa palaestina Boiss, Sphenopus divaricatus Rehb, Schismus arabicus Nees, Poa annua L, Vulpia ciliata Link, Nardurus krausei V.Kreez.et E.Bobr, Scleropoa rigescens Grossh, Bromus scoparius L və s.

ƏDƏBİYYAT SİYAHISI

1. E.M.Qurbanov Ali bitkilərin sistematikası. 2009 Bakı Dövlət Universitetinin nəşr,
2. E. M. Qurbanov Bitki morfologiyası .2018. Bakı Dövlət Universitetinin nəşr.
3. Флора Азербайджана 1954-1961 в VIII томах
4. Флора Абшерона 1957
5. Azərbaycan florası bitkiliyin istifadəsi və qorunması Bakı.1999 məqalələr toplusu

INFLUENCE OF MICROBES ON THE ENVIRONMENT

Sunay Nəcəfli
Odlar Yurdu Universiteti, Biologiya ixtisası
Tamilla KƏRİMOVA
a.ü.f.d., dos., Odlar Yurdu Universiteti, Təbiət və Texnologiya Fakultəsi

Abstract

We all know that microbes are everywhere. This is not surprising, because microorganisms are much more numerous than people, and there are very few clean environments on earth. Even 90% of the human body consists of microorganisms. We encounter 60,000 types of microbes every day, fortunately only 1-2% of them are a potential threat to people with normal immunity. At the same time, there are a number of places and surfaces where the density of microorganisms dangerous to humans is particularly high. The main reason for the widespread distribution of microorganisms is their small size, low weight and rapid reproduction. Depending on the physical and chemical properties of the soil, the microorganisms there vary both in number and species composition. Soil microbiota depends on its type, seasons of the year, plowing of the soil, giving it various fertilizers, etc. has a great impact. The microbiota of the soil also differs sharply in its diversity. As mentioned here, it contains bacteria, actinomycetes, yeasts and molds, algae, protozoa, etc. is spread. It is not appropriate to have different types of microbes in water, which are of special importance for creatures in nature. Due to the presence of pathogenic microbes in drinking water, certain diseases occur in humans and animals, and water used for technical purposes causes premature spoilage of many products. Since bacteria are water-loving - hydrophilic organisms, they are abundant and grow well in the aquatic environment. Because the water environment contains oxygen, nitrogen, carbon dioxide, sulfur, iron, phosphorus, etc. compounds are in dissolved form. Such conditions in the water environment lead to the development of various physiological groups of microorganisms. Microorganisms enter water mainly from the surface of the soil, partly from the air, rain and dust. Therefore, soil and air microorganisms are often found in water. Microorganisms are spread through the air mainly by wind and dust from the soil. However, air is the worst environment for the growth of microorganisms. There is not enough moisture and food for those organisms. On the other hand, the sun's rays pass through the atmosphere faster than the top layer of the soil. Nevertheless, micro-organisms are always encountered in the atmosphere. Especially in the lower layers of the atmosphere, there are always more microorganisms. Germs can be released into the air by coughing, sneezing, and even saliva from sick people when talking, or by wind from soil contaminated with the patient's secretions.

Keywords: microorganism, immunity, microbiota, hydrophilic organisms.

MİKROBLARIN ƏTRAF MÜHİTƏ TƏSİRİ

Özet

Hamımıza bəllidir ki, mikroblar hər yerdə mövcuddurlar. Bu da təəccüblü deyil, çünki mikroorqanizmlər sayca insanlardan qat-qat çoxdur və yer üzərində həqiqətən də mikroblardan, təmiz mühitin sayı çox azdır. Hətta insan bədəninin də 90%-i mikroorqanizmlərdən ibarətdir. Biz hər gün 60 min mikrob tipi ilə qarşılaşırıq, xoşbəxtlikdən onların 1-2%-i normal immunitetə malik adamlar üçün potensial təhlükədir. Eyni zamanda insan üçün təhlükəli olan mikroorqanizmlərin sıxlığının xüsusi ilə yüksək olduğu bir sıra yerlər və səthlər də mövcuddur. Mikroorqanizmlərin belə geniş yayılmasının əsas səbəbi onların kiçik ölçüyə, az çəkiyə malik olması və sürətlə çoxalmalarıdır. Torpağın fiziki və kimyəvi xüsusiyyətlərindən asılı olaraq, oradakı mikroorqanizmlər həm sayca, həm də növ tərkibinə görə dəyişirlər. Torpağın mikrobiotasına onun tipi, ilin fəsilləri, torpağın şumlanması, ona müxtəlif gübrələrin verilməsi və s. böyük təsir göstərir. Torpağın mikrobiotası öz müxtəlifliyi ilə də kəskin fərqlənir. Burada qeyd olunduğu kimi, onda bakteriyalar, aktinomisetlər, maya və kif göbələkləri, yosunlar, ibtidailər və s. yayılmışdır. Canlı təbiətdəki varlıqlar üçün xüsusi əhəmiyyətə malik olan suda müxtəlif növ mikrobların olması məqsədəuyğun deyildir. İçilən su tərkibində patogen mikrobların olması ilə insan və heyvanlarda müəyyən xəstəliklərin əmələ gəlməsinə, texniki məqsədlə işlədilən su isə bir çox məhsulların vaxtından əvvəl xarab olmasına səbəb olur. Bakteriyalar su sevən – hidrofil orqanizmlər olduğuna görə, su mühitində onlar çox olur və yaxşı inkişaf edirlər. Çünki su mühitində oksigen, azot, karbon qazı, kükürd, dəmir, fosfor və s. birləşmələr həll olmuş şəkildədir. Su mühitində yaranan belə şərait müxtəlif fizioloji qrup mikroorqanizmlərin inkişafına səbəb olur. Suya mikroorqanizmlər əsasən torpağın səthindən, qismən də havadan, yağış və tozla düşür. Ona görə də torpaqda və havada olan mikroorqanizmlərə çox vaxt suda rast gəlmək olur. Mikroorqanizmlər havaya əsasən küləklə torpaqdan çıxmış tozlarla yayılırlar. Lakin, hava mikroorqanizmlərin inkişafı üçün ən pis mühitdir. Burada həmin orqanizmlərə lazım olan qida, kifayət qədər rütubət yoxdur. Digər tərəfdən günəş şüaları hava mühitindən, torpağın üst qatına nisbətən daha sürətlə keçirlər. Buna baxmayaraq atmosferdə daima mikroorqanizmlərə təsadüf olunur. Xüsusilə atmosferin aşağı təbəqələrində həmişə mikroorqanizmlər daha çox olur. Mikroblar havaya xəstə insanlardan öskürək, asqırma və hətta danışan zaman tüpürcəklə birlikdə və ya xəstənin ifrazatı ilə çirklənmiş torpaqdan küləklə düşə bilər.

Açar sözlər: mikroorqanizm, immunitet, mikrobiota hidrofil orqanizmlər.

Hamımıza bəllidir ki, mikroblar hər yerdə mövcuddurlar. Bu da təəccüblü deyil, çünki mikroorqanizmlər sayca insanlardan qat-qat çoxdur və yer üzərində həqiqətən də mikroblardan, təmiz mühitin sayı çox azdır. Hətta insan bədəninin də 90%-i mikroorqanizmlərdən ibarətdir.Biz hər gün 60 min mikrob tipi ilə qarşılaşırıq, xoşbəxtlikdən onların 1-2%-i normal immunitetə malik adamlar üçün potensial təhlükədir. Eyni zamanda insan üçün təhlükəli olan mikroorqanizmlərin sıxlığının xüsusi ilə yüksək olduğu bir sıra yerlər və səthlər də mövcuddur.

Mikroorqanizmlərin belə geniş yayılmasının əsas səbəbi onların kiçik ölçüyə, az çəkiyə malik olması və sürətlə çoxalmalarıdır. Digər canlılar kimi mikroorqanizmlərin ilk tarixi beşiyi su mühiti olmuşdur. Sonrakı dövrlərdə torpağın əmələ gəlməsi ilə əlaqədar olaraq mikroorqanizmlər üçün artıq torpaq mühiti əsil yaşayış yeri olmuşdur. Su havaya nisbətən mikroorqanizmlərlə daha zəngindir. Müəyyən olunmuşdur ki, 1 qram torpaqda milyonlarla, hətta milyardlarla mikrob vardır. Bunun əsas səbəbi torpaqda mikroorqanizmlərin inkişafını

təmin edən hər bir şəraitin olmasıdır. Onlar qidalanmaq üçün kifayət qədər üzvi və mineral maddələr, nəmlik, oksigen, mühit reaksiyası və s. Təmin etməklə bərabər, torpaq zərrəcikləri günəşin öldürücü təsirindən bu xırda canlıları qoruyur.

Torpağın fiziki və kimyəvi xüsusiyyətlərindən asılı olaraq, oradakı mikroorqanizmlər həm sayca, həm də növ tərkibinə görə dəyişirlər. Torpağın mikrobiotasına onun tipi, ilin fəsilləri, torpağın şumlanması, ona müxtəlif gübrələrin verilməsi və s. böyük təsir göstərir. Torpağın mikrobiotası öz müxtəlifliyi ilə də kəskin fərqlənir. Burada qeyd olunduğu kimi, onda bakteriyalar, aktinomisetlər, maya və kif göbələkləri, yosunlar, ibtidailər və s. yayılmışdır.

Torpaq mikroorqanizmləri arasında həm saprotrof, həm də xəstəlik əmələ gətirən növlərə, yəni patogenlərə rast gəlmək olar. Mikroorqanizmlərin miqdarı torpaq qatlarında qeyri-bərabər yayılmışdır. Torpağın dərinliyi artdıqca mikroorqanizmlərin miqdarı da azalır. Bu da mikroorqanizmlərə lazım olan qida maddələrinin, eləcə də oksigenin aşağı qatlara getdikcə azalması ilə əlaqədardır.

Bir qram torpaqda təxminən 40 milyon, 1 millilitr şirin suda isə 1 milyon qədər bakteriya hüceyrəsi tapılır. Yer kürəsindəki toplam bakteriya kütləsi bütün mövcud bitki və heyval cəmindən daha çoxdur[1].

Yaşadıqları mühit şəraitindən aslı olaraq bakteriyalar geniş müxtəlifliyə malikdir. Onlar hüceyrələrinin forması, tənəffüs, qidalanma və digər xüsusiyyətlərinə görə də bir birindən fərqlənir. Qidalanma tiplərinə görə bakteriyalar avtotrof və heterotrof bakteriyalara bölünür.

Avtotrof-qeyri-üzvi maddələrdən üzvi maddələr sintez etmə qabiliyyətinə malikdirlər.Bakteriyaların əksəriyyəti heterotrof yolla qidalanır. Lazım olan üzvi maddələri xarici mühitdən alır.

Canlı təbiətdəki varlıqlar üçün xüsusi əhəmiyyətə malik olan suda müxtəlif növ mikrobların olması məqsədəuyğun deyildir. İçilən su tərkibində patogen mikrobların olması ilə insan və heyvanlarda müəyyən xəstəliklərin əmələ gəlməsinə, texniki məqsədlə işlədilən su isə bir çox məhsulların vaxtından əvvəl xarab olmasına səbəb olur. Bakteriyalar su sevən – hidrofil orqanizmlər olduğuna görə, su mühitində onlar çox olur və yaxşı inkişaf edirlər. Çünki su mühitində oksigen, azot, karbon qazı, kükürd, dəmir, fosfor və s. birləşmələr həll olmuş şəkildədir. Su mühitində yaranan belə şərait müxtəlif fizioloji qrup mikroorqanizmlərin inkişafına səbəb olur. Suya mikroorqanizmlər əsasən torpağın səthindən, qismən də havadan, yağış və tozla düşür. Ona görə də torpaqda və havada olan mikroorqanizmlərə çox vaxt suda rast gəlmək olur.

Su mənbələrinin çirklənməsinə səbəb yaşayış məskənlərinin suya yaxın olmasıdır, çünki həmin sulara müxtəlif tullantılar və kanalizasiya suları da qarışa bilir. Üzvi maddələrlə zəngin olan belə sularda mikroorqanizmlər hədsiz çox olur. Dəniz və göllərdə isə sahildən uzaqlaşdıqca mikrobların miqdarı azalır. Suyun təmizlik dərəcəsi 1 ml suda olan saprotrof mikrobların sayına görə müəyyən edilir. 1 ml-də 100-ə qədər saprotrof bakteriya olan su yaxşı su hesab edilir. Yağış suyunda mikroblar çox az olur. Əgər su insan və ya heyvan nəcisi ilə çirklənibsə, belə suda bağırsaq çöpləri həmişə çox olur. Ona görə də bu çöplər çirkli su üçün indikator hesab olunurlar.

Səhiyyə nöqteyi-nəzərincə suyun təmiz, yaxud natəmiz olmasını bilmək üçün əsasən 3 göstəricidən istifadə edilir. Bunlara: 1) suyun 1 ml-də olan saprotrof mikrobların ümumi miqdarı; 2) suyun koli-titri; 3) suyun koli-indeksi aiddir.

1) Saprotroflar–hazır üzvi maddələrlə qidalanan bitkilərdə olan mikroblar.

2) Koli-titr içərisində bağırsaq çöpü tapıla biləcək suyun ən az həcminə deyilir.

3) Koli-indeks 1 litr tədqiq olunan sudakı bağırsaq çöplərinin miqdarıdır.

Yaxşı içməli suyun koli-titri 333 və ya koli-indeksi 3 olmalıdır. İçmək üçün çay və ya su hövzələrinin suyundan istifadə olunursa, belə su müvafiq süzgəclərdən keçirilməlidir.

Mikroorqanizmlər havaya əsasən küləklə torpaqdan çıxmış tozlarla yayılırlar. Lakin, hava mikroorqanizmlərin inkişafı üçün ən pis mühitdir. Burada həmin orqanizmlərə lazım olan qida, kifayət qədər rütubət yoxdur. Digər tərəfdən günəş şüaları hava mühitindən, torpağın üst qatına nisbətən daha sürətlə keçirlər. Buna baxmayaraq atmosferdə daima mikroorqanizmlərə təsadüf olunur. Xüsusilə atmosferin aşağı təbəqələrində həmişə mikroorqanizmlər daha çox olur. Mikroblar havaya xəstə insanlardan öskürək, asqırma və hətta danışan zaman tüpürcəklə birlikdə və ya xəstənin ifrazatı ilə çirklənmiş torpaqdan küləklə düşə bilər.

İstifadə olunmuş ədəbiyyat:

1. Məmmədov Q. Ş. Xəlilov M. Y. Ensiklopedik ekoloji lüğıt Bakı 2008
2.Məmmədov Q. Ş. Xəlilov M. Y. Ensiklopedik ekoloji lüğıt Bakı 2008
3. Mikroorqanizmlərin ekologiyası, suyun, torpağın və havanın sanitar-mikrobioloji müayinəsi [Mətn]:
Tələbələr üçün tədris-metodik vəsait /H. H. İbrahimov, A. M. Məmmədov, İ. B. Əhmədov ;Bakı: 1996
4 В. В. Лысак Микробиология , МИНСК БГУ 2007
5. Емцев, В. Т. Микробиология / В. Т. Емцев, Е. Н. Мишустин. М.: Дрофа, 2005.

SHUSHA – HISTORICAL, CULTURAL AND STARTEGIC CITY

Nergiz MEMMEDZADEH
Odlar Yurdu Üniversitesi, Ekonomi ve Yönetim Fakültesi
ORCID ID: https://orcid/org/0009-0006-9884-6515

Abstarct

Shusha Castle was the capital of Karabakh Khanate of Azerbaijan for many years. The construction of Shusha Castle is considered to be from 1750-1751. According to historical sources, the construction of the fortress on a high, steep mountain began in 1750 and was completed in 1756-1757. Karabakh Khan Panah Ali Khan declared Shusha the capital, fortified it and turned it into a fortress-city. The city was named "Panahabad" in honor of Panah Ali Khan, and later "Shusha Castle" and "Shusha". British travelers and scientists J. Morye and R. Burter made valuable comments about the antiquity of Shusha. According to J. Morye, Shusha was a human settlement even before the era. R. Burter writes that "Shusha has stone buildings, wide streets with stone floors, which are not found elsewhere in the Caucasus, and the remains of beautiful baths reminiscent of ancient Roman baths". There are facts that Shusha was one of the famous cities of Azerbaijan even in the 13th century.

Keywords: Shusha, Karabagh, Azerbaijan, Panah Ali Khan.

ŞUŞA - TARİHİ, KÜLTÜREL VE STRATEJİK ŞEHİR

Özet

Şuşa Kalesi uzun yıllar Azerbaycan'ın Karabağ Hanlığı'na başkentlik yapmıştır. Şuşa Kalesi'nin yapımının 1750-1751 yılları arasında olduğu kabul edilmektedir. Tarihi kaynaklara göre yüksek ve sarp bir dağ üzerindeki kalenin yapımına 1750 yılında başlanmış ve 1756-1757 yıllarında tamamlanmıştır. Karabağ Hanı Panah Ali Han Şuşa'yı başkent ilan etti, onu tahkim etti ve kale-şehir haline getirdi. Şehre, Panah Ali Han'ın onuruna "Penahabad", daha sonra "Şuşa Kalesi" ve "Şuşa" adı verildi. İngiliz seyyah ve bilim adamları J. Morye ve R. Burter Şuşa'nın antikliği hakkında değerli yorumlarda bulunmuşlardır. J. Morye'ye göre Şuşa, çağdan önce de bir insan yerleşimiydi. R. Burter, "Şuşa'da Kafkasya'nın başka hiçbir yerinde bulunmayan taş binalar, taş zeminli geniş caddeler ve antik Roma hamamlarını anımsatan güzel hamam kalıntıları var" diye yazıyor.Tarihi kaynaklarda Şuşa'nın 13. yüzyılda bile Azerbaycan'ın ünlü şehirlerinden biri olduğuna dair gerçekler bulunmaktadır.

Anahtar Kelimeler: Şuşa, Karabağ, Azerbaycan, Panah Ali Han.

GİRİŞ

18. yüzyılın ikinci yarısından itibaren şehrin nüfusu hızla artmış ve Şuşa, Azerbaycan'ın en önemli ve stratejik açıdan önemli şehirlerinden biri haline gelmiştir. Panah Ali Han döneminde bile şehirde büyük imar çalışmaları yapılmış, daha sonra İbrahimhalil Han (1763-1806) döneminde Karabağ Hanlığı daha da güçlenmiştir. Hanlığın topraklarında Askaran, Agoglan kaleleri, Şuşa kalesinin surları vb. dikkat çekici, stratejik açıdan önemli kaleler inşa edildi. Kısa

sürede oldukça büyüyen şehir, doğal güzellikleri, yüksek binaları ve görkemli kale duvarlarıyla dikkat çekiyor.

DETERMINATION OF ANNUAL ALTERATION STATUS OF BASALT MAIN ROCK USING SCHMIDT HAMMER: FOR EXAMPLE KAMIŞLI STREAM BASIN (ARDAHAN)

Murat FIÇICI
Dr. Öğr. Üyesi, Ardahan Üniversitesi, İnsani Bilimler ve Edebiyat Fakültesi
ORCID ID: https://orcid.org/0000-0003-1508-7738

Abstract

There is a direct connection between the hardness of rocks related to the degradation of the bedrock and geological erosion. The hardness of the bedrock is related to the minerological composition that makes up the rock. The hardness of the rocks and the factors and processes involved in the disintegration of the rock over time are considered as a process that takes place within interconnected functions, such as climatic conditions, drainage networks installed on the bedrock, and the degradation of living creatures that can grow on it by biochemical or physicochemical processes. The state of bedrock surface hardness plays a major role in triggering geological erosion that may occur on rock surfaces. This situation can be revealed by the measurement tool used to measure concrete hardness in the construction industry by Ernst Schmidt in 1948. Rock surface hardness is one of the methods used by many reserchers in terms of geological erosion according to the rebound law.

Kamışlı Stream Basin, determined as the study area, is one of the tributaries of the Kura River within the borders of Ardahan Province in the northeast of Türkiye. The total area of the basin is 1.236 ha and it is located between 41° 6′ 30″ and 41° 4′ north latitudes and 42° 51′ 30″ and 42° 55′ 30″ east longitudes. There is an average relative elevation difference of 460 m, starting from the lowest part of the basin, at 1.840 meters, to Tinotepe (2.308 m), which is the highest point in basin. The basin of the study area and its surroundings are composed of Upper Miocene-Lower Pliocene basalt bedrock.

As a result of measuring rock surface hardness in 56 different locations using Schmidt hammer, R_O rebound values ranging from 51,3 to 57,1 were determined for 25% of the hardness in the name of bedrock degradation, and 75% of basalts with moderate hardness were found to be 40,5 to 49,7. It has been determined that R_O rebound values and rock surface hardness vary between. It was concluded that an annual average of 0,113 t per hectare of rock was weathered on hard rock surfaces and an annual average of 0,128 t per hectare on moderately hard rock surfaces. Therefore, it has been concluded that basalts with medium hardness are more easily deformed than hard basalts and have higher productivity in terms of geological erosion.

Keywords: Annual weathering, Basalt, Kamışlı Stream and Its Surroundings.

BAZALT ANA KAYASININ YILLIK ALTERASYON DURUMUNUN SCHMİDT ÇEKİCİYLE SAPTANMASI: KAMIŞLI DERESİ HAVZASI (ARDAHAN) ÖRNEĞİ

Özet

Anakayanın bozunmasına ilişkin kayaçların sahip oldukları sertlik durumları ile jeolojik erozyon arasında doğrudan bir bağlantı mevcuttur. Anakayanın gösterdiği sertlik, kayacı meydana getiren minerolojik bileşim ile ilişkilidir. Kayaçların sertlik durumları ile zaman içerisinde kayacın parçalanmasında yer alan etmen ve süreçler klimatik koşullar, anakaya üzerine kurulum gösteren drenaj ağları ve üzerinde yetişme imkanı gösteren canlı varlıkların biyokimyasal ya da fizikokimyasal süreçler tarafından bozunuma uğratılması birbirine bağlantılı fonksiyonlar dahilinde gerçekleşen bir süreç olarak kabul edilmektedir. Anakaya yüzey sertliklerinin durumu kaya yüzeylerinden oluşabilecek jeolojik erozyonun tetiklenmesinde büyük rol oynamaktadır. Bu durum kaya yüzey sertliklerinin 1948 yılında inşaat sektöründe Ernst Schmidt tarafından beton sertliklerinin ölçülmesinde kullanılan ölçüm aracı ile ortaya çıkartılabilmektedir. Kaya yüzey sertlikleri geri tepme yasasına göre birçok araştırmacı tarafından jeolojik erozyon açısından kullanılan yöntemlerden birisidir.

Çalışma sahası olarak belirlenen Kamışlı Deresi Havzası Türkiye'nin kuzeydoğusunda Ardahan İl sınırları içerisinde Kura Nehri'ni oluşturan kollardan birisidir. Havza toplam alanı 1.236 ha olup 41° 6′ 30″ ile 41° 4′ kuzey enlemleri ve 42° 51′ 30″ ile 42° 55′ 30″ doğu boylamları arasında yer almaktadır. Havzayı oluşturan sahanın en alçak kesimi 1.840 metreden başlayarak en yüksek noktasını oluşturan Tinotepe'ye (2.308 m) kadar ortalama 460 m bağıl yükselti farkı mevcuttur. Çalışma sahasına ait havza ve etrafı Üst Miosen-Alt Pliosen bazalt ana kayalarından müteşekkildir.
Schmidt çekici kullanılarak 56 farklı lokasyonda kaya yüzey sertlikleri ölçülmesi sonucunda anakaya bozunmaları adına %25 oranında sert derecede 51,3-57,1 arasında değişen R_O geri tepme değerleri tespit edilmiş ve %75 oranında orta derecede setliğe sahip bazaltların 40,5-49,7 arasında değişim gösteren R_O geri tepme değerleri ile kaya yüzey sertliklerine sahip olduğu belirlenmiştir. Sert olarak nitelendirilen kaya yüzeylerinden yıllık ortalama olarak hektar başına 0,113 t ve orta derecede sert kaya yüzeylerinden yıllık ortalama hektar başına 0,128 t kayacın ayrışmaya uğradığı sonucuna ulaşılmıştır. Dolayısıyla orta derecede sertlik gösteren bazaltların sert derecedeki bazaltlara oranla daha kolay deformasyona uğradıkları ve jeolojik erozyon adına daha yüksek prodüktüviteye sahip olduğu kanısına varılmıştır.

Anahtar Kelimeler: Yıllık bozunma, Bazalt, Kamışlı Deresi ve Çevresi.

GULISTAN TREATY-THE TRAQEDY OF AZERBAIJAN

Imamova Sonaxanım Qurban qızı
Baş müəllim. Azərbaycan Texniki Universiteti, Humanitar fənlər kafedrası
Azərbaycan, Bakı
https://orcid.org/0009-0002-4478-3652

Abstract

A series of military and political processes that took place in the South Caucasus at the end of the 18th and the beginninq of the 19th century, as well as the Russian-Qajar Iranian and Russian-Ottoman wars, which covered very large areas,left deep traces in all areas of the life of our motherland Azerbaijan at that time and later.All the bloody pages of our history begin with the Gulistan Treaty,which led to the division of Azerbaijan between Russia and Iran.

Key words: South Caucasus, Gulistan Treaty, Russia, Qajar Iranian, the tragedy of Azerbaijan, bloody pages.

GÜLÜSTAN MÜQAVİLƏSİ-AZƏRBAYCANIN FACİƏSİ

Xülasə

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş vermiş bir sıra hərbi-siyasi proseslər,habelə çox geniş əraziləri əhatə etmiş Rusiya-Qacarlar İranı və Rusiya-Osmanlı müharibələri Vətənimiz Azərbaycanın o dövrkü və sonrakı həyatının bütün sahələrində dərin izlər qoymuşdur.Tariximizin bütün qanlı səhifələri Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsinə gətirib çıxarmış Gülüstan müqaviləsindən başlayir.

Açar sözlər: Cənubi Qafqaz, Gülüstan müqaviləsi, Rusiya, Qacarlar İranı, Azərbaycanın faciəsi, qanlı səhifələr

ГЮЛИСТАНСКИЙ ДОГОВОР-ТРАГЕДИЯ АЗЕРБАЙДЖАНА

Аннотация

Ряд военно-ролитических процессов, происходивших на Южном Кавказе в конце XVIII-начале XIX веков ,а также русско-каджарско-иранские и русско-османские войны, охватившие очень в большие территории ,оставили глубокие следы во всех сферах жизни нашей страны Азербайджана в то время и позже. Все кровавые страницы нашей истории начинаются с Гюлистанского договора, который привел к разделу Азербайджана между Россией и Ираном.

Ключевые слова: Южный Кавказ, Гюлистанский договор, Россия, Иран Каджаров, трагедия Азербайджана, кровавые страницы.

Ötən əsrin sonlarında Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ulu öndər H.Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan Elmlər Akademiyasının aparıcı alimləri ilə görüşündə XIX-XX əsrlər Azərbaycan tarixinin obyektiv şəkildə yenidən öyrənilməsi məsələsini mühüm bir vəzifə kimi qeyd edərək demişdi: ”Belə hesab edirəm ki, indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX əsrlər tarixinin yazılmasıdır”.

Məlumdur ki, XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş vermiş bir sıra hərbi-siyasi proseslər, habelə çox geniş əraziləri əhatə etmiş Rusiya-Qacarlar İranı və Rusiya-Osmanlı müharibələri bütövlükdə bu bölgənin, o cümlədən Vətənimiz Azərbaycanın o dövrkü və sonrakı həyatının bütün sahələrində dərin izlər qoymuşdur.

Hər dəfə xalqımızın faciələri, ərazilərinin işğalı səbəbləri ilə bağlı materialları, əski sənədləri araşdırarkən belə bir qənaət yaranır ki, tariximizin bütün qanlı səhifələri Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsinə gətirib çıxarmış Gülüstan və Türkmənçay müqavilələrindən başlayır. Çar Rusiyasının Azərbaycana qarşı işğalçı siyasəti rəsmən 1804-1813-cü illər Rus-İran müharibəsi ilə başlayır.

Azərbaycan tarixinin elə səhifələri var ki, orada xalqımızın bir neçə əsrlik faciəsi öz əksini tapıb. Tarixi torpaqlarımızın yadların, işğalçı qüvvələrin əli ilə paralanması faktdır. Azərbaycan tarixən heç bir dövlətə qarşı ərazi iddiasında olmayıb, ancaq Azərbaycan torpaqlarına qarşı zaman-zaman qonşu dövlətlər tərəfindən ərazi iddiaları irəli sürülüb. Azərbaycana aid torpaqları qəsb edən, əhalisini əsarət altında saxlayan bəzi dövlətlər indinin özündə də əsassız iddialarından əl çəkmək istəmirlər. İran kimi.

Azərbaycanın şimal torpaqları Qacar şahlarının “xəyanəti” yox, Çar Rusiyasının işğalı nəticəsində tutulub. Azərbaycanda, Qafqazda İrana aid ərazi yoxdur. Əksinə, bu gün Azərbaycan torpaqları İran ərazisindədir.

İki əsrdir ki, vətənimiz və millətimiz parçalanma gerçəkliyi ilə tarixini sürdürmək məcburiyyətindədir. Belə bir taleyi dəyişdirə bilmək və bir daha yaşamamaqçın tariximizdən dərs almalıyıq.

Müasir dövrdə Azərbaycan Respublikasında Rus-Qacar müharibələrinə münasibətin əsasən sovet tarixşünaslığında olduğu kimi qalması təəsüf doğurmaya bilməz. Sovet dövründə bu məsələlərə baxışda buraxılmış səhvlərin bu gün də təkrar olunması tarixin yenidən saxtalaşdırılmasından başqa bir şey deyildir.

XVIII əsrin sonu-XIX əsrin başlanğıcında qonşu iki dövlət- Qacarlar İranı və Osmanlı Türkiyəsi Azərbaycanın bağımsızlığı üçün gerçək təhlükə törətmək iqtidarında deyildilər. Bütün XIX yüz il boyunca bu dövlətlərin heç bir özgə torpaqları ələ keçirməsi faktına təsadüf olunmamışdır. Beynəlxalq durum İranın Rusiya işğalına qarşı çıxması üçün şərait yaratdı. Bu savaş hər iki tərəf üçün ədalətsiz idi, çünki özgə torpaqlarının ələ keçirilməsi uğrunda gedirdi.

Rus-İran müharibələrinin tarixinin yenidən, obyektiv şəkildə tədqiqi Qacarlar İranın Rusiya ilə yanaşı “işğalçı” adlandırılması fikrini təkzib edir. Belə ki, Abbas Mirzənin qoşunları ruslardan fərqli olaraq Azərbaycan ərazilərini düşməndən müdafiə etmək, Cavad xanın intiqamını almaq və işğal olunmuş torpaqları, o cümlədən Gəncəni işğaldan azad etmək məqsədi ilə hücuma keçmişdilər.

Sovet tarixşünaslığında saxtakarlıq o həddə çatmışdır ki, o zaman yazılmış tarix kitablarında müharibə dövründə rus qoşunlarının yerli əhalidən ərzağı pul ilə, İran qoşunlarının isə zorla aldığı haqqında fikirlər özünə yer tapmışdır. Bu kitablarda işğalçı rus ordusunun hətta xilaskar, Qacar ordusunu isə işğalçı kimi qələmə verməkdən belə çəkinməmişlər. Hal-hazırda yeni nəşr olunmuş bir çox kitablarda obyektiv faktlarla bu saxtakarlığı ifşa etmək mümkün olur. Məsələn, Jan Juniorun “Unudulmuş qəhrəmanlar” kitabında Mustafa Miyanəçinin 10 minlik qoşununun

hətta aclıqdan korluq çəkdiyi vaxtada yerli əhalidən ərzağı zorla alınmasının əleyhinə olması qeyd olunmuşdur. "Mustafa xan əhalidən ərzaq və yemi zorla ala bilmirdi, çünki onun keçdiyi məntəqələrdə hamı İran təbəəsi idi və o öz həmvətənlərinin mülkünü müsadirə edə bilmirdi. Əgər bu işə təşəbbüs etsəydi, siyasi səhv edərdi, ona görə ki, yerli əhalini öz əleyhinə qaldırardı. İran ordusunda nizam-intizamın mövcud olduğunun sübutlarından biri budur ki, Mustafa xan 10 min ac əsgəri kəndin qırağında saxladı və onlar kənd əhalisinin buğdasına toxunmadılar".

Sovet tarixşünaslığında Gülüstan müqaviləsi Azərbaycanın Rusiya və Qacarlar İranı tərəfindən iki yerə bölünməsinin başlanğıcı kimi qiymətləndirilir. Çar Rusiyası və Qacarlar İranı eyni müstəvidə bərabər hüquqlu göstərilir.

Müstəqil Azərbaycan tarixşünaslığında isə Gülüstan müqaviləsi Azərbaycanın Rusiya tərəfindən iki yerə bölünməsinin başlanğıcı kimi göstərilir. Ədalətin bərpa olunması üçün, görünür zaman tələb olunur.

Araz çayından şimaldakı Azərbaycan torpaqlarına iddialı olan Qacarlarla işğalçı Rusiya arasında başlanmış bu ədalətsiz və qeyri-bərabər müqavilə nəticəsində Şimali Azərbaycanın böyük bir hissəsi Rusiya imperiyasının tərkibinə qatıldı. Naxçıvan və İrəvan xanlıqları rus qoşunları tərəfindən tutulmadığından həmin ərazilərimiz müqavilədən kənarda qaldı.

Gülüstan müqaviləsi dünya tarixində özgə torpaqlarının bölüşdürülməsi üçün başlanmış ilk anti-humanist və zorakı müqavilələrdəndir.

Tarixin bütün dövrlərində xalqımız müxtəlif siyasi-hərbi münaqişələrə cəlb olunmuş, nəticədə zaman-zaman əraziləri işğal olunmuş, insanlar qətlə yetirilmişdir. Müharibələr nəticəsində xalqın minilliklər boyu formalaşmış mənəvi dini-milli dəyərlərinə ziyan dəymiş, torpaqlarının bir hissəsi əldən getmiş, Cənubi Qafqaz Rusiyaya birləşdirildikdən sonra bu proses güclənmişdir.

XVIII-XIX əsrlərdə Xəzər regionu Orta və Yaxın Şərqdə gedən geosiyasi rəqabət meydanına çevrilir və bu orbitə İran və Türkiyə ilə bərabər Rusiya, İngiltərə və Fransa cəlb olunmuşdu. Qara dənizə şıxışdan məhrum olan Rusiya Xəzər və Xəzəryanı bölgə üzərində öz hakimiyyətini qurmaq və bütün Avropa-Asiya ticarətini Türk Aralıq dənizindən Baltik-Volqa-Xəzər yoluna keçirmək arzusunda idi Rusiyanın geosiyasi məqsədləri bu zaman I Pyotr tərəfindən dəqiq müəyyən olunmuşdur: "Bizim maraqlar heç bir dövlətin, hansı olursa-olsun, Xəzər dənizində möhkəmlənməsinə yol vermir".

Rusiyanı Qacarlar İranı ilə müharibəyə məcbur edən səbəblər var idi. Birinci səbəb elə Qacarlar idi. Həmin dövrdə Qacarlar və Türkiyə müttəfiq idi. Ele Rusiya da sonrakı dövrdə onların arasını vurmaq üçün çox çalışmışdı. Rusiya Qacarları təkləmək istəyirdi ki, Türkiyə ona yardım etməsin. Ona görə də burada daha çox Qacarların müharibəyə başlamağa səbəbləri var idi.

Rusiya siyasətində ən mühüm amillərdən biri onun isti dənizlərə yiyələnmək istəyi idi. Bu, I Pyotr tərəfindən əsası qoyulan siyasət idi və II Yekaterina bunu edə bilmədi. 1782-ci ildə Xəzər dənizinə çıxmaq üçün Voynoviçin rəhbərliyi ilə eskadra göndərildi. Ardınca 1796-ci ildə Zubovun yürüşünə Qacarlar imkan vermədi. Beləcə bu siyasət yerinə yetirilməmiş qaldı. Bununla sanki Rusiyanın xarici siyasəti yarımçıq qalmışdı. Qacarlar isə müharibəyə Gəncənin ruslar tərəfindən işğalından sonra, 1804-ci ildə başladılar. Buna qədər isə 1801-ci ildə Şərqi Gürcüstan Rusiyaya birləşdirilmiş, sonra Car-Balakən ilhaq edilmişdi, yəni Rusiya-İran müharibəsi başlananda Rusiya yetərincə irəliləmişdi və sərhədləri artıq Qarabağ xanlığına gəlib çatmışdı. Hətta Rtişev sülh müaqaviləsinin nə üçün Gülüstanda bağlandığını belə izah etmişdi ki, bura artıq Rusiya və İran sərhədinin mərkəzidir. Bir sözlə, bu müharibə və bağanmış sülh müqaviləsi I Pyotrun siyasətinin davamı idi.

Gülüstan müqaviləsi ilə Rusiya müharibəni udmuş, əraziləri ələ keçirmiş və gəlib artıq Araz çayına dirənmişdi. "İranın ürəyinə gedən qapı" adlandırılan Lənkəran qalası tutulmuşdu.

Gülüstan sülh müqaviləsi rus və ingilis qarşıdurmasının təzahürü kimi də verilir, çünki burada Hindistan amili var. Artıq 1801-ci ildə bu plan var idi ki, Napaleon Rusiyadan keçib Hindistana keçəcək. Ruslar Napaleonu dəstəkləyir ingilislər isə İranı müdafiə edirdi. Hətta Pavelin suni-qəsdinin ingilislər tərəfindən həyata keçirilməsi haqqında fikirlər də mövcuddur. I aleksandr həmin siyasəti dayandırır. Hal-hazırda Jirinovskinin də leksikonunda var ki, rus əsgərləri çəkmələrini Hind Okeanında yumalıdırlar. Ona görə də hadisələrə yalnız rus-fars qarşıdurması kontekstində baxılmamalıdır.

Bəhs olunan dövrdə Fransa daha çox Rusiya ilə əlaqədar qururdusa da, ingilislər isə Qacarları dəstəkləyirdi. Hətta ingilislər əvvəlcə Gülüstan müqaviləsini imzalamağa qoymasalarda, sonradan fikirlərini dəyişib razılıq vermişdilər. Bütün tarixi faktlar göstərir ki, İran ingilislərin təsir dairəsinə daxil idi. Təsadüfi deyil ki, 1945-ci ildə də Sovet qoşunları Qərbin təzyiqi ilə İran ərazisindən çıxarılırdı.

Ümumiyyətlə, ən mühüm amil odur ki, nə rusa, nə ingilisə, nədə fransıza Türkiyənin yaxınlığında böyük Azərbaycan sərf eləmir. Gülüstan müqaviləsinin açılmayan cəhətlərindən biri də o idi ki, Qacarlar tərəfindən onu imzalamağa Mirzə Əbülhəsən xan Şirazinin rəhbərliyi ilə 354 nəfərlik nümayəndə gəlmişdi. Onların arasında Ser Qor Uzelinin rəhbərlik etdiyi ingilis nümayəndələr də var idi. Hətta o, müqaviləni Mirzə Əbülhəsən xana diktə edirdi. Orada 11-ci bənd əlavə olunur ki, İran istənilən vaxt bu müqaviləyə yenidən baxa bilər. Çar bundan xəbər tutanda çox əsəbləşir, çünki Fransanı məğlub edən Rusiya müqavilə bağlamağa heç də tələsmirdi. Bu müqavilənin imzalanmasında ingilislərin böyük təsiri olmuşdu. Müqavilə Peterqburqda ratifikasiya olunanda məlum olmuşdu ki, Gəncə də Qarabağ xanlıqlarının adı sənəddə yoxdur. Sənəd geri qaytarılmış, müqavilə 1813-cü ildə bağlansada, gec-1818-ci ildə ratifikasiya olunmuşdu.

Rus-İran müharibələrinin nəticəsi olan sənədlərin öyrətməsi ilə bağlı Rusiya və İran tarixişünaslığında ziddiyyətlər özünü açıq göstərir. Rus tarixçiləri bu müharibələrə qalibiyyətli müharibələr kimi baxırlar və zəfər kimi də, təbliğ edirlər. Ən pisi isə odur ki, bu müharibələrdə Azərbaycan torpaqları işğal olunsa da, bir dəfə də Azərbaycan adı çəkilmir. Hətta Gəncə xanlığından danışanda, "Yelizavetopl adlandırdığımız ərazi", deyə qeyd edirlər. Iran tarixçiləri isə Rusiyanın ünvanına aşağılayıcı ifadələr işlədir və vurğulayırlar ki, bu ərazilər İranın idi. Onlar bu ərazinin Azərbaycan torpağı, yaşayanların azərbaycanlılar olduğunu qeyd etmirlər. I Pyotr Xəzəryanı əraziləri tutandan sonra Rusiya bu ərazini özününkü hesab etdiyi kimi, İran da xanlıqları görməməzliyə vurur, bir dəfə də Azərbaycan adı çəkilmir. Bu, hər 2 dövlətin Rusiyanın və İranın mövqeyini birləşdirir.

Bayraməlibəyin əlyazmalarında göstərilir ki, Aslandüz döyüşündə qalanın komendantına təslim olmaq təklif olunur və bildirilir ki, "sən Abbas Mirzədən güclü sərkərdə deyilsən ki, Kotlyarevski onun 30.000 nəfərlik qoşununa 2.000 nəfərlə qalib gəldi". O da cavab verir ki, "yalan deyirsiniz, 30.000 nəfərlik ordunun 10.000 nəfəri sizin tərəfinizə keçdi, amma siz həmin 10.000 nəfərin 500-nü əsir kimi saxlayıb, qalanlarını qırdınız, bu da xainlərə cavab oldu. Indi hansı insanlıqdan danışırsınız?" Həqiqətən də satqınlıq, xəyanət nəticəsində ruslar bu müharibədə qələbə qazanmışdılar.

Rusiya tarixşünaslığında "sülh müqaviləsi" kimi yad edilən bu hadisə, əslində Rusiya ilə müharibədə uduzmuş Qacar İranın Qafqazdan Rusiyanın xeyrinə əl çəkməsi idi.

Bir sıra müasir iran deputatlarının bu torpaqların İrana qaytarılması tələbə anaxronizm hesab edilə bilər, çünki bütün XVII əsr ərzində kəsilmək bilməyən İran-Osmanlı müharibələri hər iki dövləti o qədər əldən salmışdı ki, Gülüstan və Türkmənçay müqavilələri imzalananda İran faktiki olaraq Qafqaz üzərində heç bir hakimiyyətə malik deyildi. Əvəzində yaranmış olan çox sayda Azərbaycan feodal dövlətləri-xanlıqlar özlərini getdikcə daha suveren görürdülər. Məhz bu "suverenlik" Rusiya imperiyasına hər bir xanlıqla ayrılıqda əlahəzrət çarın təbəəliyinə

keçmələri barədə separat müqavilələr imzalamaq imkanı vermişdi, yəni Rusiya Qafqazın qoparılmasının hüquqi əsasını hələ Gülüstan və Türkmənçay müqavilələrindən xeyli əvvəl hazırlamışdı. Sonralar sovet tarixşünaslıqda söhbət artıq Qafqazın Rusiyaya "könüllü birləşdirilməsindən" gedəcəkdi. Bu müqavilələrə qədər Rusiya xanlıqların formal mövcudiyyətinə dözürdü, çünki beynəlxalq qanunlar baxımından bölgənin işğalını hələ əsaslandırmamışdı. Sonralar xanlara general rütbələri paylanacaq və car xəzinəsindən maaş da kəsiləcəkdi. Daha sonra xanları bu dekorativ titullardan da məhrum edəcəkdilər.

Əgər nəzərə alsaq ki, artıq XVIII əsrin əvvələrində I Pyotr öz gəmiləri ilə Xəzəryanı ərazilərə "baş çəkmişdi", bəlli olar ki, İran çoxdan bəri Qafqaz teatrının sadəcə tamaşaçı idi. Lakin iki əsr əvvəl oynayan bu tarixi dramda başqa iştirakçılar da var idi. Onlardan ən mühümü osmanlı imperiyası idi. Əslində Gülüstan müqaviləsinin imzalanması üçün İstanbul sarayının da rəsmi razılığı lazım olmuşdu.

"Gülüstan müqaviləsi"ndə bircə dəfə də olsun "Azərbaycan" adına rast gəlinmir. "Türkmənçay" müqaviləsindədə Azərbaycanın adı göstərilməyib. Rusiya və İran yurdumuza sahiblənmək üçün bir-birini didsələrdə, sonra törətdikləri cinayəti gizlətmək üçün Azərbaycan adını müqaviləyə salmayıblar. Sanki bölüşdürdükləri Azərbaycan torpaqları deyilmiş. 11 maddədən ibarət müqavilə ilə yurdumuz amansızcasına bölüşdürüldü, düşmənçiliyə son qoymaq üçün iki istilaçı ölkə bundan sonra "əbədi dostluq şəraitində yaşayacaqlarına" söz verdilər.

Ruslar tələb etsələr də, Fətəli şah Abbas Mirzəni "Gülüstan" müqaviləsinə imza atmağa məcbur edə bilmədi. Həmin gün o başdan-ayağa qara geyinib, yas saxladı. Səhərisi gün atasından onu Azərbaycan əlayətinə başçı təyin etməyi xahiş etdi. Atasının "Azərbaycandan daha nə qalıb ki, sən oranın şahı olmaq istyirsən?"- sualına Abbas Mirzə "Qafqaz dağlarına qədər bizim torpaqlardır, mən heç vaxt oraların ruslara məxsus olduğunu qəbul etməyəcəyəm!"- cavabını verdi.

Onun iqamətgahında divara vurulmuş xəritədə Rusiyanın sərhədləri Böyük Qafqaz dağlarından keçirdi, baxmayaraq ki, nə Dağıstanda, nə də Çeçenistanda yaşayanları ruslar təslim edə bilməmişdilər. Rusiyanın bu xalqlar üzərində qələbəsi ancaq 1864-cü ildə başa çatdı.

"Gülüstan" müqaviləsi hazırki geosiyasi durumun təşəkkülündə həlledici rol oynamışdır. Bu müqaviləni hətta regionun tarixində "kilometr daşı"da adlandırırlar. Gülüstan müqaviləsi təkcə İran-Rusiya müharibəsinə deyil, həm də bu bölgə uğrunda 300 il davam edən İran-Osmanlı müharibəsinə son qoydu və həmin andan etibarən Rusiya bölgədə çox güclü bir oyunçuya çevildi. Bu müqavilə həm də Britaniyanın bu bölgədə nə qədər böyük rol oynadığını göstərdi, çünki əslində, İranı Rusiya ilə müqavilə bağlamağa Britaniya imperiyası sövq etmişdi. İran Rusiya ilə müharibəyə də elə Britaniya diplomatiyası çəkmişdi.

"Gülüstan" müqaviləsi nəinki Rusiyanı bölgəyə gətirib, hətta dominant bir oyunçu kimi gətirib və o zamandan bəri İran və Türkiyə Qafqaz bölgəsində ikinci dərəcəli oyunçulara çevrildilər.

"Gülüstan" müqaviləsinə qədər onun sərhədə çevirdiyi Araz çayının hər iki tərəfində əsrlər boyunca eyni dildə danışan, yəni türkdilli və eyni mədəniyyəti olan böyük etnik toplum var idi. Bu toplum bir gecənin içərisində iki ayrı-ayrı dövlətin hüquqi sferasına düşdü. Bu ayrılıq XIX əsrdə o qədər də hiss olunmurdu, lakin XX əsrdən etibarən toplumun ikiyə bölünmüş hissələri arasındakı fərq modernləşmə və şəhərləşmə nəticəsində sürətlə artmağa başladı. Bununla da eyni bir etndinqvistik toplum, daha doğrusu, xalq iki ayrı mədəni inkişaf layihəsinə cəlb olundu.

İstifadə olunmuş ədəbiyyat:

1.Azərbaycan tarixi üzrə qaynaqlarBakı, 1989

2.Qafqaz Arxeoqrafiya Komissiyasının aktları (AKAK) I-II hissə
3.Qarabağnamələr
4.A.Bakıxanov “Gülüstani-İrəm
5.M.Zülfüqarlı “Azərbaycan tarixinə yeni baxış”. Bakı 2007
6.V.Umudov “Şimali Azərbaycanın car Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə: 1801-1828. Bakı, 2004
7.Azərbaycanın Rusiya tərəfindən işğalı və beynəlxalq nəticələri”
8.Azərbaycan tarixi. 7 cilddə

PLURAL RITUAL OF KHURRAMI AND SOCIAL RIGHTS OF KHURRAMI WOMEN IN THE MIRROR OF ISLAM

Ceyhun Bayramlı
Vətən tarixi üzrə dissertant

Summary

In the given article, the family factor, women rights and the role of women in the social-political life of society in the khurramids community were analysed, as well as, the activities and rights of the khurramid women were compared with the activities of well-known Islamic women in history, and the parallels between the attitude for women in the khurramids community and in the heterodox Islamic sects like alevism, qyzylbashizm etc. were led. Moreover, the tendentious information concerning moral values of the khurramids written by the enemy source authors, were disproved on the basis of historical facts in the article.

Keywords: the Khurramids, attitude to women, freedom of choosing, marital relations, thought freedom of women, family in Khurramizm, forms of marriage, Alevism, Kyzylbashism.

XÜRRƏMİLƏRİN CƏM AYİNLƏRİ VƏ XÜRRƏMİ QADINLARININ SOSİAL HAQLARI İSLAM GÜZGÜSÜNDƏ

Xülasə

Təqdim olunan məqalədə xürrəmilikdə ailə amili, qadın azadlıqları və qadınların ictimai-siyasi həyatda oynadıqları rol təhlil olunur, xürrəmi qadınlarının fəaliyyəti və hüquqları İslam tarixində tanınmış qadın şəxsiyyətlərin fəaliyyəti ilə müqayisə edilir, həmçinin, xürrəmi toplumunda qadına olan münasibət ilə ələvilik, qızılbaşlıq və digər heterodoksal İslami cərəyanlarda qadına olan münasibət arasında paralellər aparılır. Məqalədə həmçinin xürrəmilərə düşmən mövqedə olmuş mənbə müəlliflərinin xürrəmilərin əxlaqi dəyərləri ilə bağlı qərəzli məlumatları tarixi faktlar əsasında təkzib olunur.

Açar sözlər: Xürrəmilər, qadına münasibət, seçim azadlığı, evlilik münasibətləri, qadınların ifadə azadlığı, Xürrəmilikdə ailə, kəbin formaları, Ələvilik, Qızılbaşlıq.

МНОЖЕСТВЕННЫЙ РИТУАЛ ХУРРАМЫ И СОЦИАЛЬНЫЕ ПРАВА ЖЕНЩИН-ХУРРАМ В ЗЕРКАЛЕ ИСЛАМА

Резюме

В представленной статье рассматриваются фактор семьи, женская свобода и общественно-политическая роль женщин в идеологии хуррамитов, сопоставляются деятельность и права женщин-хуррамиток с деятельностью великих женщин Ислама, а также проводятся параллели между отношением к женщине в алевитском, кызылбашском и других гетеродоксальных исламских течениях и отношением к ней в хуррамитском обществе. В статье также на основе исторических фактов опровергается

предвзятая информация о нравственных ценностях хуррамитов враждебно настроенных по отношению к ним авторов источников.

Ключевые слова: Хуррамиты, отношение к женщине, свобода выбора, брачные отношения, свобода слова женщин, семья в Хуррамизме, формы брака, Алевизм, Кызылбашство.

Xalq İslamına mənsub cərəyanlar olan xürrəmilikdə, ələvilikdə, qızılbaşlıqda, əhli-həqlərdə Ayini-cəm toplantıları keçirilməsi danılmaz faktdır. Bu toplantıların məzmununa dair mənbələrdə fərqli məlumatlar verilir. Xacə Əli Nizamülmülk "Siyasətnamə" əsərində qeyd edir ki, «Bir yerə toplananda, məsələ həll edəndə, məşvərət edəndə onların (xürrəmilərin – C.B.) sözü bu olar; əvvəl Əbu-Müslimə, Mehdiyə, Əbu Müslimin qızı Fatimənin oğlu, «alim uşaq» adlanan Firuza salavat çevirərlər» [3, s.241]. Xürrəmilərin toplantıları zamanı musiqi alətlərindən – tütəkdən (neydən), rübabdan, cənkdən, tənburdan (dombradan) və digər alətlərdən istifadə olunması barədə Təbəridə [7, s.105], Bağdadidə [2, s.368; 9, s.207] və digər qaynaqlarda qeydlər vardır. Xürrəmilərlə eyni dini-fəlsəfi dünyagörüşünü paylaşan ələvilik və qızılbaşlıqda da sazlarla və bağlamalarla ilahi zikrlər edilmiş, deyişlər və nəfəslər söylənilmişdir. Bu gün də ələvilər və əhli-həqlər ayini-cəm mərasimləri təşkil edir, qadınlarla kişilər bir arada musiqi alətlərinin müşayiəti ilə zikrlər edirlər [10, s.97, 251, 281-283].

Xürrəmilərin cəm mərasimlərində qadınlarla kişilərin toplum halında birlikdə iştirak etmələri İslamın təməl kitabına uyğundur, belə ki, Qurani-Kərim mömin qadınları kişilərlə eyni hüquqlara malik bəndələr qismində qəbul edir, Allahın nəzərində möminlərin cinsinə görə fərqləndirilmədiyini bildirir, fərqin yalnız təqvada olduğunu qeyd edir. Məhz bu səbəbdən hər il Həcc mərasimlərində mömin kişi və qadınlar Kəbə evinin ziyarəti rituallarını birlikdə, qadın-kişi fərqi qoyulmadan icra edirlər. Ələvi toplumuna görə, İslamda mömin qadınların hüquqlarının pozularaq onların toplumdan təcrid edilməsi, kütləvi ibadətlər zamanı ayrıca hücrələrə yönləndirilməsi kimi hallar İslam peyğəmbərinin vəfatından sonrakı dövrlərə aiddir və İslama ziddir. Bu mənada xürrəmi toplumunda qadına verilən yüksək qiymət xilafət dövrünün cahil ərəb zehniyyəti tərəfindən başa düşülmür və inkar olunur [14, s.98]. Təsadüfi deyil ki, Y.A.Belyayev öz əsərində xürrəmilikdə qadınların yeri və roluna, onlar barədə qarşı tərəfə mənsub mənbə müəlliflərinin dövriyyəyə buraxdıqları qeybət xarakterli qərəzli iftiralara toxunaraq "əslində müsəlman dünyagörüşünün əyri güzgüsündə xürrəmi qadınlarının azadlığının bu cür iyrənc şəkildə əks olunduğunu" vurğulayır [5, s.117; 11, s.258-259]. M.Tomara da öz əsərində xürrəmi qadınlarının toplumun ortaq malı olması, kütləvi əxlaqsızlıqla müşayiət olunan mərasimlərdə iştirak etməsi barədə məlumatlarına böyük şübhə ilə yanaşır, tam əksinə, xürrəmilərin ailə dəyərlərinə sahib olmaları, hətta xürrəmi başçılarının hər birinin arvadının olması, sadəcə olaraq xürrəmi qadınlarının toplumda söz sahibi olmaları və üzüaçıq gəzmələri, özlərinə ər seçmək hüququna malik olmaları ilə bağlı faktlarla bu müddəaları təkzib etməyə çalışır [12, s.21-22]. Eyni baxış bucağını İ.Filştinski də bölüşür, belə ki, o, Babəkin Bağdaddakı düşmənlərinin xürrəmiləri "qadın ümumiliyi" düşüncəsində ittiham etməsini izah edərkən, bunu böyük ehtimalla xürrəmilərin qadınlarının İslam ehkamlarında göstəriləndən daha sərbəst və azad olması ilə əlaqələndirir, digər bir səbəb kimi isə, xürrəmilərdə şiələrdəki kimi, müvəqqəti kəbin (zəvac əl-mutə) amilinə icazə verilməsini əsas gətirir [13, s.93].

Hakim sülalənin xürrəmi toplumunun əxlaqı ilə bağlı dar və məhdud dini və şəri düşüncəsinin məhsulu olan qərəzli fikirlər təkcə xürrəmilərin ayini-cəm mərasimləri ilə bağlı olmayıb, eyni zamanda, Azərbaycan xalqının adətlərində mövcud olan digər toplu mərasimlərlə də

əlaqədardır. Hakim ərəb zehniyyəti qədimdən bəri Azərbaycan xalqının mədəniyyətində özünə yer tutmuş toy, nişan, eləcə də, qız bəyənmə, oğlan bəyənmə məqsədilə keçirilən digər mərasimlərə, Novruz bayramı ərəfəsində hər kəsin qadınlı-kişili tonqal ətrafında toplanaraq, yallı getməsinə də özünəməxsus tərzdə əxlaqsızlıq donu geydirməyə çalışmışdır.

Xilafətin rəsmi saray məzhəbi olan mötəziliyyənin şəriət xadimləri tərəfindən xürrəmi nigahlarının dindənkənar hesab edilməsi daha bir mühüm amillə əlaqədardır. Bildiyimiz kimi, nə Abbasilər dövrünün şəri qaydaları, nə də sonradan formalaşdırılmış əhli-sünnə məzhəblərinin fiqhi əsasları müsəlman qadınla kişi arasında daimi nigahdan başqa bir kəbin formasını tanımamışdır. Bu kəbin formasında isə VIII-IX əsrlər dövrü üçün kifayət qədər böyük sayılan məbləğdə mehriyyə tələb edilmişdir. Xürrəmiyyə əqidəsinə mənsub olan insanların kəbin münasibətlərinə İslami əsaslarla yanaşsaq, ilk növbədə onların mütləq əksəriyyətinin olduqca kasıb bir həyat tərzi keçirmələrini, maddi gəlirlərinin çox aşağı olduğunu, həm dövlət, həm də yerli feodallar tərəfindən müxtəlif adlarla talandıqlarını nəzərə almaq gərəkdir. Müqəddəsi özünün "Kitabül əl-bəd və-t-tarix" əsərində xürrəmilərin olduqca yoxsul olduqlarını qeyd edir [7, s.69]. Belə olduğu halda, təbii ki, xürrəmi toplumunda daimi kəbinlə evlənmə hallarının sayı həddən artıq az olmuşdur. Və bu səbəbdən İslamın əhli-beyt məktəbinə mənsub olduqları müxtəlif mənbələrdə qeyd olunan xürrəmilərin əksər hissəsinin digər ənənəvi məzhəblərdə inkar olunan, lakin şiələrdə qəbul görülən və öncədən mehriyyə verilməsi tələb olunmayan müvəqqəti kəbinlə evləndiyini təxmin etmək mümkündür. Filştinskinin də qeyd etdiyi kimi, xürrəmilikdə ənənəvi şəriət məzhəblərinin qəbul etmədiyi kəbin formalarından biri kimi zəvac əl-mutə (mutə nigahı və ya müvəqqəti kəbin) geniş yayılmışdır. Bu kəbin formasında öncədən mehriyyə verilməməsi, qadının miras sahibi olmaması və bu kəbini hər dəfə növbəti müddət üçün yeniləməkdə heç bir çətinlik olmaması sözügedən kəbin formasından geniş istifadə olunmasına səbəb olmuşdur. Buradan aydın olur ki, xürrəmilər öz evliliklərini maddi imkanları daxilində rəsmiləşdirmiş, onların mütləq əksəriyyəti imkansızlıq ucbatından Quranın Ən-Nisa surəsi, 24-cü ayəsində qeyd olunmuş, lakin Abbasi saray fiqhində inkar olunan kəbin formasına üstünlük vermişlər [1, s.163-164]. Onların bu evlilikləri də məhz bu səbəbdən rəsmi saray məzhəbinin üləması tərəfindən dindənkənar elan olunmuş, xürrəmilərin ailə faktoru kəbinsiz münasibət kimi yozulmuşdur. Xürrəmilərin ailə qurma və evlilik məsələsində həmin dövrün sosial-iqtisadi amillərinin rolu danılmazdır.

Bu mövzuda sonuncu arqument olaraq bunu söyləmək mümkündür ki, insan fitrətinə xas olan fərdi qısqanclıq hissi ona həm öz xanımının, həm də ailə üzvü olan digər qadınların toplumun ortaq malına və hər bir kişinin asanlıqla toxuna biləcəyi bir qadına çevrilməsinə əngəl törədən başlıca amildir, bu baxımdan erkən orta əsrlərin sərt şəriət qanunlarının hökm sürdüyü şərq ölkələrində bu cür hallara cəmiyyətin böyük bir hissəsi tərəfindən yol verilməsi düşüncəsi reallıqdan çox uzaqdır.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, bəzi mənbə müəllifləri, o cümlədən, Məqdisi xürrəmi toplumunda qadınların azad və sərbəst olduqlarını, özlərinə ər seçmə haqqına sahib olduqlarını, özlərinin razılığı olmadan onların taleyi ilə bağlı qərar verilmədiyini vurğulayır və xürrəmi qadınları ilə evlilik məsələsini "rizaya əsaslanan evlilik" adlandırır [5, s.114]. Xatırlamaq olar ki, xürrəmi qadınlarının ailə qurma məsələsində söz sahibi olmaları və ər seçimində sərbəstlikləri İslam tarixində Hz.Xədicənin hələ ticarətlə məşğul olduğu zaman Muhəmməd peyğəmbəri bəyənərək ona evlilik təklifi etməsi ilə həmahəng səslənir [4, s.77-78]. Tədqiqatçılar eyni təfəkkürə "Kitabi-Dədəm Qorqud" dastanlarında da Beyrəyi sınaqdan keçirərək özünə həyat yoldaşı seçən Banıçiçəyin timsalında rast gəlindiyini bildirir [8, s.30]. Türk toplumlarında qadın azadlıqları amili saxta şəri doqmalara istinad edən cahil bədəvi

təfəkkürü üçün yad idi. Türkiyə tədqiqatçısı Rıza Zelyut "Türk Ələviliyi" adlı əsərində türk qızlarının ərlərini seçmə hüququnu sübut edən çoxlu sayda qaynağın mövcudluğundan danışır və bu amilin ələvilik inancında da eyni dərəcədə əks olunduğunu bildirir [10, s.96].

Xürrəmilərdə qadına verilən yüksək qiymətin ən bariz nümunəsi kimi, bu hərəkatda iştirak edən qruplardan birinin Fatimiyyə adlanması hesab oluna bilər [7, s.12]. Mənbələrin məlumatına görə, bu təriqət İslamın batiniyyə qoluna mənsub olub, Əbu Müslüm Xorasaninin qızı Fatimənin adı ilə adlandırılmışdır [2, s.377; 7, s.73]. Mənbələr Azərbaycan xürrəmilərinin Xorasan üsyançıları və Əbu Müslümün ardıcılları ilə onun qızı Fatimə vasitəsilə əlaqə saxladıqlarını bildirir [8, s.28]. Ərəb xilafətinin sərt şəriət qanunları ilə idarə olunan bir cəmiyyətdə qadınların ictimai rolunun sıfıra endirildiyini nəzərə alsaq, həmin dövrdə İslamdaxili təriqətin fəal bir qadının ismi ilə adlandırılması böyük maraq doğurur.

Qadına xürrəmi toplumunda qoyulan hörmət və ehtiram Bəzz qala-şəhərinin alınması zamanı baş verən daha bir hadisədə aydın görünür. Təbəridə qeyd olunur ki, Bəzzin süqutundan sonra Afşin guya Babək tərəfindən əsir alınmış qadınları azad etmişdir. Babək ələ keçirilərək Afşinin ordugahına gətirilən zaman onu görən qadınlar dizlərinə döyərək hönkürmüş, onun tutulmasına həddən artıq kədərlənmişlər. Onların səs-küyünə dözə bilməyən Afşin həmin qadınlara üzünü tutub təəccüblə: "niyə ona heyfisləmirsiniz? Bəyəm o, sizi əsir etməmişdi?" deyə soruşmuşdur. Qadınlarsa hamısı bir ağızdan "o, bizə sizdən daha yaxşı baxır və ehtiram göstərirdi" deyə cavab vermişlər. Onlar Babəkdən və xürrəmilərdən əsla şikayətçi olmadıqlarını da açıq şəkildə dilə gətirmişlər [1, s.160; 2, s.357].

Təəssüf ki, xürrəmi qadınlarının cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirak etməsi amilinə İslami nöqteyi-nəzərdən yanaşma nümayiş etdirilməmiş, bu məsələdə İslam tarixindəki məşhur qadın obrazları ilə müqayisə və paralellər aparılmamışdır. Xürrəmiyyə əqidəsinə mənsubluğu şübhə doğurmayan qadınların ictimai həyatda oynadıqları fəal rol "xilafət İslamı"na qulluq edən şəriət xadimləri və tarix yazarlarının təəccüb və qınağına səbəb olmuşdur. Onların dar düşüncəsinə görə, müsəlman qadını nəinki cəmiyyətin ictimai həyatında iştirak etməməli, hətta evdən kənara belə çıxmamalı, yalnız ailə-məişət məsələləri ilə məşğul olmalıdır. Lakin hələ İslamın ilk əsrində müsəlman cəmiyyətinin ictimai həyatında mühüm rol oynamış ünlü müsəlman qadınların fəaliyyətinə diqqət yetirdikdə aydın olur ki, istər xürrəmilərin hörmətlə yad etdikləri Məzdəkin qızı Xürrəmə, istər Əbu Müslüm Xorasaninin qızı Fatimə, istərsə də xürrəmi öndəri Cavidanın arvadı olan İbnəti-Kəldaniyyənin ictimai fəallığı İslam tarixinin ən məşhur müsəlman qadınları olan peyğəmbər xanımları Xədicə, Aişə, Ümmü Sələmə, İslamiyyətin ilk şəhidi kimi tanınan Süməyyə xanım, peyğəmbərin qızı və Əli bin Əbu Talibin xanımı Fatimə, onların qızı Zeynəb, Xanım Məsumə, eləcə də, məzarları bu gün də Azərbaycanda hörmət və ehtiramla qorunan əhli-beyt mənsubları Hükeymə xatun, Rəhimə xatun və digərlərinin ictimai fəallığı [1, s.158; 6, s.34-37] ilə eyniyyət təşkil edir.

İslam tarixi müsəlman qadınlarının cəmiyyətin ictimai həyatında aktiv iştirak etmələri barədə faktlarla zəngindir. Peyğəmbərin ən yaxın səhabələrindən biri Əmmar bin Yasirin anası Süməyyə məhz Məkkə müşriklərinin rəhbərlərinin təzyiq və zülmlərinə hər kəsin qarşısında qətiyyətlə cavab verdiyinə görə öldürülmüş və İslamın ilk şəhidi kimi tarixə düşmüşdür [4, s.191]. İslam peyğəmbərinin ilk xanımı Xədiceyi-Kübra İslamı qadınlar və kölələr arasında təbliğ etməklə qalmamış, müsəlmanların Məkkədə iqtisadi blokadaya alındığı illərdə çətin durumda yaşayan müsəlman ailələrinə bir-bir baş çəkərək imkanı daxilində onların zəruri ərzaq ehtiyaclarını qarşılamağa çalışmış, müsəlmanlara ürək-dirək vermişdir [4, s.188]. Peyğəmbərin digər xanımları Ümmü-Sələmə, Aişə bint Əbubəkr, Sevda və Ümmü Həbibə də aktiv şəkildə İslamın təbliği işi ilə məşğul olmuşlar. İslam tarix yazarları İbn Həbib, İbn Həcər, Süheyli, İbn

Hişam, İbn Səd, İbn əl-Əsir və Bəlazurinin əsərlərində bir çox müsəlman qadın səhabələrin, o cümlədən, Lübadə bint Haris, Qüzeyyə bint Düdan, Ümmü Şərik, Şəfa bint Abdullah, Sədə bint Qüreyz və Ömərin bacısı Fatimə bint Xəttabın yazıb-oxuma bacarığı ilə yanaşı, ictimai fəallıqlarından danışılır [4, s.188-190].

Peyğəmbərin qızı və Əlinin xanımı Fatimənin ictimai fəallığı və haqsızlıqlara qarşı etiraz səsini ucaltması isə daha çox rezonans doğurmuşdur, belə ki, o, atasının vəfatından sonra atasından miras qalmış Fədək xurmalığının əlindən alınmasına ictimai təpki göstərmiş, Mədinədəki peyğəmbər məscidində çoxsaylı müsəlmanların önünə çıxaraq xəlifənin qərarının ədalətsiz olduğunu Quran ayələri əsasında bildirərək olduqca bəlağətli bir nitq söyləmişdi. Fatimənin qızı Zeynəb isə Kərbəla faciəsindən sonra Kufədə vali Übeydullah ibn Ziyadın, Şam şəhərində isə xəlifə Yezidin qarşısında onların günahlarını üzlərinə demiş, təsirli bir nitq söyləyərək İslam aləmində zalım hökmdara qarşı ictimai səviyyədə etiraz bildirən ilk müsəlman qadınlardan biri kimi tarixə keçmişdir. Müsəlman qadınının ictimai fəallığı istər xürrəmi, istər ələvi, istərsə də qızılbaş təriqətlərinə mənsub qadınların həyat və mübarizəsində diqqəti cəlb edir. Qızılbaş-ələvi qadınları hətta vətən torpağının müdafiəsi zamanı ayrıca dəstələr şəklində Qızılbaş ordusunun ön sıralarında yer almışlar. İstər Şah İsmayılın xanımı Taclıbəgüm, istərsə də qızı Pərixan xanım dövlətin və cəmiyyətin ictimai-siyasi həyatında fəal rol oynamışlar. Bu baxımdan əsasən əhli-beyt yönümlü heterodoksal İslami cərəyanlarda qadınlar toplumun tam hüquqlu üzvləri kimi kişilərlə bir sırada olmuş və İslamın təməl kitabının onlara verdiyi hüquqlar çərçivəsində fəaliyyət göstərmişlər.

İstifadə olunan ədəbiyyat

1. Bayramlı, Ceyhun. Təhrif olunmuş tarix: Babək və hürrəmilər olduğu kimi. Bakı: Elm və Təhsil, 2014, 256 s.
2. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Şərq-Qərb, 2007, 424 s.
3. Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk. Siyasətnamə. Bakı: Çıraq, 2007, 273 s.
4. Hamidullah, Muhammməd. İslam peyğəmbəri. I cild. Bakı: İpəkyolu, 2013, 579 s.
5. Qasımov, Zaur. "Xürrəmi təlimində sosial ədalət konsepsiyası". "Dirçəliş-XXI əsr" jurnalı, tarix məsələləri bölümü, №106-107, dekabr, 2006 – yanvar, 2007.
6. Nemət, Məşədixanım. Azərbaycanda pirlər (sosial-ideoloji mərkəzlər). Bakı: Azərnəşr, 1992, 104 s.
7. Səid Nəfisi. Babək. 1960-cı il nəşr variantı əsasında. Bakı: Xatun plyus, 2010, 155 s.
8. Şamıyeva H. Xürrəmilərin dini inanc və ayinləri, qadına münasibət. // Tarix və onun problemləri, №4. Bakı: 2009, s. 26-32.
9. Abdülkahir el-Bağdadi. Mezhepler arasındaki farklar. Ankara: Türkiye Diyanet Vakfı Yayınları, 2005, 3. Baskı, 316 s.
10. Zelyut, Rıza. Türk Aleviliği. Anadolu Aleviliğinin kültürel kökeni. 9. Baskı. Ankara: Krypto Basım Yayım Dağıtım Ltd. Şti., 2013, 492 s.

11. Беляев Е.А. Арабы, ислам и арабский халифат в раннее средневековье. Второе издание. Москва: Издательство «Наука», главная редакция восточной литературы, 1966, 279 s.

12. Томара М.Л. Бабек. Из серии «Жизнь замечательных людей». Москва: Издательство «Журнально-газетное объединение», 1936, 200 s.

13. Фильштинский И.М. История арабов и халифата (750-1517 гг.). Москва: Восток-Запад, 2006, 352 s.

14. Məhəmməd Mehrab. Babək Xorrəmidin (farsca). III nəşr. Təbriz: Haşimi Sudmənd nəşriyyatı, 151 s.

PRACTITIONER IN THE IMPLEMENTATION OF PSYCHOLOGICAL SERVICES IN SCHOOL ROLE OF PSYCHOLOGIST

Harun Öztaş Xəlil
Odlar Yurdu Üniversitesi
Azerbaycan, Bakü

Summary

The school has always been enriched with psychological knowledge, and the success of educational work has been healthier in this direction. In this case, the school psychologist has a bigger job. In terms of the national curriculum of the general education concept of the Republic of Azerbaijan, important tasks are set before school psychology. A practical psychologist is an equal member of the pedagogical team. It should always help the mental development and psychological health of children and schoolchildren, and their formation as a personality. School psychological services take different forms in different countries. Often there is such an option when a school psychologist - a teacher with special psychological training - serves one or more schools. Their main task is to advise the school staff on the issues of education and upbringing of students. He works alone or with an assistant, his task is to test students and to liaise with various services that work with children or their parents. The school psychologist's positive self-concept has an effective effect on the students' learning process and students' behavior. As a result of the correct influence of the psychologist during the professional self-awareness process, the sense of self-evaluation and appreciation develops with the students. The scope of psychological services in schools is quite wide. The most common direct services to students include career and academic guidance and personal counseling. Other direct services include testing, group counseling, and counseling with teachers and parents. Priority is given to the diagnosis and implementation of interventions for emotional and behavioral problems in students. Identifying learning disabilities and providing teachers with curriculum-based interventions to modify behavioral and academic problems in the classroom are rarely accomplished tasks. Few materials are available for repair work in the subject area. Those who work in private schools can also participate in the selection of students at the elementary level, even in kindergarten. To this end, psychological counselors in elementary schools use standardized or non-standardized assessment methods, observations, and interviews with kindergarten and first grade applicants. In private schools, psychological counselors are often responsible for organizing seminars, lectures, and group guidance on child development and needs for parents and teachers. Referrals are usually made by teachers and cover behavioral, emotional and/or learning problems, but services usually focus on individual counseling or working with parents rather than working with teachers. In general, teachers report that they do not receive the necessary support. Students often refer to professionals at therapy centers or hospital mental health clinics. Discussions about how to organize psychological services in schools and training professional personnel in this field continue; no consensus has yet been reached. Although many of the school psychology practices in other countries are carried out in Turkey either by guidance and psychological counselors in schools, or by Guidance and Research Centers, there is no independent and well-defined specialization in school psychology in Turkey. This leads to ambiguity and conflict in role definitions between counselors, psychologists, special educators, and social workers. In addition, the Ministry of National

Education appoints specialists in psychological counseling and disciplines other than psychology, such as sociology, education and philosophy, to provide psychological services in schools.

Key words: psychologist, practical psychologist, school, student, psychological service.

OKULDA PSİKOLOJİK HİZMETLERİN UYGULANMASINDA UYGULAYICI PSİKOLOĞUN ROLÜ

Özet

Okul her zaman psikolojik bilgilerle zenginleştirilmiş ve eğitim çalışmalarının başarısı bu doğrultuda daha sağlıklı olmuştur. Bu durumda okul psikoloğuna daha büyük iş düşüyor. Azerbaycan Cumhuriyeti'nin genel eğitim anlayışının milli müfredatı açısından okul psikolojisinin önüne önemli görevler konulmaktadır. Pratik bir psikolog pedagojik ekibin eşit bir üyesidir. Çocukların ve okul çağındaki çocukların zihinsel gelişimine, psikolojik sağlığına, kişilik oluşumuna her zaman yardımcı olmalıdır. Okul psikolojik hizmetleri farklı ülkelerde farklı biçimler almaktadır. Bir okul psikoloğu - özel psikolojik eğitime sahip bir öğretmen - bir veya daha fazla okula hizmet verdiğinde genellikle böyle bir seçenek vardır. Ana görevleri okul personeline öğrencilerin eğitimi ve yetiştirilmesi konularında tavsiyelerde bulunmaktır. Tek başına ya da bir asistanla çalışıyor. Görevi öğrencileri test etmek ve çocuklar ya da ebeveynleri üzerinde çalışan çeşitli hizmetlerle bağlantı kurmak. Okul psikoloğunun olumlu benlik kavramı, öğrencilerin öğrenme süreci ve öğrenci davranışları üzerinde etkili bir etkiye sahiptir. Mesleki öz farkındalık sürecinde psikoloğun doğru etkisi sonucunda öğrencilerde öz değerlendirme ve takdir duygusu gelişir. Okullarda psikolojik hizmetlerin kapsamı oldukça geniştir. Öğrencilere yönelik en yaygın doğrudan hizmetler arasında kariyer ve akademik rehberlik ve kişisel danışmanlık yer almaktadır. Diğer doğrudan hizmetler arasında testler, grup danışmanlığı ve öğretmenler ve ebeveynlerle danışmanlık yer almaktadır. Öğrencilerde görülen duygusal ve davranışsal sorunların tanısına ve müdahalelerin uygulanmasına öncelik verilmektedir. Öğrenme güçlüklerini belirlemek ve öğretmenlere sınıftaki davranışsal ve akademik sorunları değiştirmek için müfredata dayalı müdahaleler sağlamak, nadiren gerçekleştirilen görevlerdir. Konu alanında onarım çalışmaları için az sayıda malzeme mevcuttur. Özel okullarda çalışanlar da ilkokul düzeyinde, hatta anaokulunda öğrenci seçimine katılabiliyor. Bu amaçla ilkokullardaki psikolojik danışmanlar, anaokulu ve birinci sınıfa başvuran öğrencilerle standartlaştırılmış veya standartlaştırılmamış değerlendirme yöntemleri, gözlemler ve görüşmeler kullanır. Özel okullarda psikolojik danışmanlar genellikle çocuk gelişimi ve ebeveynlere ve öğretmenlere yönelik ihtiyaçlar konusunda seminerler, konferanslar ve grup rehberliği düzenlemekten sorumludur. Yönlendirmeler genellikle öğretmenler tarafından yapılır ve davranışsal, duygusal ve veya öğrenme sorunlarını kapsar, ancak hizmetler genellikle öğretmenlerle çalışmaktan ziyade bireysel danışmanlığa veya ebeveynlerle çalışmaya odaklanır. Öğretmenler genel olarak gerekli desteği alamadıklarını belirtmektedirler. Öğrenciler sıklıkla terapi merkezlerindeki veya hastanelerin ruh sağlığı kliniklerindeki profesyonellere başvururlar. Okullarda psikolojik hizmetlerin nasıl organize edileceği ve bu alanda profesyonel personel yetiştirilmesi konusunda tartışmalar devam ediyor; henüz bir fikir birliğine varılamadı. Diğer ülkelerdeki okul psikolojisi uygulamalarının birçoğu Türkiye'de ya okullardaki rehberlik ve psikolojik danışmanlar ya da Rehberlik ve Araştırma Merkezleri tarafından yürütülse de Türkiye'de okul psikolojisi alanında bağımsız ve iyi tanımlanmış bir uzmanlık bulunmamaktadır. Bu durum danışmanlar, psikologlar, özel eğitimciler ve sosyal

hizmet uzmanları arasındaki rol tanımlarında belirsizliğe ve çatışmalara yol açmaktadır. Ayrıca Milli Eğitim Bakanlığı, okullarda psikolojik hizmetlerin sağlanması için psikolojik danışmanlık ve psikoloji dışındaki sosyoloji, eğitim, felsefe gibi disiplinlerde uzman kişiler görevlendirir.

Anahtar kelimeler: psikolog, pratik psikolog, okul, öğrenci, psikolojik hizmet.

GENETICALLY MODIFIED ORGANISM

Balamədli Aynur
Odlar Yurdu Universiteti
Sevinc MƏHƏRRƏMOVA Telman qızı
dos., Odlar Yurdu Universiteti, Təbiət və Texnologiya Fakultəsi

GENETİK MODİFİKASİYA OLUNMUŞ ORQANİZM

Xülasə

Dünya inkişaf edir, insanlar dəyişir, əhali artır, tələblər artır. Dünyada mövcud olan ərzaq ehtiyatları insanların istehlak sürəti ilə ayaqlaşa bilmir. Buna görə də, bu əhali artımına cavab olaraq, biotexnoloji tədqiqatlar vasitəsilə məhsuldarlığı artırmaq üçün səylər göstərilir. Əldə edilən məhsulların daha çox istehsalı üçün səylər göstərilir.

Bu gün Amerika, Kanada, Argentina, Avstraliya, Çin və Cənubi Afrika başda olmaqla dünyanın bir çox ölkəsində genetik ötürülən kənd təsərrüfatı bitkiləri (soya, pambıq, qarğıdalı) istehsal olunur və iqtisadi səbəblərdən istifadə sahələri günü-gündən artır

GMO - (Genetik Modifikasiya olunmuş Orqanizm) genetika mühəndisliyi metodları istifadə olunaraq genetik materiyalı dəyişdirilmiş orqanizmlərə verilən addır. Bəzi qaynaqlarda GDO, Genetikası Dəyişdirilmiş Orqanizm də adlandırılır.

Küreselleşme olgusu, ortaya çıkardığı sorunlar ve fırsatlar ile göç eylemlerinin sebeplerini yeniden biçimlendirmiştir. Toplumsal riskler, krizler ve savaşlar artık bölgesel nitelikten öte ulus aşırı bir boyut kazanmıştır. Geri kalmış toplumlarda yaşanan problemler küreselleşmenin sunmuş olduğu imkanları ile birlikte bireylerin daha gelişmiş toplumlara göç etmeye yönlendirmektedir. Teorik anlamda Everet Lee'nin İtme Çekme kuramı bu çalışma kapsamında ele alınan göç olgusunu değerlendirme açısından önemlidir. İtme çekme kuramında bireylerin yaşadıkları yer ile ilgili şartlar ve göç etmek istenilen bölge ile ilgili şartlar, göçe sebep olmaktadır. Ancak bu göç hareketleri, göç edilen bölgelerde uzun vadede kültürel, siyasal güvenlik politikaları açısından risklere yol açmaktadır. Bu çalışmamın amacı göç hareketlerinin kontrolsüz biçimde gelişmesinin ortaya çıkardığı problemler ve bu problemlerin gelişim süreci üzerine bir değerlendirme yapmaktır. Çalışma sürecinde Türkiye örneği üzerinden hareket edilerek teorik anlamda göç kuramlarından faydalanılacaktır. Ülkemiz jeopolitik konumu itibariyle orta doğu ülkelerinden yoğun göç almakta ve göç hareketleri açısından cazibe merkezine dönüşmektedir. Bu durum kontrol dışı bir biçime dönüştüğünde siyasal ve güvenlik politikaları açısından risklere yol açabilmektedir. Özellikle son on yılda gerçekleşen göç hareketliliğinin orta ve uzun vadede toplumsal yapı için kültürel ve ekonomik anlamda risklere yol açacağı ortadadır. Özellikle göç eylemlerinin kontrolsüz olması, göçmenlerin ihtiyaçlarının da karşılanması konusunda sorunları ortaya çıkarır. Bu süreç, göçmenlerin itiraz, karmaşa, öfke ve isyan duygularını güçlendirir. Azınlık olmaları itibariyle göçmenlerin organize olma ve örgütleşmeleri daha kolay olacaktır. Örgütlü yapılar nicelik olarak az olsalar bile örgütlü olmayan yapılara göre daha etkin ve işlevsel hareket edebilirler. Bu duruma ek olarak ilerleyen dönemlerde göçmen nüfusunun artması ve bu örgütlü yapıların güçlenmesi anlamına gelir. Bu sebeple gelişmiş toplumların göç ve göçmen politikalarını kontrollü ve düzenli bir sistem ekseninde biçimlendirmesi elzemdir.

Anahtar Kelimeler: Düzensiz Göçmen, Göç, Küreselleşme.

GİRİŞ

Göç, gönüllü veya zorunlu bir şekilde iç veya dış etmenler vasıtasıyla birey veya bireylerin yaşam alanlarını değiştirmesi olarak tanımlanabilir. Genel olarak ekonomik, politik, güvenlik ve sosyal şartların göç hareketlerine sebep olduğu bilinmektedir. Göç, yine bireysel ve toplumsal sebepler temelinde farklılaşabilmektedir. Kitlesel anlamda bakıldığında savaş durumu son on yıllarda önemli göç sebeplerinden olmaktadır. Özellikle Ortadoğu bölgesinde son yıllarda gözlenen politik dönüşümler; öncesi ve sonrası itibarıyla bireylerin kitlesel bir biçimde göç etmesine yol açmıştır. Bu göç hareketleri göç edilen ülke için ekonomik, güvenlik ve politik açıdan önemli risklere yol açmaktadır. Bu çalışma Türkiye özelinde kontrolsüz göç hareketlerinin oluşturacağı uzun vadeli problemleri değerlendirmeye odaklanmaktadır. Bu kapsamda göç hareketlerini Everet Lee'nin (1966) itme-çekme diyalektiği çerçevesinde değerlendirilmeye çalışılmaktadır.

1. Kontrolsüz Göç

Siyasi ve toplumsal olaylar ekseninde gerçekleşen göç, mekanlar arası kültürel dönüşüme yol açan bir süreçtir. Yaşam tarzı, iletişi biçimi veya kullanılan dil gibi sosyal boyuttaki pratikler de değişime uğramaktadır (Demir, 2018:132). Göç eden bireyler, yaşadıkları yer değişiminde kendileriyle birlikte yalnızca somut eşyalarını götürmeyip kültürel değerlerini, benimsedikleri tutumlarını, deneyimlerini veya hayata bakış açılarını da taşımaktadır. Göç, yerleşim alanından belli bir uzaklıkta olan farklı bir yere uzun süreli gidilmesi, biçiminde tanımlanmakta ve genellikle daha iyi yaşam standartlarına erişmek maksadıyla bireysel veya kitlesel olarak gerçeklemektedir. Göç nedenlerine bakıldığında, yerleşim yerine bağlı çözülmeyen problemler ortak bir sorun olarak karşımıza çıkmaktadır. İtici faktörler olarak tanımlanan sorunlar etnik, ideolojik, cinsiyet bazlı ötekileştirmeler; otoriter siyasi rejimler, yoksulluk, işsizlik, yolsuzluk veya savaş gibi insani yaşam koşullarının önünde bariyer oluşturan sosyal problemlerdir. Gidilecek yerde olumsuz sonuçlar doğuran mevcut problemlerin olmayacağı inancı ise çekici faktörler olarak açıklanmaktadır (Lee, 1966; Tümtaş ve Ergun, 2016: 1349). Göç, bireylerin kendi isteği ile gerçekleşiyorsa gönüllü, iradeleri dışında oluyorsa zorunlu olmak üzere ikiye ayrılmaktadır. Gönüllü göçte bireyin yaşadığı olumsuzlukları değiştirme ve maruz kaldığı problemleri ortadan kaldırma hayaliyle yaptığı planlar sonucunda bulunduğu yeri terk etme eylemi, söz konusudur (Karakaya, 2020: 98). Zorunlu göç ise yasal düzenlemelerin kapsamı dışında, bireylerin yaşadığı yerden kendi elinde olamayan nedenlerden ötürü istemeden ayrılması durumudur.

Göç olgusu, toplumsal dönüşümün yanında çeşitli risk faktörlerini de beraberinde getirmektedir. Bu noktada ulus devletleri, bu yer değişikliğinin yaratabileceği sorunları önlemek için göçü kontrol etme ve düzenleme ihtiyacı duymaktadır. Göç nedeniyle güvenliğin sarsılmaması, uluslararası göç düzenlemesinin temel dayanağıdır. Kontrolsüz göç hareketi, denetim, önleme ve istihbaratı zedeleyerek adli sicil veya sınır kontrolünü ortadan kaldırmaktadır. Bu kontrolsüz göç, benimsenen liberal politikalarda dahi hesaplanmayan düzensizlikleri yaratmaktadır. Türkiye'de uygulanan liberal-ötesi göç yönetim modeliyle, Suriyeli göçmenler kullanılarak dış politikada bir kazanım elde etmek amaçlanmaktadır. Bu kazanım, özellikle Avrupa Birliği üyelerine karşı savunma mekanizması olarak kullanılmakla birlikte çeşitli riskleri de içinde barındırmaktadır. Göç, ülke içerisinde özellikle üç farklı sektör için tehlike barındırmaktadır (Demirkol, 2023: 609). İlk olarak ülke ekonomik bağlamda para biriminin değer kaybetmesi sorunuyla karşı karşıya kalabilmektedir. Göç ile birlikte oluşan kontrolsüz nüfus artışı, kaynakların hızla tüketilmesine yol açarak gelir dağılımı eşitsizliğiyle, yoksulluğu doğurmaktadır. İkinci olarak dış politikada güçlü bir imaj için benimsenen göç modeli, yine dış politikayı da tehdit etmektedir. Sınırların bu kadar esnek olması ve mültecilerin Türkiye topraklarına kolaylıkla gelip yerleşebilmesi, olası uluslararası bir göç için Türkiye'yi açık kapı haline getirmektedir. Üçüncü olarak da ulusal egemenlik tehlike ile karşı karşıyadır. Ülkeye yerleşen azınlığın çoğalması, artması ve vatandaşlık elde etmesi bir zaman sonra ülke topraklarında hak iddia etmelerini yol açabilmektedir. Bu hak iddiası göçmenleri, milli bilinç ve ulusallığı ortadan kaldırarak kendi kimliğini hakim kılma yoluna teşvik edecektir.

2. Küreselleşme ve Göç

Küreselleşme, 1980'li yıllarda ortaya çıkmıştır ve ulus-devlet anlayışını değiştirerek uluslararası boyutta bir pazar inşa edilmesidir. Küreselleşme ile dünya devletleri bir bütün olarak iş birliği içerisinde hareket etmektedir. Kamunun özelleştirilmesi, üretim mekanizmasının serbestleşmesi, devlet müdahalelerinin ortadan kalkması ve ulusal ekonomi politikalarının uluslararası iktisadi boyut ile düzenlenmesi küreselleşmenin sonuçları arasındadır. Bu bağlamda devletler özel girişimi destekleyerek liberal anlayışı

güçlendirmektedir. Küreselleşme olgusu ekseninde aktif özne olmayan çevre ülkeler ise pazar yerinin merkezindeki devletlerin çıkarları doğrultusunda dönüştürülmektedir. Dünya çapında finansal destek sağlayan Uluslararası Para Fonu ve Dünya bankası gibi kurumlar da liberal politikaları benimseyen devletlere fon sağlamaktadır (Sağır, Dikici, 2011; Yıldırım, 1997: 172). Ulus-devletlerin ekonomik ve politik olarak birleşmesine yol açan küreselleşme sürecinin durağan değil, sürekli dönüşüm halinde olduğu görülmektedir. Küreselleşmenin sonuçları siyasal, sosyal, ekonomik, teknolojik ve demografik alandaki değişimlerdir. Bu noktada göç olgusunun da küreselleşmeden etkilenerek değişime uğradığı gözlemlenmiştir. Bugün küreselleşme ve göç birbirine bağlı değişkenler olarak karşımıza çıkmaktadır.

Küreselleşme ilk başlarda bilgi alışverişi veya kolay ulaşım kavramlarıyla ifade ediliyor olsa da zamanla uluslararası bir düzeyde ortak güvenlik yapılanmalarına, dünya çapındaki ticari faaliyetlerle ekonomi politikalarına temel olmuştur. Küreselleşmenin özneleri Avrupalı devletlerdir ve ekonomik iyiliği amaçlayan göç hareketleri Batı ülkelerine doğru gerçekleşmektedir. Özellikle sanayileşme sürecinde makineleşmeyle ekonomik gelişme sağlayan Batılı devletler, üretimini hızlandırdıktan sonra süper güç haline gelmiş ve ekonomik açıdan zayıf devletleri kendine bağımlı düzeye taşımıştır. Bu bağımlılık ve Avrupa ülkelerinde var olduğu düşünülen yüksek refah düzeyine erişme hayali, insanları gelişmiş ülkelere göç etmeye teşvik etmiştir (Lecaj, 2019: 51-52). Küreselleşmenin bir sonucu olan ortak pazar anlayışı, ulusçuluk açısından da çeşitli dönüşümleri beraberinde getirmiştir. Göç veren ve göç alan ülkelerde bu yer değişikliğine bağlı olarak politik veya ekonomik etkilerin varlığı söz konudur. Küreselleşme ile hedeflenen dünyanın bütünlüğü, kırdan kente göç olayını, gelişmemiş ülkelerden gelişmiş ülkelere taşımıştır. Göçmenler, gelişmiş ülkelere gittiğinde oradaki emek piyasasında ucuz işgücünü temsil etmektedir. Kendi topraklarında işveren veya işçi statüsünde olmayan, herhangi bir gelir elde edemeyen göçmenler, ekonomik bağımsızlık maksadıyla gittikleri yerlerde çalışma koşullarını (ücret, çalışma saati vb.) önemsemeden üretim mekanizmaları içerisinde kullanılmaktadır.

3. DEĞERLENDİRME VE SONUÇ

Uluslararası boyutta toplumsal değişimlere yol açan göç olgusu çeşitli olumsuz sonuçlar doğurmaktadır. Örneğin son yıllarda kalabalık bir düzeyde göç alan Türkiye'de kontrolsüz bir nüfus artışı söz konusudur. Nüfus artışıyla birlikte çarpık kentleşme, kamu hizmetlerinin yetersizliği, işsizlik, gelir dağılımı eşitsizliği, düşük yaş ortalaması ve ekonomik düzeyde gerileme gibi sorunlar ortaya çıkmaktadır. Bu sorunların her biri birbirini etkilemekte ve ülke gelişiminin önüne geçmektedir. Kalkınma politikalarının uygulamadaki yetersizliği düzensiz göçün kaçınılmaz sonucudur. Bunlarla birlikte tehlikeli olan bir diğer sonuç da kültür çatışmasıdır. Göç edilen bölgedeki dil, din, inanç, değer ve yaşam biçimi göç edenin normlarına ters ise iki alternatif oluşacaktır. Ya göç eden gittiği yerdeki yaşam biçimine saygı duyarak uyum sağlayacak ya da oradaki yapıyı değiştirmeyi amaçlayacaktır. Ülke için tehlikeli olan ikincisidir çünkü göçmen kendi kimliğini yaşamak ve yaşatmak için her yolu mubah olarak görebilmektedir. Kendisi gibi düşünmeyen, inanmayan, yaşamayan insanlara saygı duymayıp doğrularını benimsetmek için baskı uygulayan kitle, yalnızca göçmen statüsünde olmamakla birlikte, toplum için risk oluşturma potansiyeli oldukça yüksektir. Birçok toplumda bu konuda kontrolsüz göçmen politikası aracılığı ile kültürel ve politik riskler yaşandığı dikkat çekmektedir. Bu sebeple Türkiye gibi jeopolitik açıdan kritik bir bölgede yer alan bir ülkenin kontrolsüz göç faaliyetlerinin uzun vadeli etkilerine dikkat edilmesi önem taşımaktadır.

KAYNAKÇA

Demir, E. (2021). Göç Sosyolojisi. *Osmaniye Korkut Ata Üniversitesi Fen Edebiyat Fakültesi Dergisi, 3*(2), 131-138.

Demirkol, A. (2023). Kontrolsüz Uluslararası Göç, Ulusal Güvenlik ve Türkiye: Bir Gelecek Perspektifi. Esra Nur Ekici. *Güvenlik Sonrası İkilemler, Entegrasyonlar, Modeller ve Asya.* TASAM Yayınları.

Karakaya, H. (2020). Türkiye'de Göç ve Etkileri. *Fırat Üniversitesi Uluslararası İktisadi ve İdari Bilimler Dergisi, 4*(2) , 93-130.

Lee, E. (1966). "A Theory Of Migration", Demography, 3(1), 47-57.

Lecaj, F. (2019). Küreselleşme Göç ve Kadın. *Uluslararası Beşeri ve Sosyal Bilimler İnceleme Dergisi, 3*(1), 49-58.

Sağır, A. & Dikici, E. (2011). Yeni Göçmenlik Mekânları Olarak Yeni Kurulan Ünversiteler: Ordu Üniversitesi Örneğinde Öğrencilerinin Bütünleşme Sorunları. Ordu Üniversitesi Sosyal Bilimler Enstitüsü Sosyal Bilimler Araştırmaları Dergisi, 2 (3) , 217-251 .

Tümtaş, M. S. & Ergun, C. (2016). Göçün Toplumsal ve Mekânsal Yapı Üzerindeki Etkileri. *Süleyman Demirel Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 21*(4), 1347-1359.

Yıldırım, N. (1997). Küreselleşme. *Öneri Dergisi, 1*(6), 171-175.

THE EMBODIMENT OF MULTICULTURAL VALUES IN A SINGLE BELIEF BASED ON THE WORK '3 CULTURES' BY AHMED BEY AGAOGLU

Muradlı Pəri Şəmsəddin
Odlar Yurdu Üniversitesi
Filoloji bölümü IV.sınıf,648 F grubu öğrencisi
Azerbaycan, Bakü
M.Mövlamova
Bilimsel direktör:Ph.D.

Summary

A nation that is not sensitive to people in its daily life and does not have representatives of other nations and religions cannot create literature. At the beginning of the 20th century, Azerbaijan was in the middle of literary and social intellectual references. At the beginning of the 20th century, Agaoglu, one of the great thinkers of the Turkish world, adopted Western values and became a political leader for the new Azerbaijan and Turkey. He struggled. His thoughts on culture were expressed in the form of concepts in his separate articles and most importantly in his work titled "Three Cultures", which he wrote while in exile in Malta in 1919-1920. Agaoğlu emphasizes the abstract meaning of the concept of "culture" in his work "Three Cultures" and tries to reveal this concept itself. He equated the concept of "culture" with the concept of "civilization" and summarized the definitions given to it and came to the following conclusion: "We accept this expression as a "Lifestyle" that includes all definitions and definitions. The word that gives the widest meaning to this word, i.e. culture means "way of life". A. Agaoglu attached great importance to the impact of socio-psychological conditions on cultural commonality, which connect historical facts and form the basis of the concept of culture formed by the material and spiritual elements of the Islamic religion. According to Ağaoğlu, who shows that literary and philosophical works also play a role, examples of literary and philosophical works that we imitated until yesterday, Arabic and Persian sources. According to the author, "nationalism in itself is a wonderful event worthy of respect. Ahmed Bey Agaoglu's ideas about religion, morality, individual, family, society, state, government, etc. concepts are still valid today.

Key words: Ahmet Ağaoğlu, three concepts of culture, Islam, Buddha-Brahma, West.

MULTİKULTURAL DƏYƏRLƏRİN VAHİD ƏQİDƏDƏ TƏCƏSSÜMÜ (ƏHMƏD BƏY AĞAOĞLUNUN"3 MƏDƏNİYYƏT" ƏSƏRİ ƏSASINDA)

Xülasə

Hər gün yaşadığı həyatda insanlara, digər xalqın və dinin nümayəndələrinə mehriban olmayan bir xalq bir ədəbiyyat yarada bilməz. Demək olar ki, heç bir ədəbiyyat nümunəmizdə nifrət, digər xalqlara və başqa dillərin təmsilçilərinə kəskin, aşağılayıcı münasibət əks olunmamışdır. XX əsrdə türk dünyasının böyük mütəfəkkirlərindən biri olan Ağaoğlu Qərb dəyərlərini mənimsəmiş, yeni Azərbaycan və Türkiyə üçün siyasi ideyalar yaratmış, mədəniyyətlə bağlı fikirləri ayrı-ayrı məqalələrində, ən əsası isə yaradıcılığında konseptual şəkildə ifadə edilmişdir.

Ağaoğlu “Üç mədəniyyət” adlı əsərində ilk növbədə “mədəniyyət” anlayışının mücərrəd mənasını vurğulayır və bu anlayışın mahiyyətini açmağa çalışır. O, "mədəniyyət" anlayışını "sivilizasiya" anlayışı ilə eyniləşdirərək ona verilən tərifləri ümumiləşdirərək belə nəticəyə gəlir: "Biz bu ifadəni bütün tərif və tərifləri əhatə edən "Həyat Yolu" kimi qəbul edirik. Ən geniş məna verən bu sözün mənası, yəni Mədəniyyət “həyat tərzi” deməkdir.A.Ağaoğlu tarixi faktları birləşdirən, maddi və mədəniyyətin formalaşdırdığı mədəniyyət anlayışının əsasını təşkil edən sosial-psixoloji şəraitin mədəni ümumiliyə təsirinə böyük əhəmiyyət vermişdir. Müəllifin fikrincə, "millətçilik özlüyündə hörmətə layiq möhtəşəm bir hadisədir. Əhməd bəy Ağaoğlunun din, əxlaq, fərd, ailə, cəmiyyət, dövlət, hökumət və s. kimi anlayışlar haqqında fikirləri bu gün də qüvvədədir.

Açar sözlər: Əhməd Ağaoğlu, üç mədəniyyət konsepsiyası, islam, Qərb, Budda-Brahma.

GİRİŞ

XX əsrin əvvəllərində Azərbaycan ədəbi, ictimai fikri axtarışlar içərisində idi. Əsrin görkəmli ziyalıları dövrün siyasi, elmi və mədəni çağırışlarına laqeyd qalmamış, xüsusilə mədəniyyət konsepsiyası kontekstində fikirlərini bildirmiş, dünya mədəniyyətinə inteqrasiya yönündə fikirlər söyləmiş, məqalələr yazmışdılar. Mətbuatda gedən müzakirələrdə H. Zərdabi, Ə. Topçubaşov, Ə. Hüseynzadə, Ə. Ağaoğlu, M.Ə. Rəsulzadə və başqalarının yaradıcılığında kulturoloji görüşlər başlıca yer tuturdu. Bu məqalə və fikirlərdə çağdaş Azərbaycanın, eləcə də türk dünyasının, islam coğrafiyasının yeni mərhələdə mədəniyyət konsepsiyası müəyyənləşdirilməyə çalışılır, köhnə mədəniyyətə yeni baxışla qiymət verilirdi.XX yüzilliyin əvvəllərində Əhməd bəy Ağaoğlu təkcə övladı olduğu Azərbaycan xalqının deyil,bütün türk-islam dünyasının ədəbi-mədəni və ictimai -siyasi fikir tarixində diqqətəlayiq yer tutan görkəmli şəxsiyyətlərdən biridir.Kimdir Əhməd bəy Ağaoğlu? Sualına cavab olaraq heysiyyətli və möhtəşəm bir mütəfəkkirdir,mərd və cəsur mübarizə adamı,professor və maarifçi ,usta qəzetçi-yazar,dürüst siyasətçidir cavabını verə bilərik.Hüriyyət və demokratiya aşiqi bir insan,milliyyətçi və inqilabçı ziyalı,inanılmış və vəfalı dost,yaxşı ailə başçısı ,şəfqətli atadır.Deyə bilərik ki,o,insanlığın bütün üstün cəhətlərini və məziyyətlərini öz simasında toplamış böyük insan,heykəlləşmiş şəxsiyyətdir

Mədəniyyət- insanın və cəmiyyətin inkişafının müasir səviyyəsi, insanın yaratdığı və nəsildən-nəsilə ötürdüyü maddi və mənəvi dəyərlər. Yeni mədəniyyət konsepsiyası axtarışlarının ilk mərhələsində daha çox müqayisələrə üstünlük verilirdi. Bu yöndə əsasən Avropa mədəniyyəti Şərq mədəniyyəti və Budda -Brəhmən mədəniyyəti qarşılaşdırılır və müqayisə edilir, xalqın milli şüurunun hansı istiqamətdə formalaşması məsələlərində müxtəlif, bir-birinə zidd fikirlər irəli sürülürdü. Məhz bunun nəticəsi idi ki, Ə. Hüseynzadə baş redaktoru olduğu "Həyat" qəzetinin 1-cı sayında yazırdı ki, Avropa elminə, maarifinə, ədəbiyyatina, sənət və sənayesinə bələd olmağa və bunu xalqa aşılamağa çalışmalıyıq. Biz belə etməyə çalışacağıq, çünki məsləyimiz bunu tələb edir [1.]

Əhməd bəy mədəniyyətdə böhran, tənəzzül, geriləmə və onlara əks olan tərəqqi, intibah, çiçəklənmə hallarının törənmə və yaranma səbəblərini izah edirdi və onları qarşılaşdırırdı. Şərq və Qərb mədəniyyətlərinin “məğlub” və “qalib” edən şərtləri bir-biri ilə müqayisə edirdi. Müasir, sivil dünya mədəniyyətinin çökməkdə olan mədəniyyətlərin hesabına yarandığını qeyd edirdi. Ə.Ağaoğlunun fikrinə görə, hər millət mədəniyyət hadisəsini özünəməxsus şəkildə anlayır. Əhməd bəy bildirir ki, mədəniyyət müxtəlif millətlərin təfəkküründə formalaşan məfhumdur.

Ədib mədəni müxtəlifliyi tərəqqinin əsas şərtlərindən biri kimi görürdü. Milli özünəməxsusluğu mədəniyyətlərarası tərəqqinin şərtlərindən biri kimi analiz edirdi. Əhməd bəy bildirirdi ki, hər

bir xalqın mədəniyyəti onun keçmişi, ənənəvi dəyərləri, dini inancları, mənsub olduqları milli kimlikləri, yerləşdikləri region ilə çox sıx bağlıdır. Ədib Avropanın digər mədəniyyətlər üzərində qələbə qazanmağının səbəbini yalnız elm və mədəniyyətdə uğur əldə etməsində görmürdü.Əhməd bəyin mədəniyyət anlayışı bölünməzlik, tamlıq prinsipinə əsaslanırdı. O, deyirdi ki, Qərb mədəniyyətinin üstünlüyünü və qələbəsini etiraf ediriksə, bu qələbənin yalnız elm, siyasi və ictimai təşkilata bağlamamalıyıq, mədəniyyətin bütünlükdə zehniyyətinə, görüş tərzinə, ruhuna, dünyagörüşünə,beyninə, şüuruna, qəlbinə, yaşam tərzinə, mühitinə bağlanmalıyıq. Qərb həyatı bizim həyatımıza bütünlükdə qələbə qazanıbsa demək ki, bizim təkcə geyimlərimiz deyil, beynimiz, ruhumuz, zehniyyətimiz də dəyişilib, Qərb həyatına uyğun olmalıdır. Onun gəldiyi nəticəyə görə, Avropa mədəniyyəti başqa mədəniyyətlərə qalib gəlmişsə, o bu qələbəni bütün gücü ilə, bütün qüvvələri ilə, bütün səhvləri ilə birgə qazanmışdı.Ə.Ağaoğlu Qərb mədəniyyətinin qələbə qazandığını bir çox əsərlərində təsdiqləyir. Ancaq Qərb mədəniyyətinə girmədən öncə milli kültürümüzü arayıb taparaq meydana çıxarmağımız tələb olunur" [2, s.50].

"Mədəniyyət" anlayışı və yeni mədəniyyət konsepsiyası Ağaoğlu yaradıcılığında epizodik xarakter daşımamış, əksinə getdikcə daha da dərinləşmiş və Türkiyə dövrü yaradıcılığında mühüm yer tutmuşdur. Onun mədəniyyətə dair düşüncələri ayrı-ayrı məqalələrində, ən əsası isə 1919-1920-ci illərdə Maltada sürgündə olduğu dövrdə yazdığı "Üç mədəniyyət" əsərində konsepsiya şəklində ifadə edilmişdir. Ə. Ağaoğlu əsərinin ilk 1927-ci il nəşrinə "Ön söz"də yazırdı ki, əsərin mövzusu dünyada yan-yana yaşayan üç mədəniyyətdən birinin, yəni Qərb mədəniyyətinin digərlərinə qalib gəldiyini və dolayısı ilə qurtuluşumuz üçün bu mədəniyyəti olduğu kimi mənimsəməkdən başqa çarə olmadığını göstərməkdir" [3, s.19]. Ə.Ağaoğlu "Üç mədəniyyət" traktatında həm keçmişin, həm öz dövrünün, həm də gələcəyin təsvirini vermişdir. Ədib azərbaycançılıq ideologiyasından çıxış edərək, ümumbəşəri dəyərlərə və Azərbaycan xalqının mədəni ənənələrinə söykənərək milli mədəni inkişaf konsepsiyasını yaratmağa çalışmışdır. Mədəniyyətşünas alim "Üç mədəniyyət" əsərində müsəlman xalqlarının milli tərəqqiyə çatmağı üçün Qərb mədəniyyətini öyrənməklərinin vacibliyini dönə-dönə qeyd edirdi. Əhməd bəy Qərbin dünyagörüşü və kulturoloji fikir cəhətdən sürətlə irəliləməsinin səbəbini onların ən azı üç Avropa dilini - fransızcanı, inciliscəni, almancanı bilmələrində görürdü. Qərbdə alim və ədiblərin demək olar ki,hamısı ortaq Avropa dillərini bilir. Məhz dil vasitəsilə onlar Avropa mədəniyyətini bu qədər geniş yaymağa və yaşatmağa nail ola bilirlər. Qərbdə ümumi götürdükdə mədəniyyət dili kimi yunan və latınca qəbul edilib və buna görə də mədəniyyətləri yaşadıb gələcək nəsillərə ötürmək üçün bu dilləri gənc nəslə uşaqlıqdan öyrədirlər.

Aydındır ki, islam dünyasının Qərb mədəniyyəti qarşısında geri qalması fikri XIX yüzilliyin ortalarından başlayaraq "gənc türklər"in yaradıcılığında, XX əsrin əvvəllərindən isə Azərbaycan ədəbi, ictimai fikrində bu və ya digər şəkildə ifadə edilmiş və bu proses əsrin 20-ci illərinə qədər davam etmişdir. Türkiyədə cümhuriyyətin qurulması ilə bu istiqamətdə araşdırmaların aparılmasına bir növ zəmin yaratmışdır. Dövrün bir sıra ziyalıları Türkiyə Cümhuriyyətinin qurulduğu ilk illərdə qurtuluş resepti olaraq gah islam, gah türk-islam, gah da türk birliyini əsas götürürdülər. Ə. Ağaoğlu isə tamamilə fərqli bir yolla gedirdi. Bu, sonralar Türkiyə Cümhuriyyətinin tutduğu Qərb mədəniyyəti yolu idi.

Əhməd bəy Ağaoğlu Şərq mədəniyyətinin çökməsinin səbəbini Şərqdə hökmdarlara, Qərbdə isə qanunlara itaət edilməsi ilə əlaqələndirir. "Üç mədəniyyət" əsərində xalqın əxlaqının formalaşmasında dindən sonra ən çox təsir göstərmək gücündə ola biləcəklər kimi ədəbi və fəlsəfi əsərləri görür. Ə.Ağaoğlu qeyd edir ki, məktəblərimizdə tədris olunan Sədi Şirazinin "Gülüstan"ı və "Bustan"ı zamanla səviyyə cəhətdən uyğun gələ bilmir. Əhməd bəyində dünyagörüşü və kulturoloji fikri o idi ki, yenilikçi olmaq lazımdı zamanla uyğunlaşmaq

lazımdı. Ədib milli tərəqqi üçün yeganə yol kimi Qərb mədəniyyətini görürdü. Əhməd bəy mədəniyyəti həyat tərzi adlandırırdı. Ortaq mədəniyyətin xalqları birləşdirmək gücündə olduğu fikrini irəli sürürdü. Ortaq mədəniyyətin xalqların xarici görünüşləri, qan, cins, rəng müxtəlifliklərinə rəğmən onlarıbirləşdirməyə qadir olduğunu bildirirdi. Bu mədəniyyət ortaqlıqları tərəflərarası mədəniyyətin ruhunu təşkil edirdi. Əhməd bəy bildirirdi ki, hər bir kəsin xarici görünüşü onun ruhunun, dünyagörüşünün, mədəniyyətinin təzahürüdür. Mədəniyyətşünas alim eyni zamanda bildirirdi ki, mədəniyyət məsələlərinin bir qismi maddi, digər bir qismi isə mənəvidir. Maddi qisim, məsələn, geyimlərin forması, binaların arxitekturası, ibadət və ayinlərin icra forması və sairələrdən ibarətdir. Mənəvi qisim isə düşüncə və mənəviyyata aid olduğuna görə daha genişdir. Ümumiyyətlə, hər bir xalqın mədəniyyətinin özünəməxsus bir düşünmə gücü, düşünmə tərzi, düşünmə zəkası vardır. Əksər hallarda mədəniyyətlər bu xüsusiyyətlərə sahibdirlər. Bununla yanaşı hər bir mədəniyyətin bir qəlbi, bir duyum tərzi vardır. Ortaq mədəniyyətə sahib olan xalqlarda ortaq bir əxlaqa, bir dəyər duyğusuna, ortaq yaxşı və pis, gözəl və çirkin görünüşə sahibdirlər.

Lakin Ə. Ağaoğlunun bu mədəniyyətlər arasında heç də "Çin səddi" çəkmək fikri yoxdur, çünki bu mədəniyyətlər arasında "bir çox sızmalar", "qarşılıqlı əlaqələr", "sıx təmaslar" vardır. O, bu mədəniyyətlərin içərisində səkkiz milyonluq Budda-Brahma, Qərb və ya Avropa və islam mədəniyyətlərinə toxunaraq onların yayılma coğrafiyasını da göz önünə gətirir. Bu müxtəlif mədəniyyət zümrələrinin yayılma sahəsinə nəzər yetirən Ə. Ağaoğlu qan, cins, rəng və dil dəyişikliklərinə rəğmən, onların bəzi ortaq və ümumi tərəflərini üzə çıxarır. Ümumi tərəflər insanların yalnız görünüşlərinə deyil, eləcə də daxili dünyasına - onların ruhi hallarına, görüş tərzlərinə və zehniyyətinə qədər gedib çıxır. Bu bənzəyiş hər üç mədəniyyətə sahib olan insanlar arasında vardır. Yəni sıradan bir istanbullu sıradan bir mərakeşlini, bir kabillini, bir kəlküttəlini özü kimi düşünürsə, sıradan bir romalı da Parisdə, Vyanada, Londonda, Vaşinqtonda özünü öz mühitindəki kimi hiss edir, eyni zamanda bir yapon da Koreyada, Pekində, Tibetdə özünü heç cür yad hiss etmir. Bütün bunlar bir mədəniyyət zümrəsinə mənsub qövmlər arasındakı ümumi və ortaq tərəflərin olduğunu bir daha aydın göstərir.Ə. Ağaoğlu daha sonra üç mədəniyyət arasında oxşar və fərqli cəhətləri əhatə edən məsələləri iki qismə bölür: maddi və mənəvi. Maddi qisim dedikdə o, geyimlərin şəkli, binaların forması, ibadət və ayinlərin icra tərzini, mənəvi qisim dedikdə isə düşüncə və duyğunu nəzərdə tuturdu. O, ikinci qismin yayılma arealını daha geniş və əhatəli hesab edərək bu mədəniyyətlərin tarixinə ekskurs edir. İslam aləminin hər tərəfindən gəlmiş alimlər, ədiblər ərəb və fars dillərini mükəmməl bilməklə bir yerə toplanıb akademiya qurduqları kimi, qərbli alim və yazıçılar da fransızcanı, ingiliscəni, almancanı, üstəlik əski latıncanı da öyrənirdilər. Ə. Ağaoğlu onları qarşılaşdırarkən Qərb mədəniyyətinin üstün durumda olduğunu qeyd edir. Yəni Qərb mədəniyyətini qalib, Budda-Brahma və islam mədəniyyətinin isə məğlub durumda olduğunu iddia edir. Əlbəttə, bu cür fikirləri o dövrdə səsləndirmək böyük cəsarət tələb edirdi. Ona görə ki, hələ də sivilizasiya, idarəetmə baxımından islam aləminə heyranlar və onu kor-koranə müdafiə edənlər çox idi. Ə. Ağaoğlu onları "gerçəyi görməməkdən xoşlanan korlar" adlandırırdı [3, s.28].

Əhməd bəyin yaradıcılığında sivilizasiyanın Şərqdəmi və ya Qərbdəmi təşəkkül tapması mübahisə predmenti olmayıb. O, qeyd edirdi ki, Şərqlə Qərb arasında heç bir düşmənçilik olmamalıdır. Ə.Ağaoğlu Şərqdə sivilizasiyanın tez yaranmasına baxmayaraq, gec inkişaf etməsinin bir səbəbi kimi də əlifbanı göstərirdi. Ərəb qrafikalı əlifbaların çətin öyrənilməsi tərəqqiyə problemlər yaradırdı. Ərəb əlifbasının öyrənilməsinin çətin olduğunu əsas gətirən Əhməd bəy əlifba dəyişikliyini labüd hesab edirdi. Müsəlman əhalisinin aciz olmalarının, dünya elmlərini çətin öyrənmələrinin səbəbini ərəb əlifbasında görən ədib əlifbaya tənqidi yanaşırdı.

Əhməd bəy mədəniyyət bağları ilə bağlanmağı belə izah edir ki, İslam mədəniyyətinə mənsub olan bir şəxs özünü İstanbul, Mərakeş, Mesopotamiya, Qahirə, Məkkə, Şam, Bakı, Tehran, Şiraz, Kabil, Lahor, Kəlküttə, Səmərqənd, Təbriz, Ankara və s. şəhərlərin hansında yaşasa, özünü heç vaxt orda özgə hiss etməz, çünki o orada yaşayan insanlarla eyni mədəniyyətə, kültürə sahibdir. Buna səbəb eyni mədəniyyətə sahib olan insanların geyim tərzlərinin, yaşam şəkillərinin, adət və ənənələrinin bir-birinə uyğunluğu və yaxınlığıdır. İslam mədəniyyətində bu uyğunluq əba, qadınlarda örtünmə şəkli, eyni ibadət qaydaları və ibadətlər, azan, dualar, məqəddəs kitab Quran, insanların görünüş tərzi, düşünmə, anlama tərzi və zəkasıdır. Bu mədəniyyət bağları ilə bağlanma Budda-Brəhmən və Qərb və ya Avropa mədəniyyətlərində də eynidir. Qərb və ya Avropa mədəniyyətinə mənsub olan şəxs üçün Paris, Vyana, Berlin, London, Vaşinqton və s. mühitlərin heç bir fərqi yoxdur. Bu vəziyyət Budda-Brəhmən mədəniyyətinə mənsub olanlar üçün də eynidir. Onlar üçün də Koreya, Pekin, Tibet, Seul,Busan, Honq Konq, Şanxay və s. kimi mühitlərə uyğunlaşmaq olduqca rahatdır. Millətlərarası bu rahatlığı da eyni mədəniyyətə mənsubluq təmin edir. Əhməd bəy Ağaoğlunun dünyagörüşü belədir ki, İslam mədəniyyəti və Budda-Brəhmən mədəniyyəti Qərb mədəniyyəti ilə olan mücadilə aparmaq gücündə deyil. Onlar mənəvi yenilməyə məhkumdurlar. Əhməd bəy bildirir ki, İslam mədəniyyətinə və Budda-Brəhmən mədəniyyətinə mənsub olanlar özləri Qərb mədəniyyətinə, onun özəlliklərinə maraq göstərib, onları öz razılıqları ilə qəbul edib, öz yaşam tərzlərini Qərb mədəniyyətinə uyğunlaşdırmışlar. Bu uyğunlaşmada Qərb mədəniyyətinə mənsub olanların məcburiyyəti olmamışdır. İslam mədəniyyətinə və Budda-Brəhmən mədəniyyətinə mənsub olanlar öz geyimlərini, evlərini, həyatlarını, ictimai, siyasi, texniki təlimlərini, təhsil sistemlərini, ədəbiyyatlarını, musiqilərini Qərb mədəniyyətinə uyğunlaşdırmışlar və bir çox hallarda onları təqlid etmişlər. Beləliklə də, ölkədaxili mədəniyyətlərarası mücadilələr mərhələsi başlayır. Keçmiş ənənələri müdafiə edənlər Avropa mədəniyyətini qəbul etmirdilər. Onlar soyköklərinə dayanan ənənələri qorumağa çalışırdılar, onların bu mühafizəkarlığı İslam və Budda-Brəhmən mədəniyyətlərinin bütünlüklə, Avropa mədəniyyətinə məğlub olmasının qarşısını ala bildi. Əhməd bəy təsdiqləyir ki, bu günümüzdə də demək olar ki, hər kəs Avropa mədəniyyətinin elm və texnika sahəsində üstünlüyünü və qələbəsini qəbul edir. Lakin, Əhməd bəy Ağaoğlu bu fikirlə razılaşmır ki, Avropa mədəniyyəti başqa mədəniyyətlərə ancaq elm və təhsil sahəsindəki uğurlarına görə qalib gələ bilmişdir. O, Avropa mədəniyyətini bütünlüklə, hər sahədə qalib mədəniyyət hesab edirdi. Əhməd bəy "Avropa mədəniyyəti başqa mədəniyyətlərə ancaq elm və təhsil sahəsində qalib gələ bilmişdir" fikri ilə heç cür razılaşa bilməzdi, çünki onun düşüncəsinə görə mədəniyyət bölünməz bir anlayışdır və onu ancaq tam almaq, mənimsəmək mümkündür. Eyni millətin çeşidli fərdləri əsla bir-birlərinə bənzəməzlər. Ən bənzər olanların arasında belə böyük fərqlər vardır ki, bu ayrılıqlar onların şəxsiyyətlərində özünü göstərir. Əhməd bəy Ağaoğlu qeyd edirdi ki, qaradərili irqə mənsub olan insanlar heyvanla insan arasındakı bir növə aid edilirdi. Lakin, Amerika zənciləri mədəniyyətə intibah yolu ilə yiyələnə bildilər. Ancaq müşahidələr və təcrübələr onu göstərir ki, eyni mədəniyyətə, irqə sahib olan, müxtəlif millətlər vardır ki, onların daxili idarə etmə sistemi eyni deyil. Məsələn, ruslar, almanlar, fransızlar, ingilislər, italyanlar eyni ari irqinə mənsubdurlar və eyni zamanda onlar Avropa mədəniyyətinin nümayəndələridirlər. Bütün bunlara baxmayaraq, bu ölkələrin daxili qanunları vardır. Tarixin müxtəlif dövrlərində də bu eyni irqə, mədəniyyətə sahib olan millətlərin bir-birinə qarşı müharibələr etdiyinin şahidi oluruq. İslam mədəniyyətinə mənsub olan farslar, türklər, kürdlər, ərəblər arasında da bu cür ayrılıqlar olur. Buna səbəb olan milli şəxsiyyətdir. Onu isə ancaq hərəkətsizlik öldürə bilir.Əhməd bəy istəyirdi ki, milləti Qərb həyatını beyni, qəlbi, zehniyyəti ilə tam şəkildə qəbul etsin.

Əhməd bəy Ağaoğlu müasirlərinin bir çoxundan fərqli olaraq, öz əqidəsində, inamında, məsləkində sabit idi. Bütün varlığı ilə İslam dininə bağlı olduğunu və bununla qürurduyduğunu bu barədə yazdığı əsərlər çox aydın göstərir. Lakin o, İslam dinindən öz mənafeyi naminə sui-istifadə edən, onun mütərəqqi cəhətbrini, yüksək dəyərə malik əxlaq prinsipbrini, bəşəri mahiyyət daşıyan ideyalarım nüfuzdan salan ruhanibri, m üftibri,şeyxülislamları, yeri gəldikcə, kəskin satira atəşinə tutmuş, ciddi tənqid etınişdir.Əhməd bəy çox ziddiyyətli bir dövrdə yazıb-yaratmışdır. Həmin dövrdə cəmiyyətdə elmsizlik, cəhalət, nadanlıq, o cüm bdən Ə.Ağaoğlu yenilməni də iki yerə bölür: maddi və mənəvi. Maddi yenilmənin çox açıq olduğunu, üç yüz ildən bəri başlandığını və islam cəmiyyətlərinin bir-birinin ardınca tənəzzülə uğramasını qeyd edir, sonuncu qalanın - Osmanlının da yıxıldığına diqqət çəkir və bu nəticəni Qərb mədəniyyəti ilə mücadilənin sonucu hesab edirdi. Mənəvi yenilmə isə maddi yenilmə qədər acı olmasa da, bir fikir adamı üçün mütləq olduğunu söyləyir. Yenilmə dedikdə isə başqasının şəxsiyyətini qəbul etməyi və iradəsinə tabe olmağı nəzərdə tuturdu: "Bu baxımdan istər islam və istərsə də Budda-Brahma mədəniyyəti yenilmişdir. Onlar Qərb mədəniyyətinin şəxsiyyət və özəlliklərini qəbul etmək və onun iradəsinə tabe olmaq məcburiyyətindədirlər. İstər müsəlmanlar, istərsə də digər irqlər geyimlərindən tutmuş evlərinin quruluşuna kimi, həyatın maddi təcəlllilərindən başlayaraq ədəbiyyat və musiqi kimi mənəvi tərəflərin ən munis numunələrinə qədər Avropa modellərini təqlid etməkdədirlər. İctimai, siyasi, texniki müəssisələrdə təlim və təhsildə hələ də Avropanı təqlid edirlər. Bu təqlid bəzən istəyə bağlıdırsa, bəzən də məcburiyyətdən edilir" [3, s.29].

Ə. Ağaoğlu "Üç mədəniyyət" əsərində bir fikir adamı kimi özünü tamamilə bu təmayüllərdən kənara çəkir, sanki bu mədəniyyətlərin müqayisəsi zamanı hissə qapılmır, əksinə faktlarla ehtimallarını, nəzəri və praktiki düşüncələrini sübuta yetirməyə çalışır. Doğrudan da, onun yaşadığı dönəmdə baş verən hadisələr, cəmiyyətdəki cərəyanlar problemin nə qədər ciddi olduğunu göstərirdi. Bu zaman istər Asiya, istərsə də islam cəmiyyətlərində bir-biri ilə mücadilə aparan iki cərəyanı aydın görmək olurdu: məhəlli, əski ənənələrə dayanan mədəniyyətlə, Qərb mədəniyyəti tərəfdarlarının mübarizəsi davam edirdi. Bir tərəf keçmişi və yüz illər boyu sahib olduğu ənənəni qorumağa çalışır, o biri tərəf isə mühafizəkarlığa meydan oxuyaraq Qərb mədəniyyətini təbliğ edirdi. Ə. Ağaoğlu da dövrünün şərtlərindən və tələblərindən çıxış edərək "Avropa mədəniyyətindən kənarlaşmaq istəyən bütün cəmiyyətlərin və özəlliklə islam mədəniyyətinə mənsub olanların gün keçdikcə daha da azaldığını görürük" [3, s.30] fikri ilə ikinci cərəyana haqq qazandırırdı.

Ə. Ağaoğlunun bu əsərini Azərbaycan ədəbiyyatında M.F. Axundzadənin "Kəmalüddövlə məktubları", Ə. Hüseynzadənin "Siyasəti fürusət", M.Ə. Rəsulzadənin "Əsrimizin Səyavuşu" əsərləri ilə müqayisə etmək olar. Əsəri janr etibarilə fəlsəfi traktat da adlandırmaq mümkündür. Ona görə də əsərə və oradakı fikirlərə qiymət verərkən dövrün prizmasından yanaşmaq daha doğru olardı. Burada tədqiqatçını narazı salan cəhət xristianlıqla islamiyyətin müqayisəsidir: "Tarixi prosesdə siyasi praktik sahə olaraq xristianlıqla islamiyyətin müqayisə edilməsi də ayrı bir problemdir. Bunu ifadə edim ki, islam dünyası xristian dunyasının tam əksinə, dinin siyasi irqlər üzərindəki hegemonluğunu deyil, siyasi iqtidarın din üzərinə təzyiqlərinə şahid olmuşdur" [1, s.101].

Əhməd bəy Ağaoğlu çox gözəl başa düşürdü ki, bir cəmiyyətdə köklü dəyişikliklər etmək asan məsələ deyil. Bunun üçün cəmiyyətdə o dəyişikliyə hazır olmalı və onu istəməlidir. Onun fikri bu idi ki, qarşımızdakı dağı aşmalıyıq, uçurumu doldurmalıyıq, mədəniyyət karvanının arxasınca getməliyik. O, əxlaqlı olmaq anlayışının yalnız cinsi münasibət çərçivəsində anlaşılması ilə qətiyyən razılaşa bilmirdi. Əhməd bəy fikirlərini belə əsaslandırırdı ki, əxlaq bütünlükdə cinsi münasibətlərlə məhdudlaşdırılsaydı, onda insanlarda yalnız qurşağa qədər yaradılardı. Lakin, belə deyildir, insanların qurşaqdan yuxarı olan qəlb və ruhu vardır. Əxlaq

məhz qəlb və ruha aid olan bir varlıqdır. Əhməd bəyin dünyagörüşünə görə, insanlar arasındakı münasibətlər qəlb və ruh vasitəsilə qurulmalıdır. Yalnız bu zaman münasibətlərdə qəlb və ruha aid olan vəfa, doğruluq, sədaqət, mərdlik, acıma, yardım, bağışlamaq və s. kimi duyğuları görmək olar. Əks halda insanlar arasındakı münasibətlərdə həyasızlıq, arsızlıq, şərəfsizlik, heysiyyətsizlik adi hala çevrilər. Əhməd bəyin dünyagörüşünə görə insanlar arasında təbəqələşmə, alt qatın aclıqdan ölməsi, bu hadisədən isə üst qatın xəbərinin belə olmaması insanlıq adına utancvericilikdən başqa heç nə deyil. Əhməd bəy insanların biri-birinə qarşı bu qədər yad və düşüncəsiz davranışlarını, haqsızlıq qarşısında özlərini izləyici kimi aparmaqlarını, bir-birinin köməyinə çatmaq əvəzinə, haqqını müdafiə etmək yerinə, təsəlli verməkdənsə, üzünü çevirib getməklərini qəbul edə bilmirdi. O, cəmiyyətdə hər kəsin öz rahatlığını, öz mənafeyini nəyin bahasına olur olsun qorumaq düşüncəsini öz təfəkküründə heç cür yaxın qoya bilmirdi. Çünki, o, yaxşı bilirdi ki, insanlar arasındakı bu özgələşmə, soyuqluq nələr ilə nəticələnə bilər. Əhməd bəyin dünyagörüşü belə idi ki, ümumi məsələlərə hər kəs şəxsi vicdanı, şəxsi əxlaqı, tərbiyəsi çərçivəsində münasibət göstərməlidir. Ümumi məsələlərdə sui-istifadə, idarəsizlik, ləyaqətsizlik və s. göstərilərsə, milli varlıq məhv olar. Ümumiyyətlə, Əhməd bəy dünyagörüşünə uyğun olaraq, məsələlərə ümumi aspektdən yanaşırdı. Onun dünyagörüşünü təhlil edən zaman ən çox diqqət çəkən mövzu ailənin bütövlüyü və sağlamlığı məsələsidir. Əhməd bəy bu mövzuya çox böyük bir həssaslıqla yanaşaraq, bildirir ki, ailə hər boş bir davaya, zəif münaqişəyə, bəzən bir saatlıq, hətta bir dəqiqəlik qəzəbə görə dağıla bilirsə, demək ki, bu ailələr bir-birinə möhkəm bağlarla bağlanmayıblar. Bu ailələrdə sevginin, həyəcanın, sevincin, sədaqətin, səmimiyyətin, vəfanın, hörmətin, qayğının yerini düşmənçilik, kin, soyuqluq, qorxu, hiylə, xəyanət alıbdır. Əhməd bəyin dünyagörüşünə görə ailə mənəvi bağlar üzərində qurulmalı və davam etdirilməlidir. Ailə fərdləri arasında sevginin, ədalətin, insafın, doğruluğun,səmimiyyətin, vəfanın, hörmətin olması mühüm şərtlərdəndir. Əhməd bəy hökmdarların ailə daxili zalımlıqlarını, tüklər ürpədən qəddarlıqlarını - atanın, əminin, dayının, qardaşın, oğulun bir-birini kor etməsini, öldürməsini, şikəst etməsini qəbul edə bilmirdi. Onun belə fikirləşməsi tamamilə gözləniləndir, çünki Əhməd bəy Ağaoğludünyagörüşü etibarilə tolerant bir şəxsiyyət idi. O, dünyanın ağılla, məntiqlə, insani duyğularla, ədalətlə, insafla, doğruluqla idarə olunmasının tərəfdarı və tələbkarı idi.

NƏTİCƏ

Göründüyü kimi, Ə. Ağaoğlunun yaradıcılığında islam dini və mədəniyyəti kifayət qədər geniş yer tuturdu. Hətta belə demək mümkünsə, islamla bağlı fikirləri müxtəlif dövrlərdə müəyyən təzyiqlə qarşılanmasına baxmayaraq, islam mövzusu Ə. Ağaoğlu yaradıcılığının əsas sütununu təşkil edir. Əsəri ilk dəfə Azərbaycanda nəşrə hazırlayaraq ona ön söz yazan professor Vaqif Sultanlı əsərə daha doğru mövqedən yanaşmışdır: "Əsər ədibin dünyagörüşünün konseptual tərəflərini öyrənmək baxımından onun bütün digər tədqiqatlarından daha çox material verir" [6, s.12]. [səh.249-250]. Bütün bunlar onu deməyə əsas verir ki, Ə. Ağaoğlunun "Üç mədəniyyət" əsəri ədəbiyyatşünaslar, sosioloqlar, tarixçilər tərəfindən hələ yetərincə öyrənilməmişdir. Əsərin Ağaoğlu yaradıcılığında sürgün dövrünün yeganə monumental məhsulu olduğunu nəzərə alaraq, mahiyyətini düzgün qiymətləndirmək üçün onun tarixi-müqayisəli üsulla araşdırılması zamanın zəruri tələbidir. Ə. Ağaoğlu özünün mədəniyyət konsepsiyasının əsaslandığı, tarixi faktları bir-birinə birləşdirən, islam dininin maddi və mənəvi ünsürləri ilə formalaşmış sosial-psixoloji şəraitin mədəni müştərəkliyə təsirinə çox böyük əhəmiyyət verirdi. Onun din, əxlaq, fərd, ailə, cəmiyyət, dövlət, hökumət və s. anlayışlarla bağlı fikirləri bu gün də aktuallığını qoruyub saxlayır.Sonda isə demək istəyirəm Türk cəmiyyətini ailə problemlərindən qurtarmalı,bir ailədə ər və arvadın hüquqca bərabərliyi əsası üzərində qurulmasınl təmin etməliyik.Bizim yaşadığımız dövr,zaman bunu tələb edir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Ağaoğlu Ə. Üç mədəniyyət. Bakı: Mütərcim, 2006, 154 s.
2. Ağaoğlu Ə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2007, 391 s.
3. Akçura Y. Türkçülüyün tarixi. Bakı: Qanun, 2010, 209 s.
4. Göyalp Z. Türküçülüyün əsasları. Bakı: Maarif, 1991, 175 s.
5. "Həyat" qəzeti, 1905, №1.
6. Sultanlı V. Əhməd Ağaoğlu fenomeni // "Ədəbiyyat" qəzeti, №35, Bakı, 2006.
7. https://iksmedia.az/index.php/m-d-niyy-t/1544-hm-d-b-y-a-ao-lunun-yarad-dz-l-nda-kulturolozhi-fikir

ÇOK KÜLTÜRLÜ DEĞERLERİN TEK İNANÇTA VÜCUT BULMASI (AHMET BEY AĞAOĞLUNUN"3 KÜLTÜR" ADLI ESERİNDEN YOLA ÇIKILARAK)

Özet

Günlük yaşamında insanlara karşı nazik olmayan, diğer milletlerin ve dinlerin temsilcileri olmayan bir millet edebiyat yaratamaz.XX yüzyılın başında Azerbaycan edebi ve sosyal entelektüel arayışların ortasındaydı.XX yüzyılın başında Türk dünyasının büyük düşünürlerinden biri olan Ağaoğlu, Batı değerlerini benimsemiş ve yeni Azerbaycan ve Türkiye için siyasi mücadele vermiştir.Kültürle ilgili düşünceleri ayrı makalelerinde ve en önemlisi 1919-1920 yıllarında Malta'da sürgündeyken yazdığı "Üç Kültür" adlı eserinde kavramlar halinde ifade edilmiştir. Ağaoğlu, "Üç Kültür" adlı eserinde öncelikle "kültür" kavramının soyut anlamını vurguluyor ve bu kavramın özünü ortaya çıkarmaya çalışıyor. "Kültür" kavramını "medeniyet" kavramıyla eş tutmuş ve ona verilen tanımları özetlemiş ve şu sonuca varmıştır: "Biz, biz bu ifadeyi, tüm tanım ve tanımları kapsayan bir "Yaşam Tarzı" olarak kabul ediyoruz. Bu kelimeye en geniş anlamı veren kelime, yani kültür, "yaşam biçimi" anlamına geliyor.A. Ağaoğlu, tarihi gerçekleri birbirine bağlayan, İslam dininin maddi ve manevi unsurlarının oluşturduğu kültür anlayışının temelini oluşturan sosyo-psikolojik koşulların kültürel ortaklığa etkisine büyük önem verdi.Üç Kültür" adlı eserinde millet ahlâkının oluşmasında dinden sonra edebiyat ve felsefe eserlerinin de rol oynadığını gösteren Ağaoğlu'na göre, düne kadar taklit ettiğimiz edebi ve felsefi eserlerden örnekler, Arapça ve Farsça kaynaklar. Yazara göre "milliyetçilik başlı başına saygıya değer muhteşem bir olaydır.Ahmed Bey Ağaoğlunun dini, ahlakı, bireyi, ailesi, toplumu, devleti, hükümeti vb. kavramlar hakkındaki fikirleri bugün hala geçerlidir.

Anahtar kelimeler: Ahmet Ağaoğlu, üç kültür kavramı, İslam, Buda-Brahma, Batı.

CRITICISM OF IGNORANCE AND SUPERSTITION IN THE WORKS OF JALIL MAMMADGULUZADE

Məmmədova Ayşə Şakir qızı
Odlar Yurdu Universiteti
Filologiya ixtisası, IV kurs, 648 F qrup tələbəsi
N.Z.Muxtarzadə
Elmi rəhbər: f.ü.f.d.

Summary

In Azerbaijani literature, the 19th century manifests itself as a period of rapid development, progressing towards humanistic ideals, enlightenment, and the first serious attempt. When we think of enlightenment, criticism of ignorance and superstition, one of the people who comes to mind is Jalil Mammadguluzade, a genius Azerbaijani writer, playwright, journalist, founder and head of the Molla Nasreddin literary school. During his literary activity, Jalil Mammadguluzade worked tirelessly for the enlightenment of our people, for getting rid of ignorance, for the people of that time to acquire education and thoughts free from superstitions, regardless of their age and identity. The ideas of the artist, who have an irreplaceable role in the progress of our nation, were written in a language that is close to the people's thinking and understood by everyone in "The Dead", "The Stories of Danabash Village", "Mailbox", "Freedom in Iran", etc. He showed the causes of the disaster more clearly in his works.

CƏLİL MƏMMƏDQULUZADƏ YARADICILIĞINDA CƏHALƏT VƏ MÖVHUMATIN TƏNQİDİ

Xülasə

Azərbaycan ədəbiyyatında XIX əsr sürətli inkişaf, humanist ideallara, maarifçiliyə doğru irəliləyən, ilk ciddi cəhd dövrü kimi özünü büruzə verib. Maarifçilik, cəhalətin və mövhumatın tənqidi dedikdə ağlımıza gələnlərdən biri dahi Azərbaycan yazıçısı, dramaturq, jurnalist, "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi və ideya rəhbəri Cəlil Məmmədquluzadədir. Cəlil Məmmədquluzadə ədəbi fəaliyyəti dövründə xalqımızın mariflənməsi, cəhalətdən qurtulması və dövrün insanlarının yaşından, kimliyindən asılı olmayaraq təhsilə, xurafatdan uzaq düşüncəyə yiyələnməsi üçün durmadan çalışmışdır. Xalqımızın tərəqqisində əvəzsiz rolu olan sənətkar ideyalarını xalqın düşüncəsinə yaxın, hər kəsin başa düşdüyü dildə yazdığı “Ölülər”, “Danabaş kəndinin əhvalatları”, “Poçt qutusu”, “İranda hürriyyət” və s. kimi əsərlərində fəlakətin səbəblərini daha aydın şəkildə göstərmişdir.

VERBAL PHRASEOLOGICAL UNITS

Saliyeva Hədiyyə Ağadur qızı
Odlar Yurdu Universiteti
ORCID number 0000-0003-2094-2022

Abstract

Verbal Phraseological Units have the meaning of work, situation, and are mainly used as the predicate of the sentence. The words that make them up play the main role in forming the general meaning of the fixed combination. Therefore, the words inside such compounds become their main components.
It is impossible to get a clear idea about the structural type of a phraseological unit without determining the secondary member (object) of the phraseological unit and its grammatical features. Therefore, the members controlled by phraseological units cannot be considered completely isolated from them.
The diversity of opinion about the phraseological circle of the language continues today among scientists. Some of the linguists started from the concept of phraseologism only in a limited sense and used idioms, others also phraseological combinations, the third part took the concept of phraseologism in a broad sense, as well as phraseological expressions and phrases, terminological combinations loaded with expressiveness-emotionality, etc. are also accepted as the object of phraseology.
When we start from the sign of predicativeness, we also have to accept the concept of phraseological unit in a broad sense, adding here phraseological conjunctions, phraseological units, paramiological units, winged words, aphorisms, literary quotations and other similar fixed word combinations.
Phraseological units created with the help of verbs in international languages make up a large part of the phraseological microsystem. Since the syntactic-morphological structure of such units is formed according to the internal laws of each language, the arrangement of the words and the position of the verb in them are also different. At the same time, the role of the verb in phraseological units is also dual. It is known that the verb is on one side of the verb combinations, and various sentence members are on the other side. Here, whether the verb is the leading component affects the formation of variants (doublets) and synonyms of phraseological units, the mobility (variability) of either the verb or the other components when used in speech.
When we talk about the lexical composition of verbal phraseological units, it should be noted that most of the noun component of phraseological units, and all of the verb components are independently developed words in the modern language.

Key words: phraseological combinations, predicate, idioms, morphological structure, linguistics**.**

Feli frazeoloji birləşmələr iş, hal-vəziyyət mənasında olub, əsasən cümlənin xəbəri vəzifəsində işlədilir. Bunları təşkil edən sözlər sabit birləşmənin ümumi mənasının formalaşmasında əsas rol oynayır. Buna görə də belə birləşmələrin daxilindəki sözlər onların əsas komponentləri olur. Feli frazeoloji vahidlərin çoxu cümlədə müəyyən obyekt tələb edir. Məsələn, «Mən oğurluqda ona göz qoyurdum» cümləsində ona sözü tamamlıqdır. Belə sözlər cümlədəki fikrin

məzmunundan asılı olaraq dəyişdirilir, yəni «göz qoymaq» frazeoloji vahidini başqa söz və ya söz birləşməsindən ibarət ola bilər. Məsələn. «Xahiş edirəm, İbada göz qoyasınız» (C.Əmirov). «Mən onların iməcilikdə necə işləməsinə göz qoyuram».

Frazeoloji vahidin hansı ikinci dərəcəli üzvü (obyekti) ilə əlaqədar olduğunu və qrammatik səciyyəsini müəyyənləşdirmədən frazeoloji birləşmənin struktur tipi haqqında aydın təsəvvür əldə etmək qeyri-mümkündür. Buna görə də frazeoloji vahidlərin idarə etdikləri üzvləri onlardan tam təcrid olunmuş şəkildə nəzərdə tutmaq olmaz.

Habelə, ingilis dilində:

to sweep the board – uğur əldə etmək,(добиться полного успеха)

to rock the boat – vəziyyəti daha da çətinləşdirmək

«...he fought all his life for seniority and overtime. But you ask him to fight for something a little bit different and he begins to scream... Don't rock the boat, he says...» (A.Saxton, «The Great Midland», part IV, ch.8).

Eyes on the forehead climb

To sit on pins and needles- iynə üstündə oturmaq (həyəcanlı olmaq, narahat olmaq)

Dilin frazeoloji dairəsi haqqında fikir müxtəlifliyi alimlər arasında bu gün də davam etməkdədir. Dilçilərin bir qismi yalnız məhdud mənada frazeologizm anlayışından çıxış edərək idiomları, digər qismi həm də frazeoloji birləşmələri, üçüncü qismi frazeologizm anlayışını geniş mənada götürərək, həmçinin frazeoloji ifadə və ibarələri, ekspressivlik-emosionallıqla yüklənmiş terminoloji birləşmələri və s. də frazeologiyanın obyekti kimi qəbul edirlər. Azərbaycan dilçisi H.Bayramov «frazeologiya» anlayışını dar mənada götürsə də, atalar sözləri və zərb məsəlləri frazeologiyanın zənginləşməsinin mənbələrindən biri hesab etmiş və onları frazeoloji cümlə kimi araşdırmışdır .S.İ.Ojeqov 1957-ci ildə yazdığı məqaləsində qanadlı sözləri, atalar sözləri və zərb məsəlləri, nağıl formullarını, aforizmləri, xüsusi klişeləri, ədəbi sitatları və s. də frazeoloji vahidlərin növü kimi götürərək göstərirdi ki, onlar öz elementlərinə parçalandıqdan və janr əlaməti strukturunu dağıtdıqdan sonra dilin frazeoloji sisteminin sərvətinə çevrilir. Bunu müdafiə edən prof. A.M.Qurbanov da frazeologiyanı geniş mənada qəbul edərək, onun «frazeoloji söz birləşməsi» və «frazeoloji ifadə va ibarələr» şəklində müfəssəl öyrənilməsini təklif edir.

Son illərdə dilçilik ədəbiyyatında obrazlı terminoloji vahidlərin frazeologizm hesab olunması müşahidə edilir.

Bəziləri, bir layihə sifariş edərkən, yalnız bitmiş bir təmir almaq istəmir, həm də orada öz istəklərini həyata keçirməyə çalışırlar. Onlar üçün proses və bu prosesdə iştirak vacibdir. Dizaynerlə ünsiyyət qurmaq, ideyalarını təklif etmək və onları həyata keçirməyin yollarını axtarmaq istəyirlər. Yalnız süni intellekt layihəsi əsasında bələdçi olmadan onlar heç nə yarada bilməyəcəklər.

Digərləri əsəblərini və vaxtlarını sərf etmək istəmirlər və brifinqdən mebel yerləşdirməyə qədər hazır məhsul almağı gözləyirlər - süni intellekt hələ buna qadir deyil. Nə istədiklərini bilməyən və aydın dizayn məsləhətinə ehtiyacı olanlar da var.Nə qədər insan varsa, o qədər də fikir var - bu ifadə dizayn mühitinə uyğundur, demək olar ki, hər bir müştərinin öz arzuları var.

Müştərilərin bütün bu kateqoriyaları bir dizayner seçəcəklər - həyata keçirmə prosesi zamanı ortaya çıxan daha çox bilinməyən, dəyişən məlumatların olduğu yerdə bir şəxs hələ də güclüdür.

—"Will robots take my job" xidməti süni intellektin interyer dizaynerlərini əvəz etmə ehtimalını cəmi 8% proqnozlaşdırır,baxmayaraq ki mühasiblər və maliyyə analitikləri üçün isə nəticə təxminən 50% təşkil edir.

Azərbaycanda süni intellekti tətbiq edən dizayn şirkətləri varmı?

Təqribən 5 il əvvəl ölkədə Süni İntellekt və Data Elmi istiqamətində danışılmır və qurumlarda Data Elmi ümumiyyətlə tətbiq edilmirdi. Lakin son illərdə ölkəmizdə Süni İntellekt sahəsində oyanış və inkişaf müşahidə edilməyə başlandı. Hər keçən gün data elmi və süni intellekt elminin dövlət və özəl qurumların diqqətini daha çox çəkdiyinin və Süni İntellekt istiqamətində təşəbbüslərin artan sürətdə çoxaldığının şahidi olduq.

Azərbaycanda Süni İntellekt ilə bağlı ilk təşəbbüslərə "Center for Data Analytics and Web Insight" (CEDAWI) adlı tədqiqat mərkəzi, ASAN Xidmətin və Azercell şirkətinin fəaliyyətlərini aid etmək olar. 2011-ci ildə yaranmış CEDAWI mərkəzi Big Data (Böyük həcmli verilənlərin emalı) istiqamətində elmi tədqiqatlar aparmaq və ölkə daxilində Big Data ilə əlaqəli böyük konfranslar təşkil etməklə tanınırdı. ASAN Xidmət və Azercell şirkəti isə idarəetməsində müasir data elmi və süni intellekt üsullarının tətbiqinə hətta 2010-cu illərdən geniş yer verirdi. Bu ilkin Süni İntellekt və Data Elmi fəaliyyətləri daha sonra müxtəlif formada genişlənmiş və inkişaf etmişdir.

Lakin bütün bunlara baxmayaraq təəsüf ki,Azərbaycanda çox az sayda süni intellekt tətbiq edərək ev inşasi və dizaynı (o cümlədən interyer dizayn) edən şirkət mövcuddur.Baxmayaraq ki, onların sayı azdır, yaxın zamanlarda sayca artacağı ehtimal edilə bilər.

Süni intellektlə çalışan şirkətlərin sayı az olsada, onların digər şirkətlərlə olan müqayisəsini Cədvəl 1-də görmək mümkündür.

Cədvəl 1. Süni intellektlə çalışan dizayn şirkətləri və digərlərində qiymətlər

Ev ölçüsü	Qiyməti(adi şirkət)	Qiyməti (Sİ istifadə edən şirkət)
210 kv	94 min-100min azn	67.500 azn
157 kv	82-85 min azn	50.240 azn
60 kv	30min +	39.900 azn

Dizaynda süni intellektin (Sİ) istifadəsi səmərəliliyi artıra və bəzi hallarda xərcləri azalda bilər, lakin bu, bir çox amillərdən asılıdır. Məsələn, süni intellekt dizaynda müəyyən tapşırıqları avtomatlaşdırmaq üçün istifadə edilə bilər ki, bu da vaxta və resurslara qənaət edə bilər. Bununla belə, süni intellekt sistemlərinin inkişafı və tətbiqi tədqiqata, modelin hazırlanmasına və təlimə investisiya tələb edir ki, bu da ilkin kapital xərcləri tələb edə bilər.

Bundan əlavə, dizayn xidmətlərinin qiymətləri bölgədən, dizaynerlərin ixtisaslarından, layihələrin mürəkkəbliyindən və digər amillərdən asılı olaraq dəyişə bilər. Bəzi şirkətlər süni intellektdən istifadə edərək prosesin optimallaşdırılması səbəbindən daha sərfəli qiymətlər təklif edə bilər, digərləri isə xidmətlərini daha yüksək qiymətləndirə bilər.

Yadda saxlamaq lazımdır ki, dizayn həmişə yalnız qiymətə görə deyil, həm də keyfiyyət və orijinallığa görə qiymətləndirilir. Sİ-ni uğurla tətbiq edən dizayn firmaları müştərilər üçün dəyərli ola biləcək innovativ və yüksək keyfiyyətli həllər təqdim edə bilər.

NƏTICƏ

Əsas çətinliklərdən biri odur ki, bəzilərinə görə Sİ-nin bizim beynimizə bərabər və ya daha böyük inkişafı onlara daha sürətli işləmə imkanı verir və bununla yanaşı bəşəriyyət üçün neqativ nəticələr doğura bilər. Bunlarla bağlı “Matriks” və “Terminator” kimi apokaliptik si-li filmləri çəkilmişdir. Amma bu ehtimal Steven Houkinq (müasir dövrün ən məşhur və ən nüfuzlu fizik-nəzəriyyəçilərindən biridir. Hokinqin əsas tədqiqat sahəsi kosmologiya və kvant qravitasiyası ilə əlaqədardır) və Lütfizadə (dünya şöhrətli azərbaycanlı alim, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi) kimi alimlər tərəfindən soyuqqanlılıqla qarşılanır.

Hətta əgər robotlar bəşəriyyətin nəslini kəsməsə və yaxud bizi yaşayan batareyalara çevirməsələr belə, daha az dramatik amma yenə də kabus kimi bir ehtimal daha var ki, reallığa daha yaxındır. Bu əməyin avtomatlaşdırmasıdır. Əməyin avtomatlaşdırılmasının cəmiyyətdə dəyişiklik yaradacağı dəqiqdir, amma bilinmir ki, bu dəyişiklik yaxşıya, yoxsa pisə doğrudur.

Bu anlaşılan tələş keçən il Google, İBM, Microsoft, Facebook və Amazon kimi texno nəhənglərin bir yerdə Aİ partnyotluğu imzalamağa vadar etdi. Bu qrup Aİ-nin tətbiqlərini etikliyni həm müdafiə etməyi həm də tədqiq etməyi və gələcəkdə problemlərin yaranmaması üçün təlimat rəhbəri düzəltməyi öz boyunlarına götürmüşdür.

ƏDƏBİYYAT

https://data.edu.az/az/data-bloq/suni/

https://data.edu.az/az/data-bloq/suni-intellekt-haqqinda-bilmeli-oldugunuz-mifler/

https://habr.com/ru/articles/769002/

https://mpost.io/az/ai-room-planner-for-home-design-easy-to-use-tool-to-create-modern-designs-ideas/

https://www.digitalphablet.com/az/ai/best-apps-tools-ai-for-interior-design/

https://filearchive.cnews.ru/img/forum/2023/03/26/simonova.pdf

https://naukaru.ru/temp/3ad43d7ef6a94ead171e19f48049d9d9.pdf

https://misterwils.eu/artificial-intelligence-applied-to-interior-design-5-reasons-to-use-it/#:~:text=AI%20has%20also%20been%20used,and%20efficiency%20of%20the%20design

https://www.researchgate.net/publication/343160919_Application_of_AI_technology_in_interior_design

https://dzen.ru/a/ZAw76CjE9wSQ5YCr

https://tr.linkedin.com/pulse/s%C3%BCni-intellekt-elminin-t%C9%99tbiqinin-az%C9%99rbaycandak%C4%B1-m%C3%B6vcud-h%C3%BCseynli

https://tr.linkedin.com/pulse/s%C3%BCni-intellekt-elminin-t%C9%99tbiqinin-az%C9%99rbaycandak%C4%B1-m%C3%B6vcud-h%C3%BCseynli

44-DAY VICTORY HISTORY OF AZERBAİJAN

Abbasova Shahana Asgar gizi
Odlar Yurdu University, majoring in Ecology
Abbasova Sevinj Nazim gizi
Head teacher, Odlar Yurdu University, Faculty of Science and Technology

Summary

Azerbaijan ***i***s the only modern country that has managed to restore irs territorial integrity and sovereignty after 30 years of occupation. A new history of Azerbaijan was written with the "Iron Fist" operation. This victory was a clear confirmation of the military lower of the modern Azerbaijan state and the determination of the Azerbaijan people to victory. The grand victory parade hele on December 10, 2020 as a symbol of olur victory demonstrated the strength and organizasyon of the victorious Azerbaijan Army to the whole world. Dalğa waving in Shusha and ötür liberated areas were brought to Azadlig Square (Freedom Square) and waved as a symbol of victory. Prezident, Supreme Commander-in-Chief Ilham Aliyev's promise in a military parade in 2018 "The day will come and one day after the liberation of the occupied territories, the Azerbaijan flag will be raised and brought to Freedom Square and displayed in a military parade" has become a reality

Keywords: Victory Day, historic victory, victory parade, "Iron Fist", "War of truth".

AZƏRBAYCANIN 44 GÜNLÜK ZƏFƏR TARİXİ

Xülasə

Azərbaycan 30 illik işğaldan sonra ərazi bütövlüyünü, suverenliyini bərpa etməyi bacaran müasir dövrün yeganə ölkəsidir. "Dəmir yumruq" əməliyyatı ilə Azərbaycanın yeni tarixi yazıldı. Bu Zəfər müasir Azərbaycan dövlətinin hərbi qüdrətinin və xalqımızın qələbə əzminin əyani təsdiqi oldu. Qalibiyyətimizin rəmzi olaraq 2020-cu il 10 dekabr tarixində keçirilən möhtəşəm Zəfər paradı müzəffər Azərbaycan Ordusunun gücünü və qüdrətini bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi. Şuşada və işğaldan azad edilmiş digər ərazilərimizdə dalğalanan bayraqlar Azadlıq meydanına gətirildi və qələbə simvolu kimi dalğalandı. Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin 2018-ci ildə keçirilmiş hərbi paradda "Gün gələcək və bugün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldıracaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək" vədi reallığa çevrildi.

Açar sözlər: Zəfər Günü, tarixi qələbə, "Dəmir Yumruq ", Zəfər Paradı.

Özet

Azerbaycan, 30 yıllık işgalin ardından modern çağın toprak bütünlüğünü ve egemenliğini yeniden sağlamayı başaran tek ülkesidir. "Demir Yumruk" operasyonuyla Azerbaycan'ın yeni tarihi yazıldı. Bu Zafer, modern Azerbaycan devletinin askeri gücünün ve Azerbaycan halkının kazanma kararlılığının açık bir teyidiydi. Zaferimizin simgesi olarak 10 Aralık 2020 tarihinde düzenlenen muhteşem Zafer Geçidi, muzaffer Azerbaycan Ordusunun gücünü ve kudretini tüm dünyaya gösterişli bir şekilde göstermiştir. Şuşa ve işgalden kurtarılan diğer bölgelerde dalgalanan bayraklar, Azadlık Meydanı'na getirilerek zaferin simgesi olarak dalgalandırıldı. Cumhurbaşkanı, Başkomutan Sayın İlham Aliyev'in 2018 yılında düzenlenen askeri geçit töreninde verdiği söz: "Gün gelecek ve bugün işgal altındaki toprakların kurtarılmasının ardından orada çekilen Azerbaycan bayrağı Azadlık'a Meydanına getirilecek ve askeri geçit töreninde sergilenecek" sözü gerçek oldu.

Anahtar Kelimeler: Zafer Bayramı, tarihi zafer, "Demir Yumruk", Zafer Geçidi.

Əsas

Bildiyimiz kimi, 1990-1993-cü illərdə xəyanət və xəyanətə bərabər olan məsuliyyətsizlik bütünlüklə Azərbaycanın gələcək taleyi üçün mühüm əhəmiyyətə malik Qarabağı düşmənə təslim etdi. O gündən bu günə kimi bütün Azərbaycan xalqının gözü yaşlı idi. 30 il danışıqlar masası arxasında Ali Baş Komandanımızın iştirakı ilə keçirilən danışıqlar heç bir fayda vermədi. Ancaq Azərbaycan xalqı yenə də səbr etdi.

Mən də yurdundan ayrı düşmüş Qarabağ övladıyam. Doğma yurdumuzu görməsəm də, həsrəti ilə böyümüşəm. Qarabağlı övladı olaraq hər zaman valideynlərimdən yurdumuzun gözəlliyi, əsrarəngizliyi ilə yanaşı bəzi qəbul edilməz səbəblərə görə müvəqqəti olaraq ailəmin və digər qarabağlıların yurdundan uzaq düşməsi haqqında çox eşitmişəm. Bir zamanlar Qarabağ mövzusu açılan da hər birimiz ancaq kədərlənirdik, indi isə həm də sevinirik. Çünki Qarabağa qovuşmuşuq.

Azərbaycan xalqı hər zaman tarixi faktlara əsaslanaraq bu həqiqəti-Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu sübut edib və həmişə də edəcəkdir!

2020-ci il 27 sentyabrdan başlanan bu hadisələr tarixə qızıl hərflərlə yazıldı. Bu döyüşlərdə vətənimiz xeyli az itki ilə böyük irəliləyişə imza atdı. Başlanğıcda bir sıra kəndləri və strateji körpüləri işğaldan azad etdikdən sonra davam edən müharibə ərzində4 4 oktyabr Cəbrayıl, 17 oktyabr Füzuli, 20 oktyabr Zəngilan, 25 oktyabr Qubadlı və 8 noyabr Şuşa şəhəri işğaldan azad edildi. Azərbaycan Prezidenti cənab İlham Əliyev xalqa Şuşanın azad edilməsi müjdəsini verməsini həyatında ən xoşbəxt günlərindən biri olduğunu bildirir:

"Mən bu gün eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, xoşbəxt adamam ki ata vəziyyətini yerinə yetirdim. Şuşanı Azad etdik! Bu böyük qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözün aydın oldun dünya azərbaycanlıları!

Bu sevincli xəbərdən sonra 9 noyabr illərdir həsrətində olduğumuz doğma yurdumuzun Laçın rayonu Güləbird kəndinin müjdəli xəbərini Ali Baş Komandanımızın bizə çatdıraraq yaddaşımızda silinməz bir iz qoydu.

Daha sonra Moskvada imzalanan müqaviləyə əsasən noyabrın 10-u saat 01:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və hərbi əməliyyatların tam olaraq dayandırılması qərara alındı. Və bununla da müqavilə yolu ilə 2020-ci il 20 noyabrında Ağdam, 25 noyabr Kəlbəcər, 1dekabr isə doğma Laçınımız işğaldan azad edildi. Bəli, Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, rəşadət nümunəsi göstərdi.

Möhtəşəm qələbə əldə edən Azərbaycan Ordusunu istər yerli, istərsə də xarici hərbi ekspertlər tərəfindən səsləndirilən fikirlərə görə tanksız, topsuz, artilleriyasız, göydə pilotsuz, *kamikadzelərin müşayiəti olmadan 1500-1800 metr yüksəkliklərdə döyüşlər apararaq bu qala şəhərinə daxil olmuşdurlar. Bu isə Azərbaycan Silahlı Qüvvələrinin hərbi taktikasının heyrətamiz uğurundan xəbər verirdi.

***kamikadze-** “ilahi külək (kami- “ilahi”, kadze-“külək”).

Şəhidin çiyinlərində, yaralını qollarında döyüşə-döyüşə, qan-tər içində nəfəsini belə dərmədən qalxırdı Şuşaya doğru Azərbaycan əsgəri...

Düşmənin 30il ərzində qurduğu milyonlarla vəsait sərf etdiyi istehkamlar qısa müddətdə darmadağın edildi. Müzəffər Ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərbi tarixinə yeni örnək oldu. Belə vəziyyətdə isə ermənilərin qarşısında yalnız iki yoldan birini seçmək qalırdı.

Ya Ermənistan ordusu döyüş meydanında son nəfəsinə qədər məhv ediləcəkdir, ya da “ağ bayraq” qaldırıb məğlubiyyətini etiraf edəcəkdir. Nəhayət ki, Paşinyan hakimiyyəti reallığı qəbul etdi və noyabrın 10-da Ermənistan “ağ bayraq” qaldırdı. Bununla da *kaputilyasiya bəyannaməsi imzalanması əvəzedilməz bir günə çevrildi

Məhz o gündən cənab prezident İlham Əliyev Azərbaycan Respublikasında “Zəfər Günü”nün təsis edilməsi haqqında sərəncam imzaladı. Bu sərəncama əsasən hər il 8 noyabr Azərbaycan tarixində “Zəfər Günü” kimi qeyd olunacaqdır. Bu gün həmin gündür, Azərbaycan xalqının tarixin ən şanslı, şərəfli və qürurverici anlarını yaşadığı gündür. Bir milyondan artıq insana 30 ilədək bir müddətdə köçkünlük acısı yaşadan, dədə-baba torpaqlarımıza işğal yolu ilə sahiblənib sərvətini mənimsəyən Ermənistan haqq savaşında məğlub oldu! Böyükdən kiçiyə hər kəs bu müjdənin bəxş etdiyi sevinci yaşadı, paylaşdı və paylaşmağa davam edir. Bu qələbə xalqın və haqqın qələbəsidir! Bu qələbəni dəyərləndirmək üçün Ali Baş Komandanımız dekabrın 10-da Bakıda, Azadlıq meydanında “Zəfər Paradı”nın keçirilməsi haqqında tapşırıq verdi. Bu parad qalib ordunun qalıb sərkərdə qarşısında keçidi oldu. Vətən müharibəsi iştirakçısı, polkovnik Abdulla Qurbanovun aparıcılıq etdiyi Zəfər Paradı Azərbaycan və Türkiyə dövlət başçılarının çıxışı ilə başladı. Paradda iştirak etmək üçün Bakıya gələn qardaş ölkə Türkiyə prezidenti cənab Rəcəb Tayyib Ərdoğan möhtəşəm hərbi paradı qürur və sevinc hissləri ilə seyr etmişdi. Onun etdiyi çıxış bütün dünyaya Azərbaycan Türkiyə qardaşlığını və Ordumuzun qüdrətini bir daha diktə etdi:

-Artıq Azərbaycan torpağı illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı Bülbül artıq azaddır və daha gözəl açacaqdır. Araz nəğməsini daha güclü oxuyacaqdır.

Arazı ayırdılar,

Lil ilə doyurdular

. Mən səndən ayrılmazdım

Zülm ilə ayırdılar.

. Ay Laçın, can Laçın,

Mən sənə qurban Laçın.

Paradda 3min Azərbaycan -Türk əsgər və zabitləri iştirak etmiş, düşmənin canına qorxu salan pilotsuz uçuş aparatları olan PUA-larımız və ermənilərdən qənimət kimi alınan hərbi texnikalar nümayiş olunmuşdu.

***kaputilyasiya -** (lat.-capitulare-məlum bəndələrə əsasən razılığa gəlmək)

Bu parad düşmən ölkənin erməni tankları Bakıya qədər gələcəyi arzusunu da həyata keçirmiş oldu. Belə ki, həmin tanklar məğlub ölkənin tankları, müzəffər Azərbaycan Ordusunun isə hərbi qəniməti kimi Bakıya gətirildi və hər kəsə nümayiş etdirilərək dosta qürur, düşmənə göz dağı oldu.

Bu ermənilərə və erməni tərəfdarlarına mesaj olaraq Azərbaycana qarşı atdıqları hər addımda xeyli düşünmələrinin gərəkdiyini göstərdi. Zəfər Paradı Azərbaycan Ordusunun gücü barəsində şübhəsi olan və ya özlüyündə bunu qəbul edə bilməyən hər kəsə hələ uzun illər yetəcək cavab oldu.

Bu qürur verici səhnələrin arxasında isə bir ömür boyu borclu olduğumuz qəhrəman şəhidlərimiz, qazilərimiz, əsgərlərimiz dayanır. Şəhidlərimizi dərin hörmət və ehtiramla anırıq. Müqəddəs ruhları qarşısında baş əyirik.,

Yaşasın Müzəffər Azərbaycan Ordusu!

Yaşasın Ali Baş Komandan!

44 günlük haqq savaşımız tarix boyu qürur mənbəyimiz olaraq qalacaq!

Nəticə

Beləliklə, Azərbaycan Respublikası prezidenti cənab Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Şanlı Azərbaycan Ordusu ərazi bütövlüyümüzün bərpa edilməsi uğrunda 44 gün ərzində apardığı "Vətən Müharibəsini" parlaq qələbə ilə yekunlaşdırdı. Bu müddət ərzində bütün dünya Azərbaycan prezidenti müzəffər Ali Baş Komandan İlham Əliyevin sarsılmaz iradəsinin, xalqın birliyinin, ordumuzun qüdrətinin şahidi oldu.30 ildə etdikləri səhvi başa düşməyən düşmənlərimizə 44 gündə çox şeyi başa saldı qəhrəman Əsgərlərimiz. Zəfər Paradı Azərbaycan xalqı üçün qürur, şərəf, ləyaqət simvolu ermənilər üçün isə məğlubiyyət, işğal siyasətinin acı ibrət dərsi olacağını tarixiləşdirdi.

Ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında: Azərbaycan Respublikasının Prezidentinin sərəncamı, 2 dekabr 2020-ci il
2. Zəfər salnaməsi/ YAD Bakı: Şərq-qərb, 2021
3. Bəxtiyar Sadıqov "Xilaskar İlham Əliyev" Bakı-2021
4. " 8 noyabr- Zəfər Günü" Azərbaycan Milli Kitabxanası Bakı-2021
5. Zəfər salnaməsi 44 günü. "Bakı Maarif" 2021

STROKE - AS A RESULT OF ACUTE DISRUPTION OF CEREBRAL BLOOD CIRCULATION

Münəvvər SƏFƏROVA
Odlar Yurdu Universiteti, Təbiət və texnologiya fakültəsi
Banu ƏMƏNULLAYEVA
Odlar Yurdu Universiteti, Təbiət və texnologiya fakültəsi

Abstract

Stroke is characterized by the occurrence of focal damage in the brain as a result of acute disruption of cerebral blood circulation. It can be ischemic or hemorrhagic. Ischemic stroke: This is a type of stroke caused by focal damage to the brain due to lack of blood supply. This syndrome is characterized by an acute development of neurological symptoms lasting more than 24 hours or leading to death within a day. If focal neurological deficit caused by acute cerebral ischemia or monocular deterioration of vision caused by retinal ischemia (amaurosis fugax) resolves within 24 hours, this syndrome is classified as transient ischemic attack (TIA). It can be said that 85% of strokes are ischemic strokes.

Hemorrhagic stroke: This type occurs when blood leaks into the brain from a blood vessel in the brain. The incidence of the disease is lower than that of ischemic stroke. However, 30% of deaths due to stroke are caused by this type.

Stroke treatment is one of the diseases that should be done as soon as possible. Because brain tissue damage begins when a cerebral artery is blocked. This damage expands while you wait to treat it. Brain damage increases when the blocked vessel is large and treatment time is prolonged. Opening the occluded vessel in a short period of time prevents all this and prevents the expansion of the damage in the brain tissue. The more limited the damage to the brain tissue caused by a stroke, the quicker and faster recovery they will have.

Every year, 17 million people have a stroke worldwide and 6 million people die from it. Unfortunately, the situation is not different in our country.

In order to raise awareness of this common disease group and draw attention to the improvement of preventive and therapeutic conditions, May 10 was declared "Stroke Awareness Day" by the World Stroke Organization (WSO), and October 29 "World Stroke Day".

The presented article provides general information about stroke and its types, the causes and risk factors of stroke, preventive measures against stroke. Also, brief information about the measures taken at the global level to restore the health of people who have had a stroke is one of the main issues in the article.

Key words: stroke, pressure, vascular, blood, brain, recovery.

Özet

İnsult-beyin qan dövranının kəskin pozulması nəticəsində baş beyində ocaqlı zədələnmənin yaranması ilə xarakterizə olunur. İşemik və ya hemorragik xarakter daşıya bilər. **İşemik insult:** Bu qan təchizatının çatışmazlığı nəticəsində beynin ocaqlı (fokal) zədələnməsindən əmələ gələn insult növüdür. Bu sindrom 24 saatdan çox çəkən və ya bir sutka ərzində ölümə gətirib çıxaran nevroloji simptomların kəskin inkişafı ilə xarakterizə olunur. Kəskin serebral işemiya nəticəsində yaranan ocaqlı nevroloji defisit və ya retinal işemiya nəticəsində yaranan görmənin monokulyar pisləşməsi (amaurosis fugax) 24 saat ərzində tam keçib gedirsə, bu sindrom tranzitor işemik həmlə (TİH) kimi təsnifata daxil edilir. Onu demək olar ki, insultların 85%-i işemik insultlardır.

Hemorragik insult**:** Bu növ beyindəki qan damarından beyinə qan sızdıqda meydana gəlir. Xəstəliyin rast gəlinmə faizi işemik insultdan daha azdır. Ancaq buna baxmayaraq insult nəticəsində ölümlərin 30%-i bu növdən qaynaqlanır.

İnsult müalicəsi ən qısa müddətdə edilməli olan xəstəliklərdəndir. Çünki, beyin damarı tıxandıqda beyin toxumasına ziyan başlayır. Bu zərər müalicə etməyi gözlədiyiniz müddətdə genişlənir. Tıxanmış damar böyük olduqda və müalicə müddəti uzandıqda beyin zədələnməsi daha da artır. Tıxanan damarın qısa müddətdə açılması bütün bunların qarşısını alır və beyin toxumasındakı ziyanın genişlənməsinin qarşısını alır. İnsult nəticəsində beyin toxumasına dəyən ziyan nə qədər çox məhdudlaşdırılarsa, o qədər tez və daha sürətli bərpa əldə edilər.

Dünyada ildə 17 milyon insan insult keçirir və 6 milyon insan insult səbəbindən ölür. Təəssüf ki, ölkəmizdə də vəziyyət fərqli deyil.

Bu ümumi xəstəlik qrupundakı məlumatlılığı artırmaq və profilaktik və terapevtik şəraitin yaxşılaşdırılmasına diqqət çəkmək üçün 10 May Ümumdünya İnsult Təşkilatı (ÜSO) tərəfindən "İnsül Şüurlandırma Günü", 29 Oktyabr isə "Ümumdünya İnsül Günü" elan edildi.

Təqdim olunan məqalədə insult və onun növləri barədə, insultun yaranma səbəbləri və risk faktorları, insulta qarşı aparılan profilaktik tədbirlər haqqında ümumi məlumatlar verilir. Həmçinin insult keçirmiş insanların sağlamlığının bərpası istiqamətində Ümumdünya səviyyəsində aparılan tədbirlər haqqında qısa məlumatlar məqalədə əsas diqqət yetirilən məsələlərdəndir.

Açar sözlər: insult, təzyiq, damar, qan, beyin, bərpa.

Giriş

İnsult beyin qan dövranının kəskin pozulması nəticəsində baş beyində ocaqlı zədələnmənin yaranması ilə xarakterizə olunur. İnsult əksər hallarda bədənin sağ və ya sol yarısında ətraflarda qəfil zəiflik, huşun, nitq və görmənin pozulması, üzün asimmetriyası, başgicəllənmə ilə təzahür edilir. Bəzən beyin hücumu adlanan insult, beynin bir hissəsinə qan tədarükünə maneə törədildikdə və ya beyin damarı qırıldıqda baş verir. Hər iki halda beynin hissələri zədələnir və ya hüceyrələrin ölümü ilə nəticələnir. İnsult uzunmüddətli beyin zədələnməsinə uzunmüddətli əlilliyə və hətta ölümə səbəb ola bilər. Beyin hərəkətlərimizi idarə edir, yaddaşımızı qoruyur, düşüncələrimizin, nitqimizin və duyğularımızın ifadə olunmasını təmin edir. Beynin düzgün fəaliyyət yerinə yetirməsi üçün oksigenə ehtiyacı var. Arteriyalar beynin bütün hissələrinə

oksigen daşıyır. Əgər qan axınının qarşısı alınarsa, beynin hüceyrələri oksigenlə təhciz olunmadıqları üçün bir neçə dəqiqə ərzində ölməyə başlayır və bu da insulta səbəb olur. İnsultun 2 tipi fərqləndirilir: 1) işemik insult; 2) hemorragik insult. Onlar fərqli inkşaf mexanizminə və müalicə sxeminə malikdir. İşemik insult ən çox rast gəlinən insult növüdür. Adətən, bir neçə saniyə və ya dəqiqə ərzində (bəzi hallarda bir neçə saat və ya gün ərzində) inkşaf edir. Beyində qan damarı bloklandıqda və ya daraldıqda baş verir və beyində qan təchizatı pozulur. İşemik insult çox zaman arteriyadaxili trombun böyüməsi, təkrar emoboliyalar, beyin ödəminin artması, infarktın hemorragik transformasiyası və ya sistemli arterial təzyiqin aşağı düşməsi nəticəsində ölçülərin böyüməsi səbəbindən yaranır. Beyin kötüyü, beyincik infraktları yaxud yayılmış yarım kürə infarktları istisna olmaqla adətən huş pozulması, intensiv baş ağrıları və qusma ilə müşahidə olunmur. İnsultun ilk günlərində xəstələrin 70-80%-də AT-in yüksəlməsi müşahidə olunur. Sonradan onların çoxunda təzyiqin spontan düşməsi qeydə alınır. AT-in tranzistor yüksəlməsi baş beyin ödemi, KDT yüksəlməsi həmçinin ağır xəstəliyin baş verməsi və təcili hospitalizasiya ilə bağlı keçirilən stresslə əlaqadar ola bilər. Qəfil qanaxma hemorragik insulta səbəb ola bilər. Bu beynin içində və ya üstündəki arteriyanın açıq şəkildə qırılması səbəbi ilə baş verir. Sızan qan beynin şişməsi ilə beyində təzyiqi yüksəldir ki, bu da beynin hüceyrələrinə zərər verə bilər. Xəstəliyin rast gəlmə faizi işemik insultdan daha azdır. Lakin buna baxmayaraq insult nəticəsində ölənlərin 30%-i bu növdən qaynaqlanır. Hemorragik insult üçün əsas xarakterik xususiyyət hipertoniya (yüksək qan təzyiqidir). Bundan əlavə anevrizma, travmalar, qanaxmalar və digər qan damar xəstəlikləri hemarragik insulta səbəb ola bilər. Qansızma, kəskin baş ağrısı, qusma, başgicəllənmə, ürəkbulanma, ocaqlı əlamətlərin sürətli inkşafı ilə müşayiət olunur. Bunun ardından xəstənin huşu proqressiv şəkildə pozulur (mülayim kütləşmədən komatoz vəziyyətə qədər). Subkortikal qansızmaların başlanğıc dövründə epileptik tutmalar müşahidə oluna bilər. Hemorragik insultu işemik insultdan fərqləndirən xusisiyyəti hemorragik insult baş beyin KT-də dərhal görsənir amma işemik insult 3 gün ərzində yəni ocaq tam formalaşdıqda görsənir. Tranzitor İşemik Həmlə tranzitor işemik hücum olaraq da adlandırılır. Xəstəliyin klinik simptomları qəfildən baş verir. Bir neçə saniyə və ya 1-2 dəqiqəyə maksimal həddə çatır və 10-15 dəqiqəyə, nadir hallarda, bir neçə saat çəkir. Beyinə qan axınının müvəqqəti kəsilməsidir. Baş beynin bir hissəsinə qan axınının bloklanması nəticəsində baş verir. Baş beynin ocaqlı zədələnmə simptomları müxtəlifdir və beyin işemiyasının korotid və ya bazilyar hövzədə lokallaşması ilə müəyyənləşdirilir, ümumi beyin simptomları nadir müşahidə olunur. İlk başlanğıcda TİH-in klinik mənzərəsi işemik insultun mənzərəsinə uyğundur. Tranzitor işemik həmlənin simptomları:

• Qəflətən yaranan, bədənin bir hissəsində üzün, yuxarı ətrafın və ya aşağı ətrafın keylik, və ya zəifliyi

• Qəflətən yaranan sensor və ya motor afaziya

• Qəflətən yaranan bir və ya hər iki gözdə görmə qabilliyətinin pozulması

• Qəflətən yaranan yeriş pozğunluğu, baş gicəllənmə, koordinasion pozğunluq

• Qəflətən yaranan, məlum səbəbi olmayan kəskin baş ağrısı.

TİH tez -tez təkrər oluna və ya bir iki dəfə baş verə bilər. TİH keçirmiş xəstələrin 30-40%-də sonrakı 5 il ərzində insult inkşaf edə bilər. Hər il 800 minə yaxın amerikalı insult keçirir, təxminən 600 min nəfəri isə ilk dəfə insult keçirmiş olur. İnsult bütün yaş qruplarında, hər iki cinsdə və hər ölkədə bütün irqlərdə baş verir.Bir dəfə insult keçirdikdən sonra yenidın keçirmək

riski artır. Lakin insult üçün bəzi risk faktorları yalnız qadınlara aiddir. Bu amillər həyatın müxtəlif mərhələlərində olan qadınlara təsir edən hormonal dəyişikliklərlə bağlıdır.

2016-cı ilin avqustunda "The Lancet'' qəzetində dərc olunan "Böyük beynəlxalq tədqiqat"ın ikinci hissəsində insult risklərinin təxminən 90 faizinin bizim nəzarətimiz altında olduğu müəyyən olunmuşdur. 32 ölkənin tədqiqatçıları 10 dəyişdirilə bilən risk faktorunu və onların faizini müəyyən etmişdilər. Yüksək qan təzyiqi(48%) insultun başlıca səbəblərindən biridir. Şəkərli diabet(4%) beyin qan damarlarını zədələyir insult riskini artırır. Piylənmə(19%). Siqaret çəkmək (6%). Bundan əlavə narkotiklərin istifadəsi də insulta gətirib çıxara bilər. Narkotik də qan damarlarının zədələnməsinə və hətta parçalanmasına və beyinə qan sızmasına (hemorragik insult) səbəb olur. Fiziki hərəkət azlığı (36%). Yüksək qan xolesterini. Ürək xəstəlikləri(9%). Psixoloji pozğunluqlar(17%). Spirtli içkilərin istfadəsi-(6%). İnsanın yaşı-insult hər yaşda baş verə bilər lakin 55 yaşından sonra insult riski hər 10 ilə ikiqat artır.

İşemik insultun klinik təzahürləri müxtəlifdir və hansı arterial hövzədə olmasından aslıdır. Ümumi klinik əlamətlər göstərilənlər ola bilər: bədənin hər hansı hissəsində xüsusən də sifət, əl və ayaq daxil olmaqla bədənin bir tərəfində hərəkətin və ya hissiyyatın pozulması, görmənin zəifləməsi, nitqin aydınlığının pozulması, hərəkətlərin koordinasiyasının pozulması, baş gicəllənməsi, udma aktının pozulması, qıcolma tutmaları, yaddaşın, tanıma qabilliyətinin pozulması, şüurun pozulması. İnsultun baş verdiyini tez anlıyıb tez bir zamanda xəstəxanaya çatdırılmasının xəstə üçün çox böyük əhəmiyyəti var. Bu səbəbdən bütün dünyada BE FAST sindromu öyrənilir.

-B(balans)-tarazlıq və yerişin pozulması;

-E(eye)-görmə pozulması;

-F(face)-üzün və ya ağız bucağının əyilməsi;

-A(arm)-xəstənin əlində və ayağında (yaxud yalnız əldə yalnız ayaqda) qəflətən yaranan zəiflik və ya hərəkətsizlik;

-S(speech)-nitqin aydınlığının pozuılması və ya olmaması;

-T(time)-dərhal vaxt itirmədən təcili yardıma müraciət etmək.

Hər 40 saniyədən bir ABŞ-da kimsə insult keçirir. Hər 3 dəqiqə 14 saniyədən bir kimsə insultdan ölür. Təxminən 185 000 insult xəstəsi yəni hər 4 nəfərdən biri əvvəllər insult keçirmiş insanlardır. CDC (Centers For Disease Control And Prevention)-Xəstəliklərin kontrol və qarşısının alınması mərkəzləri- ABŞ-ın milli ictimai səhiyyə agentliyi Səhiyyə və İnsan Hüquqları Departamenti nəzdində Birləşmiş Ştatların federal agentliyidir və Mərkəzi Qərargahı Corciya ştatında Atlanta şəhərində yerləşir. CDC və onun əməkdaşları insult nəticəsində ölüm və əlillik hallarının azaldılması və qadınların daha uzun daha sağlam həyat sürməsinə kömək etmək üçün təşəbbüs və proqramlara rəhbərlik edir. CDC-nin Ürək Xəstəlikləri və İnsultun Qarşısının Alınması üzrə Bölməsi(DHDSP) ürək xəstəlikləri və insultu aradan qaldırmaq üçün bütün 50 ştata resurslar təqdim edir. "WISEWOMAN" proqramı ürək xəstəlikləri və insultların qarşısının alınması məqsədi ilə aşağı gəlirli, sığortalanmamış xroniki xəstəlik riski faktorunun müayinəsi, həyat tərzi proqramları, referral xidmətlər təqdim edir. Paul Coverdell Milli Acute Stroke Proqramı – insult xəstələrinə qulluq keyfiyyətini ölçmək, izləmək və yaxşılaşdərmaq üçün vəsait təmin edir. Milyon Ürəklər -hansı ki CDC və Medicare Medicaid Services -in birgə rəhbərliyi altında digər federal agentliklər və özəl sektorun əməkdaşları ilə birlikdə insult və ürək xəstəlikləri haqqında məlumatlılığı artırmaq, hücum və insultların qarşısını almaq üçün

çalışır. Bundan əlavə Milli Nevroloji Pozuntular və İnsult İnstitunun (NİNDS) missiyası beyin və sinir sistemi haqqında fundamental biliklər axtarmaq və bu bilikləri nevroloji xəstəliklərin yükünü azaltmaq üçün istifadə etməkdir. NİNDS-Milli Səhiyyə İnstitutun (NİH) tərkib hissəsi, dünyada biomühəndislik tədqiqatlarının aparıcı dəstəkçisidir. İnstitut insultun qarşısının alınması diaqnostikası və müalicəsinin daha yaxşı yollarını tapmaq, insult səbəbindən itirilmiş funksiyaları bərpa etmək məqsədilə geniş miqyaslı əsas və klinik tədqiqatların aparılmasına sponsorluq edir. NİNDS-in dəstəklədiyi alimlər insultun yeni və daha effektiv müalicə üsullarını hazırlamağa, iflicdən sonra beyinə qan axınını bərpa etməyin yollarını kəşf etməyə, iflicdən sonra beyin hüceyrələrini ölümdən qorumağa çalışır. Alimlər həmçinin insultun risk faktorlarını daha dərindən araşdırır və insultun qarşısının alınmasının yeni metodları kəşf edir, reablitasiya və insultdan sonrakı sağalmanın yaxşılaşdırılması yollarını araşdır. Təbii ki insan cinsini irqini və yaşını dəyişə bilmədiyi üçün insulta tutulma ehtimalı var. Lakin həyat tərzimizə diqqət etsək bu ehtimalı minimuma endirə bilərik.Belə ki, sağlam qidalanmaq, zərərli vərdişlərdən uzaq durmaq, fiziki hərəkət aktivliyini qorumaq lazımdır.

INFLUENCE OF MICROBES ON THE ENVIRONMENT

Nigar Səmədova
Odlar Yurdu Universiteti ,Mikrabiologiya ixtisası
Tamilla KƏRİMOVA
a.ü.f.d., dos., Odlar Yurdu Universiteti,Təbiət və Texnologiya Fakultəsi

Abstract

The problem of pollution of rivers and lakes (that is, fresh water resources) in the world is a major problem both globally and regionally. Araz River is the second largest river in Azerbaijan and the largest tributary of the Kura River.Although the Kura River is very polluted in these regions, it provides drinking and agricultural water to a large part of the population of Azerbaijan (75%).XXI. It is a known fact that water and water-based issues are important in the 21st century. In this regard, it seems that countries need to re-evaluate their water resources in terms of using the existing water resources in their geography while determining their foreign policy steps. The use and protection of water resources of the Kura-Araz river basin (hereinafter referred to as the basin) belongs to all South Caucasus countries, since the rivers forming the basin pass through the territory of each state of Azerbaijan, Armenia, Georgia. and as a result, they are exposed to all kinds of pollution. Azerbaijan has ratified the Helsinki Convention "On the Protection and Use of Transboundary Watercourses and International Lakes" to solve the problem of transboundary river pollution. Georgia and Armenia did not participate in this document. The Ministry of Ecology and Natural Resources of Azerbaijan regularly inspects the water in the Kur and Araz (Araks) rivers, and it has always been known that these rivers flow pollutedly from Georgia and Armenia to Azerbaijan. Get clean water in the upper reaches of Kur and Araz, those who do not know Azerbaijan cleans its own rivers. Avazova stated that 17 monitoring stations operate regularly in Kura, and there are devices in Araz that provide accurate information to the state about the water quality in Kura and Araz.It is understood from what has been said that Azerbaijan attaches great importance to cleaning the state waters from chemical, domestic and industrial wastes to the maximum level and making them available for the use of civilians, agricultural and industrial facilities. This causes the water we drink and use to be beneficial to human health instead of being harmful

Key words: Kura-Araz River, ecological problems, ecological problems of water, pollution of rivers.

KÜR ARAZ ÇAYININ SUYUNUN EKOLOJİ PROBLEMLƏRİ

Özet

Dünyada çayların və göllərin (yəni şirin su ehtiyatlarının) çirklənməsi problemi həm qlobal, həm də regional miqyasda əsas problemdir.
Araz çayı Azərbaycanın ikinci ən böyük çayıdır və Kür çayının ən böyük qoludur.
Kür çayı bu rayonlarda çox çirkli olsa da, Azərbaycan əhalisinin böyük bir hissəsini (75%) içməli və kənd təsərrüfatı suyu ilə təmin edir.Məlumdur ki, son dövrlərdə Aran (Kür-Araz) düzündə bir çox göllərin su səviyyəsi təsərrüfat fəaliyyəti nəticəsində dəyişmişdir.
Məlum bir həqiqətdir ki, XXI əsrdə su və su əsaslı məsələlər əhəmiyyət kəsb edir. Bu istiqamətdə ölkələrin xarici siyasət addımlarını təyin edərkən öz coğrafiyalarında mövcud su ehtiyatlarından istifadə baxımından su ehtiyatlarını yenidən qiymətləndirməli olduğu görülür.

Kür-Araz çayı hövzəsinin (bundan sonra hövzə) su ehtiyatlarının istifadəsi və mühafizəsi bütün Cənubi Qafqaz ölkələrinə aiddir, çünki hövzəni təşkil edən çaylar hər Azərbaycan, Ermənistan, Gürcüstan dövlətlərinin ərazisindən keçir və bunun nəticəsində hər cür çirklənmələrə məruz qalır.Transsərhəd çayların çirklənməsi problemlərinin həlli üçün Azərbaycan "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında" Helsinki Konvensiyasını ratifikasiya edib. Gürcüstan və Ermənistan bu sənədə qoşulmayıb.Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi Kür və Araz (Araks) çaylarında mütəmadi olaraq suların monitorinqini aparır və hər zaman məlum olur ki, bu çaylar Azərbaycana Gürcüstandan və Ermənistandan çirkli şəkildə axır.Kürün və Arazın yuxarı axarında təmiz su ala bilməyən Azərbaycan öz çaylarını özü təmizləyir. Avazova yekunlaşdırıb ki, Kürdə 17 monitorinq məntəqəsi mütəmadi olaraq fəaliyyət göstərir, Arazda da Kür və Arazda suyun keyfiyyəti barədə dövlətə dəqiq məlumat verən qurğular var
Bütün deyilənlərdən aydın olur ki, Azərbaycan dövlətinin istifadəyə verilən sularında kimyasal, məişət və sənayə tullantılarından maksiumum səviyyədə təmizləyərək mülki əhalinin, kənd təsərüffatının və sənaye qurğularının istifadəsinə verməyə böyük diqqətlə yanaşır. Buda içdiyimiz və istifadə etdiyimiz suların insan sağlamlığı üçün zərərli deyil, faydalı olmasına səbəb olur

Açar sözlər: Kür-Araz çayı, ekoloji problemlər, suyun ekoloji problemləri,çayların çirklənməsi.

USE OF MICROORGANISMS IN THE PRODUCTION OF MEAT PRODUCTS

Qəribova Gülşən
Odlar Yurdu Universiteti, Biologiya ixtisası
Tamilla KƏRİMOVA
b.ü.f.d., dos., Odlar Yurdu Universiteti, Təbiət və Texnologiya Fakultəsi

Abstract

Microorganisms with probiotic properties, which form the normal microflora of the gastrointestinal tract, have a special place among the components that determine the functional properties of food products. This is one of the determining factors in the importance of food products with probiotic properties. As it is known, meat and meat products have an important place in the nutrition of the society, but the selection of meat products with probiotic properties is limited due to the lack of sufficient information about the antagonism of the effect of probiotic cultures in raw meat containing various foods. contents. Development of objective criteria to evaluate the properties of probiotics. It creates the opportunity for technological use in the production of meat products based on the examination of the physiological and biochemical properties of microorganisms. Propionic acid bacteria and bifidobacteria attract great attention in terms of probiotic properties of microorganisms.

.

Key words: Meat product, microorganisms, bacteria, enzyme preparations, non-protein products.

ƏT MƏHSULLARININ İSTEHSALINDA MİKROORQANİZMLƏRDƏN İSTİFADƏ

Özet

Qida məhsullarının funksional xassələrini müəyyən edən inqrediyentlər arasında mədə-bağırsaq traktının normal mikroflorasını təşkil edən probiotik xüsusiyyətlərə malik mikroorqanizmlər xüsusi yer tutur. Bu, probiotik xüsusiyyətlərə malik qida məhsullarının əhəmiyyətinin formalaşmasında həlledici amillərdən biridir. Məlum olduğu kimi, əhalinin qida rasionunda ət və ət məhsulları mühüm yer tutur və tərkibində müxtəlif qida inqrediyentləri olan çiy ətdə probiotik kulturaların təsirinin antaqonizmi haqqında kifayət qədər məlumat olmaması səbəbindən probiotik xüsusiyyətləri olan ət məhsullarının seçimi məhduddur. Probiyotiklərin xassələrinin qiymətləndirilməsi üçün obyektiv meyarların hazırlanması. mikroorqanizmlərin fizioloji, biokimyəvi xüsusiyyətlərinin öyrənilməsinə əsaslanaraq ət məhsullarının istehsalında texnoloji istifadə imkanı yaradır. Mikroorqanizmlərin probiotik xüsusiyyətləri baxımından propion turşusu bakteriyaları və bifidobakteriyalar böyük maraq doğurur.

Açar sözlər: Ət məhsulu, mikroorqanizimlər, bakteriyalar, ferment preparatlar, qeyri-zülal məhsullar.

Məlumdur ki, mikroorqanizmlərin karbohidrat mübadiləsi nəticəsində aromanın əmələ

gəlməsində çox mühüm rol oynayan məhsullar əmələ gəlir. Süd turşusu ilə birlikdə əmələ gələn piruvik turşu, sirkə turşusu, etil spirti, aseton və digər maddələr xammala, sonra isə ət məhsuluna uzunmüddətli dad və ətir verir. Aroma əmələ gəlməsində mühüm rol yağların parçalanması məhsullarına aiddir: sərbəst yağ turşuları və karbonil birləşmələri. Lactobacillus bakteriyaları bu prosesdə iştirak edən lipazlar istehsal etmək qabiliyyətinə malikdir. Mikroorqanizmlər və onların fermentativ kompleksləri ətin əsas komponentlərinin məhv edilməsini və onların hazır məhsulun orqanoleptik xüsusiyyətlərini, insan orqanizmində həzm qabiliyyətini, bioloji dəyərini və istehlakçı üçün təhlükəsizliyini müəyyən edən dad, aromatik və fizioloji aktiv birləşmələrə çevrilməsini həyata keçirir. (Bogdanov V.D., Dementieva N. V., 2005). Bundan əlavə, tədqiqatçılar Clostridhim botulinumun böyüməsini maneə törətmək üçün kolbasa ətinə əlavə edilən nitritlərin səviyyəsini laktik turşu bakteriyalarının tətbiqi ilə azalda biləcəyini tapdılar. Bununla yanaşı, bakterial kulturalar ət məhsullarında Salmonella, Clostridhim botulinum, Staphylococcus aureus kimi mikroorqanizmlərə qarşı antaqonist təsir göstərir[3].

Mikrobioloji prosesin mühüm əlavə məhsulu, otaq temperaturunda uzunmüddətli saxlama zamanı kolbasaların xarab olmasının qarşısını alan antioksidant olan katalaza fermentidir. Bifidobakteriyalardan kolbasa istehsalında geniş istifadə olunur. Karbohidratların fermentasiyası zamanı bifidobakteriyaların əsas metabolik məhsulu laktik turşudur, onun yığılması konsistensiyaya faydalı təsir göstərir. Bundan əlavə, bifidobakteriyalar atmosfer oksigenini bağlamaq və lipidləri oksidləşmədən qoruyan redoks potensialını kəskin şəkildə azaltmaq qabiliyyətinə malikdir.

Kollagen tərkibli xammalın qida istehsalında bilavasitə istifadəsi funksional və texnoloji xüsusiyyətlərinin aşağı olması səbəbindən çox çətindir. Bununla belə, tərkibində kollagen olan xammalın istehsalına daha tam cəlb olunma məhsulların çeşidinin genişlənməsinə, ət emalı müəssisələrinin yaxınlığındakı ərazilərin ekoloji vəziyyətinin yaxşılaşmasına, istehsal tullantılarının miqdarının əhəmiyyətli dərəcədə azalmasına səbəb olacaqdır. , və nəticədə bütövlükdə istehsalın rentabelliyinin əhəmiyyətli dərəcədə artması. Bu texnoloji və iqtisadi cəhətdən spesifik problemin həlli üçün effektiv vasitə kollagen tərkibli xammalın biotransformasiyası prinsiplərinin tətbiqidir. Bu baxımdan istehsalçıların elmi və praktiki marağı son zamanlar müxtəlif növ mikroorqanizmlərin istifadəsinə əsaslanan biotexnoloji üsulların tətbiqinə yönəlmişdir.

Mikroorqanizmlərin istifadəsi ilkin və ikinci dərəcəli xammalın daha dərin emalına, təbii temperatur, pH və ətraf mühit təzyiqi diapazonlarında, material və enerji resurslarına minimal xərclərlə texnoloji rejimlərin həyata keçirilməsinə kömək edir. Mikroorqanizmlərin fəaliyyəti üzvi turşuların, fermentlərin, vitaminlərin və digər maddələrin əmələ gəlməsinə əsaslanır, hazır məhsulun sanitar, mikrobioloji, orqanoleptik xüsusiyyətlərini yaxşılaşdırmağa kömək edir, həmçinin istehsal prosesini intensivləşdirməyə imkan verir[5].

Tərkibində kollagen olan xammalın mikroorqanizmlər tərəfindən biotransformasiyası texnoloji və iqtisadi problemlərin həlli ilə yanaşı, qidalanmanın müasir nəzəriyyələrinin nəzəri postulatlarının və tibbi-bioloji standartların, qidalanmanın yeni növlərinin işlənib hazırlanmasına imkan verəcəkdir. məqsədyönlü biokorreksiyaedici təsiri olan ət məhsulları, bununla da 2020-ci ilə qədər Rusiya Federasiyasının sağlam qidalanma sahəsində dövlət siyasətini həyata keçirir. Bu işin məqsədi kollagen tərkibli xammalın funksional və texnoloji xüsusiyyətlərinə müsbət təsir göstərən mikroorqanizmlərin

ştammlarının axtarışı, onun əsasında zülal kompozitinin alınması, zülal kompozitinin xassələrinin və texniki-iqtisadi imkanlarının öyrənilməsi olmuşdur. biokorreksiyaedici ət məhsullarının, xüsusən də ət pastalarının istehsal texnologiyasında istifadəsidi[3].

Ət istehsalında istifadə üçün nəzərdə tutulmuş mikroorqanizmlərin ştammlarının adətən ət xammalına uyğunlaşması yoxlanılır, onların sanitar-indikativ mikrofloraya münasibətdə antaqonist aktivlik dərəcəsi və bir-birinə qarşı dözümlülüyü müəyyən edilir, duz və natrium nitritə qarşı müqaviməti müəyyən edilir.

Tədqiqatlar həm mikroorqanizmlərin ayrı-ayrı kulturaları, həm də onların 1:1:1:1:1 nisbətində birləşməsi üzrə aparılmışdır. Natrium xlorid konsentrasiyasının hüceyrənin sağ qalmasına təsiri, tərkibində 3%-8% natrium xlorid olan sterilizə edilmiş süddə kulturaların aşılanması ilə müəyyən edilmişdir. Becərmə bir termostatda 35 ºC temperaturda 48 saat ərzində aparılmışdır. Mədəniyyətlərin böyüməsi və ya olmaması bulanıqlığın olması və ya olmaması ilə vizual olaraq müəyyən edilir. Mikroorqanizmlərin natrium nitritə qarşı müqavimətini müəyyən etmək üçün maye bakterial konsentrata 100 q-a 2, 4 və 5 mq miqdarında natrium nitrit əlavə edilmişdir.Konsentrat 4 ºC temperaturda 24 saat saxlanılmışdır. Mədəniyyətlərin böyüməsi və ya olmaması laxtanın olması və ya olmaması ilə vizual olaraq müəyyən edilir. Sonra konsentratların optik sıxlığı fotokolorimetrdə 550 nm dalğa uzunluğunda müəyyən edilmişdir. Sanitariya-indikativ mikrofloraya qarşı antaqonist fəaliyyət agar mühitinin səthində perpendikulyar zolaqlar üsulu ilə müəyyən edilmişdir. Test ştammı kimi E. coli kulturası istifadə edilmişdir.

Mikroorqanizmlərin proteolitik aktivliyini müəyyən etmək üçün qida mühiti kimi ət-pepton jelatindən istifadə edilmişdir. İnkubasiya 35 ºC temperaturda bir termostatda aparıldı. Müşahidə 7 gün ərzində aparılıb. Protein kompozisiyasını əldə etmək üçün xammal mal əti ürəyi və donuz yanağı idi, əvvəlcədən qaynadılmış və ızgara diametri 3 mm olan bir dəyirmanda üyüdülmüşdür. Xammalın biotransformasiyası 24 saat ərzində 32-35 ºC temperaturda qarışdırıcı ilə termostatlı qabda aparılmışdır. Aktivləşdirilmiş bakterial kulturalar (kultura nisbəti 1:1:1:1:1, ən azı 109 KFU/q miqdarında) xam ətin kütləsinə görə 0,5%, 1,0% və 1,5% nisbətində əlavə edilmişdir. Bitkilərin xammala proteolitik təsiri qeyri-bek azotunun əmələ gəlməsi ilə qiymətləndirilmişdir. Hidroksiprolinin təyini Nyuman və Loqan üsulu ilə aparılmışdı.

Tədqiqatlar göstərir ki, seçilmiş suşlar arasında heç bir antaqonizm yoxdur. Mikroorqanizmlərin ştammları E. coli-nin sınaq ştamına münasibətdə həm hər bir kultura ayrı-ayrılıqda, həm də 1:1:1:1:1 kombinasiyasında yüksək antaqonist qabiliyyət göstərmişdir. Seçilmiş kulturaların proteolitik aktivliyinin tədqiqi göstərdi ki, mühitin mayeləşməsi orta hesabla 48 saat inkubasiyadan sonra müşahidə edilir və kulturaların 1:1:1:1:1 kombinasiyasında əlavə edildiyi sınaq borusunda görünən dəyişikliklər mühitdə 24 saat inkubasiyadan sonra göründü. Mühitin mayeləşməsi jelatinin parçalanmasını və kollagen tərkibli xammalın biotransformasiyası üçün tədqiq olunan kulturaların 1:1:1:1:1 kombinasiyasında istifadə edilməsinin mümkünlüyünü göstərir. Hər iki ayrı-ayrı bitkilərin duza və nitritə davamlılığının və onların 1:1:1:1:1 birləşməsinin müəyyən edilməsi üzrə tədqiqatların nəticələri alınmış və təhlil edilmişdir [6].

Lactobacillus plantarum LPM-100, Lactobacillus casei MDP-1, Pediococcus pentosaceus PDA-23 süfrə duzunun kütləvi hissəsi 6% olan sterilizə edilmiş süddə yaxşı inkişaf edir, lakin Lactobacillus plantarum LPM-100 daha dözümlü olduğu ortaya çıxdı.

1:1:1:1:1 birləşməsində mikroorqanizmlərin inkişafı hətta 8% duz konsentrasiyasında da dayanmadı. Bütün nümunələrdə natrium nitritə qarşı kifayət qədər yüksək müqavimət təsdiq edilmişdir. Natrium nitritin dozasının artması optik sıxlığın azalmasına səbəb oldu, bu, natrium nitritin konsentrasiyasının artması ilə mikroorqanizmlərin biokütləsinin artmasının azaldığı ədəbiyyat məlumatlarını təsdiqləyir.

Beləliklə, tədqiq olunan mikroorqanizmlərin mədəni və biokimyəvi xassələri, onların sinerjisi və ət-pepton jelatin üzərində böyümə qabiliyyəti onlardan kollagenin biotransformasiyası üçün seçilmiş kombinasiyada (1:1:1:1:1) istifadə etməyə imkan verir. Ət sənayesində xammal ehtiva edən. Sonrakı tədqiqatlar zülal kompozitinin əldə edilməsinə və onun ət məhsullarının istehsalında istifadə imkanlarının qiymətləndirilməsinə yönəldilmişdir. Süd turşusu bakteriyası və mikrokokların konsorsiumunun kollagen zülallarına və istifadə olunan xammala təsirini qiymətləndirmək üçün zülal olmayan azotun tərkibi, həll olunan zülalın, həll olunan hidroksiprolin və amin azotunun miqdarı müəyyən edilmişdir. Tədqiqatın nəticələri 3 və 4-cü cədvəllərdə təqdim edilmişdir. Cədvəl 4-dən görünür ki, hidroliz biotransformasiyaya məruz qalan bütün nümunələrdə baş verir. 3 nömrəli nümunədə amin azotunun miqdarı nəzarətlə müqayisədə 7,5 dəfə artmışdır. Daxil edilən başlanğıcın miqdarının 0,5% -dən 1,5% -ə qədər artması ilə filtrata keçən hidroksiprolinin tərkibi 1,5 dəfə artır. Tədqiqatımızın nəticəsi olaraq, başlanğıc üçün tövsiyə olunan doza xammalın çəkisinin 1,5%-dir.

Nəzarət və sınaq nümunələrinin bioloji dəyərini qiymətləndirmək üçün in vitro həzm fermentləri ilə zülal hidrolizinin dərəcəsi akademik N.N.Lipatov tərəfindən dəyişdirilmiş Pokrovski-Ertanov üsulu ilə müəyyən edilmişdir.Alınan məlumatlar göstərir ki, zülalların parçalanma sürəti ət pastasının sınaq nümunələri nəzarət nümunəsində bu göstəricini orta hesabla 17% üstələyir. Bu, mal əti ürəyinin və donuz yanağının mikroorqanizmlər tərəfindən biotransformasiyası zamanı laktik turşunun yığılması ilə izah olunur ki, bu da kollagenin şişməsinə və qlütinin əmələ gəlməsi ilə polipeptid zəncirlərinin parçalanmasına səbəb olur ki, bu da öz növbəsində çoxlu miqdarda hidrofilik qruplar və birləşdirici toxumanın boşalmasına kömək edir. Kollagenin reaktivliyi artır, əlavə su molekullarını bağlaya bilir. Patenin dadını və ətirini müəyyən edən uçucu komponentlərin tərkibi öyrənilərkən qeyd edilmişdir ki, təcrübə və nəzarət nümunələri eyni tərkibə malikdir və yalnız birləşmələrin kəmiyyət tərkibinə görə fərqlənir[1].

Hazır xam hisə verilmiş və qurudulmuş kolbasaların mikroflorası Lbs növünün laktik turşu bakteriyalarından ibarətdir. plantarum, Lbs. brevis, Pediococcus cerevisiae, Leuconostoc dext., mikrokoklar, Debariomyces cinsinin mayaları. Kolbasaların bu mikroflorası faydalıdır və qurudulmuş və çiy hisə verilmiş kolbasaların spesifik orqanoleptik xüsusiyyətlərinin formalaşmasına əhəmiyyətli təsir göstərir. Hisə verilmiş kolbasalardan təcrid olunmuş L. plantaram, L. breve, Pediococcus cerevisiae və digər laktik turşu bakteriyalarının bir çox ştamları E. coli Proteus vulgaris, çürük aerob çöplər (Bac. subtilis və s.) staphylococ-un sınaq kulturalarına qarşı açıq antaqonizm göstərmişdir. Debaryomyces cinsindən olan maya ştammları Penicillium, Ciadosporium, Aspergillus, Mucor, Endomyces lactis (Oidium lactis) cinslərindən olan qəliblərə antaqonist təsir göstərir.

Bu növ mikroorqanizmlərdən təmiz formada istifadə oluna bilər və qiymə ətin yetişməsi

proseslərini gücləndirmək üçün qiymə ətinə daxil edilə bilər. Hər bir fərdi mikroorqanizmin yetişmə biokimyəvi proseslərinə müəyyən təsir göstərdiyini xatırlamaq lazımdır, buna görə də onların sinerjisini yoxlayaraq kompleks şəkildə istifadə edilə bilər. Bir çox ölkələrdə yuxarıda göstərilən mikroorqanizmlərin təmiz kulturalarından yüksək keyfiyyətli kolbasa, xüsusən çiy hisə verilmiş və qurudulmuş kolbasa istehsal etmək üçün qiymə kolbasasına daxil edilən başlanğıc kimi istifadə olunur.

Süd turşusu mikroorqanizmlərinin (başlanğıcların) başlanğıc kulturalarından istifadə hazır məhsulun keyfiyyətini yaxşılaşdırmaq üçün fermentasiya proseslərini sürətləndirmək məqsədi daşıyır. Başlanğıc kulturaları hazır məhsulun məhsuldarlığına, onun miqdarına, keyfiyyətinə və rəng intensivliyi dərəcəsinə təsir edən ən çox yayılmış üsullardan biridir. Başlanğıc kulturalar fermentləşdirilə bilən substratda istənilən metabolik aktivliyi inkişaf etdirən mikroorqanizmlərin canlı və ya hərəkətsiz formalarını ehtiva edən preparatlardır.

Tipik olaraq, lakin mütləq deyil, onlar müəyyən bir substratda böyüyürlər (bölünmə yolu ilə çoxalırlar). Başlanğıc mədəniyyətlərin tərkibinə pH, rəng əmələ gəlməsi, aromatik komponentlərin, stafilokokların və mikrokokların əmələ gəlməsinin azaldılmasından məsul olan laktobakteriyalar, kalıbın mədəniyyətləri - nitratların azaldılması, peroksidləşmənin qarşısının alınması, aromatik maddələrin əmələ gəlməsi, maya və streptomisetlər - rəngin formalaşması daxil ola bilər. və hazır məhsulun ətri. Başlanğıc kultura kimi nitrat reduksiya edən mikrokoklar, homofermentativ laktik turşu bakteriyaları və pediokokklar, maya və atipik süd turşusu bakteriyaları təmiz və ya qarışıq kultura şəklində də istifadə olunur. Daha tez-tez müxtəlif şəkərlərdən yalnız laktik turşu əmələ gətirən homofermentativ laktobasillər istifadə olunur. Bundan əlavə, onların mikroaerofilliyi aşağı oksigen mühitində, məsələn, böyük diametrli kolbasa içərisində fermentasiya prosesini təmin etməyə imkan verir. Kolbasaların yetişməsi zamanı laktik turşu bakteriyaları (laktobacillus) digər bakteriyalara nisbətən daha sürətli çoxalır, əzələ toxumasının qlikogenini intensiv şəkildə parçalayır və süd turşusuna şəkər əlavə edir.

Bununla belə, digər növ bakteriyaların olması halında, arzuolunmaz turşuların, məsələn, sirkə və propion turşusunun əmələ gəldiyi heterofermentativ reaksiya baş verə bilər ki, bu da qüsurlu hazır məhsullara səbəb ola bilər. Sənaye başlanğıc mədəniyyətlərinin əksəriyyətində laktobasillərin yüksək temperaturlu ştammlarından istifadə olunur, onlar 32-43°C temperaturda ən yaxşı böyüməsi və sürətli turşu istehsalı ilə xarakterizə olunur, lakin 16-21°C-də yavaş inkişaf edir, aşağı temperaturlu suşlar isə nisbətən tez böyüyür. bu temperaturda. Başlanğıc kulturalarının istifadəsi müəssisədə həyata keçirilən duzlama üsulundan asılıdır: quru, qarışıq, ekstruziya, vakuum torbasında quru duzlama. Tam əzələli çiy hisə verilmiş məhsullar istehsal edərkən, 2-6 ° C nisbətən aşağı müalicə temperaturunda kifayət qədər aktiv olan yavaş yetişən məhsullar istifadə olunur. Hazırda dünyanın bir çox ölkələrində (ABŞ, Kanada, Dinland, Fransa, Almaniya və s.) xam hisə verilmiş məhsulların istehsalında starter kulturalardan istifadə olunur.

ABŞ-da, hələ keçən əsrdə (60-cı illərdə) proteolitik fermentlərdən istifadə edərək ətin həssaslığını süni şəkildə artırmaq üçün üsullar hazırlanmışdır; ölkəmizdə fermentlərin ət sənayesində istifadəsi ilə bağlı işlər 60-cı illərin ortalarında başlamışdır. V.I. Solovyovun rəhbərliyi. Mikrob mənşəli 20 proteolitik ferment preparatı sınaqdan keçirilərkən, nəticələr protelin, rimoprotein və subtilizin istifadə edilməklə əldə

edilmişdir. Bu sahədə sonrakı tədqiqatlar A. S. Ratushny B. Mitsik tərəfindən davam etdirilmişdir. Əsasən porsiyalı yarımfabrikatların istehsalında həyata keçirilən yüksək keyfiyyətli ətin məhsuldarlığının artırılmasına və keyfiyyət xüsusiyyətlərinin yaxşılaşdırılmasına yönəlmiş məlum işlər vardır[1].

Ferment preparatlarından istifadə təcrübəsi göstərir ki, yüksək proteolitik aktivliyə malik fermentlər ət emal edərkən istənilən effekti verir. Onların bəziləri əzələ lifi zülallarının hidrolizini intensiv şəkildə kataliz edərək, ətin sərtliyini təyin edən birləşdirici toxuma zülallarına zəif təsir göstərir. Eyni zamanda ət emalı üçün fermentlərin optimal təsiri böyük əhəmiyyət kəsb edir. Son vaxtlara qədər bitki və heyvan mənşəli fermentlər (papain, (bromelain, ficin, pankreatin, pepsin), həmçinin ət emalında mikroorqanizmlərin bəzi fermentləri kifayət qədər öyrənilmişdir. Ferment məhlulunun ətə yeridilməsi ən məqbul olanı olmuşdur. müasir istehsal üsulu.Eyni zamanda sümükdən ayrılarkən alınan iri tikə ətlərə ferment preparatı ilə yanaşı istehsal olunan məhsulun xarakterindən asılı olaraq xörək duzu və qida əlavələri də daxil olan məhlul vurulur. təzyiq altında maye reaktivi ilə inyeksiya təcrübəsi, mürəkkəb konstruksiyalı şprislər, aerozol şəklində. Məqsəd: ətin yumşaldılması və yetişməsinin sürətləndirilməsi.proteolitik fermentlərin təsiri altında əzələdaxili birləşdirici toxumada dəyişikliklərin xarakteri və dərinliyi. preparatların tərkibində olan proteazların spesifikliyindən asılıdır.Birləşdirici toxuma təbəqələrində ən dərin dəyişikliklər fisinin təsiri altında baş verir, çünki bu ferment ətin təbii pH-da yerli elastini hidroliz etməyə qadirdir. Kollagenaz və elastaz aktivliyi olmayan mikrob mənşəli qida ferment preparatlarına gəldikdə, onların əzələdaxili birləşdirici toxumaya təsiri onları "sementləşdirən" əsas maddədən kollagen liflərinin sərbəst buraxılması ilə məhdudlaşır. Bu, kollagen liflərinin hidrotermal təsirlərə qarşı müqavimətini azaltmağa və istilik müalicəsi zamanı ətin daha tez yumşalmasına kömək edir. Ferment preparatlarının ət zülallarına ümumi təsiri ilə onun sərtliyi azalır.

Qeyri-zülal ehtiyatlarından və ət sənayesi tullantılarından maksimum istifadə və tullantısız texnologiyaların yaradılması problemi ilə əlaqədar son vaxtlar xüsusi ferment preparatlarının hazırlanmasına xüsusi diqqət yetirilir. Bu istiqamətdə davamlı yüksəlişin təmin edilməsinə, modifikasiya olunmuş kollagen tərkibli xammalın alınmasında istifadənin üstünlükləri göz qabağında olan effektiv mikrob preparatlarının işlənib hazırlanması yolu ilə nail olmaq olar.

Bir çox mikroorqanizmlər heyvan zülallarını parçalayan xüsusi fermentləri sintez etmək qabiliyyətinə malikdir; Onların arasında kollagen, elastin və keratin kimi effektiv şəkildə hidroliz edən zülallar fərqlənir. Bu məqsədlər üçün Bacillus, Pseudomonas, Streptomyces, Aspergillus, Penicillin tərəfindən sintez edilən proteolitik fermentlərdən istifadə etmək mümkündür. Belə ki, Penicillium wortmanii VKM-2091-dən olan kollagenofilik preparatdan istifadə edərkən kollagenin hidroliz dərəcəsi 60-65%-ə çatır ki, bu da protosubtilindən 1,5-1,8 dəfə, pankreatin vaxtlarından istifadə ilə müqayisədə isə 1,6-2,0 dəfə yüksəkdir[4].

Belə hidrolizatlar qida əlavələri, dəyişdirilmiş məhsullar və yem konsentratları əldə etmək üçün əla əsasdır. Dərilər, damarlar, aşağı qiymətli əlavə məhsullar və kateqoriyalardan (ağciyər, iştaxta, dalaq) xammal kimi istifadə edildikdə müsbət nəticələr əldə edilmişdir.Hidrolizatlar qiymə və konservləşdirilmiş məhsulların tərkiblərində mal əti (15-20%) üçün əla əvəzedicilərdir. , həm də zülal və yağ əlavələrinin və emulsiyaların tərkib hissəsi kimi faydalıdır.Bir sıra xarici ölkələrdə də

fermentativ hidroliz əsasında ət sənayesinin aşağı qiymətli xammallarından qida inqrediyentlərinin yüksək səviyyədə istehsalına nail olunmuşdur. Belə ki, donuz dərilərindən, dondurulmuş broyler başlarından hidrolizat preparatları alınmışdır.Fransa tədqiqatçıları fermentativ hidrolizatların alınması üçün bir sıra üsullar təklif etmişlər ki, onlar heyvan (pankreatin, tripsin, kimotripsin), bitki (ficin, bromelain, papain) və mikrob Bacillus subtilis, Str. fradiae, Str griseus} mənşəlidir.Emal edilib qurudulduqdan sonra məhsul qida və tibbi məqsədlər üçün istifadə oluna bilər.Almaniyada hidrolizatlar həmçinin aşağı qiymətli quş əti emalı məhsullarından alınır. Əzilmiş xammala B. subtilis, A. oryzae, P lateks, A. melleus mikrob preparatları əlavə edilir.

Hidrolizat qurudulur və şorba hazırlamaq üçün istifadə olunur. .Yerli və xarici alimlərin tədqiqatları bu xammaldan zülalların (60-80%) təcrid edilməsi vədlərini göstərdi - ferment preparatlarından istifadə etməklə hidroliz, bundan sonra onlardan əvvəlcədən müəyyən edilmiş kimyəvi tərkibli qida zülal məhsulları istehsal etmək üçün istifadə oluna bilər. Yerli tədqiqatçılar quru quşlarının baş və ayaqlarından hidrolizatların alınması istiqamətində iş aparmış və yaxşı nəticələr əldə etmişlər.P wortmanii VKM-2091 Str.chromogenes graecus 0832-dən ferment preparatlarından istifadə etmək təklif olunur ki, bu da müvafiq olaraq kollagenaz və daha çox keratinolitik fəaliyyət göstərir.Yağların verilməsi zamanı tullantılar şəklində alınan və tərkibində 44% zülal (əsasən kollagenlər) olan xüsusi kollagen tərkibli xammalın - qreakın qida məqsədləri üçün istifadəsinin aspektləri məlumdur[7].

Homogenləşdirilmiş yağ qiymətli zülal xammalıdır. Tərkibində valin, lizin və fenilalanin kimi vacib amin turşuları var. Tikişlərin funksional və texnoloji xüsusiyyətlərini yaxşılaşdırmaq üçün miofibrilyar zülalların hidrolizinə xas olan fermentlərdən də istifadə etmək məqsədəuyğundur. Gövdələrin enzimatik emalı üçün şərtlər tövsiyə olunur. Neytral pH zonasında orta temperaturda Penicillium wortmanii mikromisetinin dərin mədəniyyətindən alınan proteolitik preparatlar ən təsirli oldu. Yuxarıda göstərilənlərin hamısından əlavə, mikrob sintezi fermentləri hazırda dərilərin tükdən təmizlənməsi proseslərində geniş istifadə olunur.

Nəticə

Mikroorqanizmlər ət sənayesi texnologiyalarında geniş istifadə olunur. Bu, bizim sənayemizin biotexnologiya olduğunu göstərir. Hazırda ət emalı sənayesində bitki və heyvan mənşəli zülal preparatlarından geniş istifadə olunur. Heyvan zülalının çatışmazlığından getdikcə daha çox xəbərdar olan ölkəmizdə biotexnoloqların qida istehsalında mikrobioloji biosintetik zülaldan istifadə problemlərini həll edəcəkləri gün uzaqda deyil. Bu məqsədlə bakteriya və maya istifadə edilə bilər. Keçən əsrdən bu problem İngiltərə və Yaponiyada uğurla həll olunur, burada qida zülalının mikrobioloji sintezi üçün fabriklər fəaliyyət göstərir. Aşağı dərəcəli ətin yumuşatılması, ondan zülalın daha yaxşı çıxarılması üçün taxılların emalı və aşağı qiymətli quş cəsədlərinin emalı məhsullarından - torpaqların baş və ayaqlarından hidrolizatların alınması məqsədilə fermentlərin əldə edilməsi üçün mikroorqanizmlərdən istifadə etmək maraqlıdır.

Dərilər, damarlar, aşağı qiymətli əlavə məhsullar və kateqoriyalardan (ağciyər, iştaxta, dalaq) xammal kimi istifadə edildikdə müsbət nəticələr əldə edilmişdir.Hidrolizatlar qiymə və konservləşdirilmiş məhsulların tərkiblərində mal əti (15-20%) üçün əla

əvəzedicilərdir. , və həmçinin zülal-yağ əlavələrinin və emulsiyaların tərkib hissəsi kimi faydalıdır.Hazırda dərinin tükdən təmizlənməsi proseslərində mikrob sintezi fermentlərindən geniş istifadə olunur.Bir çox ölkələrdə starter kultura kimi süd turşusu mikroorqanizmlərinin təmiz kulturalarından istifadə edilir ki, bunlar da introduksiya edilir. yüksək keyfiyyətli kolbasa, xüsusilə çiy hisə verilmiş və qurudulmuş kolbasa əldə etmək üçün doğranmış kolbasa daxil etmək.Başlanğıc kulturalarından istifadə laktik turşu mikroorqanizmlərindən (ferment) hazır məhsulun keyfiyyətini yaxşılaşdırmaq üçün fermentasiya proseslərini sürətləndirmək, yetişmə proseslərini sürətləndirməyə kömək edir. qiymə quru kolbasa və xüsusi orqanoleptik xüsusiyyətlərin formalaşması.

Ədəbiyyat

1.Hasil Kamaləddin oğlu Fətəliyev (texnika elmləri doktoru, professor) Şərabın mikrobiologiyası. Dərslik, Bakı, 2015.305 s.

2.. Гусев, М.В. Микробиология: учебник для студ. вузов / М. В. Гусев, Л. А. Минеева - М.: Академия, -2010. - 461с.

3. Нетрусов, А.И. Микробиология : Университетский курс : учебник для вузов / А. И. Нетрусов, И. Б. Котова - М.: Академия, -2012. - 384 с.

4.Панков В.Н, Селезнева Н.В., Гребенщиков А.В. Применение Bacillus subtilis в составе микробного консорциума для биомодификации малоценного мясного сырья. // III Общероссийская студенческая электронная научная конференция «Студенческий научный форум», 15-20 февраля 2011 г. URL http://www.rae.ru/forum2011/143/1290 (дата обращения 01.08.2014)

5. Аксенова К. Н., Мануйлова Т. П., Патиева А. М. Создание и исследование свойств консорциума микроорганизмов для обработки мясного сырья // Молодой ученый, 2014. № 7. – С. 100-103.

6. Тимошенко, Н.В. Патиева А.М., Патиева С.В., Коваленко М.П. Разработка технологий рубленых мясорастительных полуфабрикатов для людей, предрасположенных или страдающих сердечно-сосудистыми заболеваниями // Труды Кубанского государственного аграрного университета, 2008. № 15. Т. 1. – С. 176-179.

7. Хамагаева Н.С., Ханхалаева Н.А., Занграева Л.Н. Использование пробиотических культур для производства колбасных изделий. Улан-Уде: Изд-во ВСГТУ, 2006.-204 с.

ИСПОЛЬЗОВАНИЕ МИКРООРГАНИЗМОВ В ПРОИЗВОДСТВЕ МЯСНЫХ ПРОДУКТОВ

Резюме

Среди компонентов, определяющих функциональные свойства пищевых продуктов, особое место занимают микроорганизмы с пробиотическими свойствами, образующие нормальную микрофлору желудочно-кишечного тракта. Это один из определяющих факторов важности пищевых продуктов с пробиотическими свойствами. Как известно, мясо и мясные продукты занимают важное место в питании общества, однако выбор мясных продуктов с пробиотическими свойствами ограничен из-за отсутствия достаточных сведений об антагонизме действия пробиотических культур в сыром мясе. содержащие различные продукты питания. содержание. Разработка объективных критериев

оценки свойств пробиотиков. Это создает возможность технологического использования при производстве мясных продуктов на основе изучения физиологических и биохимических свойств микроорганизмов. Пропионовокислые бактерии и бифидобактерии привлекают большое внимание с точки зрения пробиотических свойств микроорганизмов.

Ключевые слова: Мясной продукт, микроорганизмы, бактерии, ферментные препараты, небелковые продукты.

EFFECTIVE USE OF INTERACTIVE METHODS IN TEACHING MICROBIOLOGY

Firəngiz Məhərrəmli
Odlar Yurdu Universiteti, Biologiya ixtisası
Sevinc Məhərrəmova
a.ü.f.d., Odlar Yurdu Universiteti, Təbiət və Texnologiya Fakultəsi

Abstract

There is a complex and interconnected application of forms, methods and ways of working in the organization of the teaching and learning process through modern pedagogical technology, in the implementation of assessment and other educational activities throughout the pedagogical process. Teachers and students participating in the interactive learning process have equal rights. As a teacher, the teacher performs the function of the organizer, coordinator, consultant: he poses problems, gives instructions, supervises, helps prepare the search strategy, without interfering with the work of students, but students work together on educational tasks. - argue and argue among themselves. Every student has his or her own view and opinion. As a result of change, opinions change and ideas are updated. The application of interactive learning methods should be given ample attention while teaching the subject of Microbiology in higher schools. Information should not be presented to students ready-made, students should obtain information by researching. The teacher should assume the role of guide (facilitator). In such an educational process, the class (audience) is directed to look for ways to solve the problem in groups and pairs, the groups record the results obtained on worksheets and then prepare their presentations. The lazy students in the group also actively participate in the discussion; They get used to listening to each other during public discussion. Following the presentations, a connection is made between these research results, and after the information is systematized, it is classified in a general way. Comparisons are then made between these results and the initial assumptions that the students (audience) made at the beginning of the study. Students observe which of their hypotheses are consistent and which are new, and come to general conclusions. In modern lessons, first of all, motivation is created regarding the subject to be covered. Motivation means encouragement. In other words, it actively directs students' (audience's) interest in learning and understanding to the solution of the problem. Another task of motivation is to create conditions for posing the research question. A research question provides the opportunity to formulate initial hypotheses and organize the research. A research question requires the conduct of a research study. Active (interactive) methods to create inter-subject connections during teaching, to develop and form logical, critical, creative thinking, student independence and personality - problem interpretation, brainstorming, clustering, sinkvein, research , etc. - is used. Department of Microbiology. A number of strategies (methods) are used.

Keywords: modern lesson; interactive methods; Microbiology teaching; pedagogical technologies.

MİKROBİOLOGİYANIN TƏDRİSİNDƏ İNTERAKTİV METODLARDAN SƏMƏRƏLİ İSTİFADƏ

Xülasə

Müasir pedaqoji texnologiyanın vasitəsilə öyrətmə və öyrənmə prosesinin təşkil olunmasında, pedaqoji prosesin gedişatında, qiymətləndirmə və digər təlim xarakterli işlərin həyata keçirilməsində işin forma, üsul və yollarının kompleks və əlaqəli həyata keçirilməsi durur. İnteraktiv təlim prosesində iştirak edən öyrədənlər və öyrənənlər eynihüquqludurlar. Müəllim öyrədən olaraq təşkilatçılıq, koordinator, məsləhətçi funksiyasını icra edir: tələbələrin işlərinə müdaxilə etmədən problem qoyur, istiqamət göstərir, nəzarət edir, axtarış strategiyasını hazırlarkən yardım edir, amma təlim tapşırıqları üzərində tələbələr özləri birlikdə - öz aralarında mübahisə edib, diskussiya apararaq işləyirlər. Hər bir tələbənin öz fikri, ideyası olur. Mübadilə nəticəsində fikirlər dəyişir, ideyalar yenilənir. Ali məktəblərdə Mikrobiologiya fənninin tədrisi zamanı da interaktiv təlim metodlarının tətbiqinə geniş yer verilməlidir. Biliklər tələbələrə hazır formada təqdim olunmamalı, tələbələr biliyi tədqiqat yolu ilə əldə etməlidirlər. Müəllim bələdçi (fasilitator) rolunu daşımalıdır. Belə təlim prosesində sinif (auditoriya) qrup və cütlər formasında problemin həlli yollarına dair axtarışa yönləndirilir, qruplar əldə olunmuş nəticələri işçi vərəqlərində qeyd edib, sonra onun təqdimatını hazırlayırlar. Qrupdakı tənbəl tələbələr də müzakirədə fəal iştirak edirlər; kollektiv müzakirənin gedişatında biri-birini dinləməyə alışırlar. Təqdimatlar bitdikdən sonra bu tədqiqat nəticələri arasında əlaqə yaradılır, məlumatlar sistemləşdirildikdən sonra, ümumi bir şəkildə təsnif olunur. Bundan sonra həmin nəticələrlə tədqiqatın başlanğıcında tələbələrin (auditoriyanın) irəli sürdüyü ilkin fərziyyələr arasında müqayisələr aparılır. Tələbələr hansı fərziyyələrinin üst-üstə düşdüyünü, nələrin isə yeni olduğunu müşahidə edir və ümumi nəticə çıxarırlar. Müasir dərslərdə əvvəlcə öyrəniləcək mövzu ilə bağlı motivasiya yaradılır. Motivasiya təhrik etmə deməkdir. Yəni tələbələrin (auditoriyanın) təlim-dərketmə marağını problemin həllinə doğru fəal, canlı şəkildə yönləndirir. Motivasiyanın digər vəzifəsi isə tədqiqat sualını ortaya qoymağa şərait yaratmaqdır. Tədqiqat sualı ilkin fərziyyələr irəli sürməyə və tədqiqat işlərini təşkil etməyə imkan yaradır. Tədqiqat sualı tədqiqat işinin icra edilməsini tələb edir. Müasir dərsdə Mikrobiologiya fənninin tədrisi zamanı mövzulararası əlaqə yaratmaq, məntiqi, tənqidi, yaradıcı təfəkkürü, tələbə müstəqilliyini və şəxsiyyətini inkişaf etdirmək və formalaşdırmaq məqsədilə fəal (interaktiv) metodlardan — problemli şərh, əqli hücum, klaster, sinkveyn, tədqiqat və s. kimi bir sıra strategiyalardan (metodlardan) istifadə olunur.

Açar sözlər: müasir dərs; interaktiv metodlar; Mikrobiologiyanın tədrisi; pedaqoji texnologiyalar.

GİRİŞ

Mikrobiologiya (mikros - *kiçik*, bios - həyat, loqos - *elm* deməkdir) — adi gözlə görülməyəcək qədər kiçik (mikroskopik), digər orqanizmlərlə müqayisədə sadə və çox geniş çeşidi olan canlı varlıqların, yəni mikrob və ya digər adıyla mikroorqanizmləri öyrənən elmdir. Ali məktəblərdə Mikrobilogiyanın tədsində Biologiyanın tədris metodikasından geniş istifadə olunmalıdılr. Biologiyanın tədrisi metodikası təlim və tərbiyə proseslərinin sistemi haqqında elmdir. Mövcud olan hər bir sahənin özünəməxsus metodikası olduğu kimi, Mikrobiologiyanın tədrisinin də xüsusi metodikaları vardır. Bu metodikalar pedaqoji prinsiplərə əsaslanmış olub, Mikrobiologiya nə üçün öyrənilir, necə öyrədilir, nəyin üzərindən tələbələrə çatdırılır kimi suallara cavab verir. Mikrobiologiyanın tədrisi metodikası mikrobioloji biliklərin ötürülməsində mühüm rol oynayır. Bununda əlavə, sadəcə təhsilalanlara deyil, eyni zamanda təhsilverənlərə yaxından yardımçı olur. Metodikanın vəhdət təşkil etməsi tədris prosesində tədris işlərini

dəqiqləşdirir, məqsədyönlü tətbiq edildikdə şagirdlər möhkəm bioloji biliklərə yiyələnir.[1] Biologiya müəllimi ali məktəbdə bioloji təhsilin verilməsində tərbiyəvi təlimin gedişi prosesini, elmi cəhətdən düzgün və planauyğun şəkildə hər bir kursun tədrisini də izləməlidir. Hər bir metodika kimi biologiyanın tədrisi metodikası da iki yerə - ümumi və xüsusi metodikaya bölünür. Ali məktəblərdə keçirilən bütün biologiya sahələrin tədrisi qaydaları: tədrisin ideoloji baxımından istiqamətləndirilməsi, məzmununun vəhdəti, tədrisin metodları, tədris işləri arasında qarşılıqlı əlaqə və s. biologiyanın tədrisinin ümumi metodikasında əks olunub. Xüsusi metodikalarda metodiki dərslər, ekskursiyalar, dərsdənkənar işlər başqa sözlə, həmin kursun tədris sistemləri bütövlükdə öz əksini tapır və inkişaf etdirilir.[2]

MİKROBİOLOGİYANIN TƏDRİSİNDƏ İNTERAKTİV METODLARDAN İSTİFADƏ.

Günümüzdə interaktiv təlim metodları, fəal təlim metodları, interaktiv pedaqogika, təlim texnologiyaları anlayışları ilə tez-tez rastlaşırıq. “İnterakriv” termini ingilis dilindən ana dilimizə, o cümlədən digər dillərə keçmə ifadədir.

Müasir anlayış kimi yaranan “interakriv pedaqogika” ifadəsini ilk dəfə 1975-ci ildə alman tədqiqatçısı Hans Frits istifadə etmişdir. Alimin tədqiqatlarında interaktiv prosesin məqsədi bu prosesdə iştirak edənlərin davranış modelini dəyişdirmək və yaxşıya doğru inkişaf etdirməkdir. Hans Frits interaktiv metodlar haqqında interaktiv tərbiyə prosesi kimi bəhs edir. Metod olaraq interaktivlik təlim prosesində müəllim və tələbə arasında işin gedişindən – mövzudan, şərhdən, dialoqdan yaranan yanaşma, izah və s.-dir. Yəni, interaktiv təlim əvvəlcədən planlaşdırılmır, işin – təlim prosesinin gedişi bu məqamı yaradır və daha çox tələbənin müstəqil müdaxiləsi ilə ortaya çıxır. Bundan əlavə, interaktivlik tələbələrin özləri arasında da ola bilər. Əsas məsələ odur ki, bu prosesdə birgə fəaliyyət göstərən, öyrənənlər və öyrədən eynihüquqlu mövqedə dayanmalıdırlar. Bu zaman müəllim öyrədən olaraq təşkilatçılıq, koordinator, məsləhətçi, fasilifator funksiyasını icra edir. Şagirdlərin işlərinə müdaxilə etmədən problemləri qoyur, istiqamət verir, nəzarət edir, axtarış strategiyasını hazırlamağa kömək edir, amma təlim tapşırıqları üzərində uşaqlar özləri birlikdə öz aralarında mübahisə edərək, diskussiya apararaq işləyirlər.[3]

Beləliklə, təlim prosesində tələbələrarası əlaqə, qarşılıqlı təsir və əməkdaşlıq əsas olur. Təlim nəticəsi təlim prosesi iştirakçılarının qarşılıqlı qüvvəsi ilə əldə edilir, şagirdlər təlim nəticələrinə görə öz üzərlərinə qarşılıqlı məsuliyyət götürürlər.[4]

İnkişaf etmiş dövrdə, inteqrasiyanın çox güclü olduğu bir şəraitdə biologiyanın tədrisinin elmi əsaslarından məqsədəuyğun, düzgün, planlı və sistemli şəkildə istifadə etmək zəruridir. Burada müəllim tələbələrin biologiyanın digər sahələrini də öyrəndiklərini nəzərə almalıdır. Biologiyanın başqa sahələrindən dayaq kimi istifadə etməklə, onların biliklərini inkişaf etdirməlidir.

Ali məktəblərdə Mikrobiologiyanın tədrisində əsas məsələlərdən biri də motivasiyanın – düzgün problemin qoyulmasıdır. Hər bir dərsin əvvəlində tədqiqatı başlamaq üçün problem düzgün müəyyənləşdirilməlidir. Yəni problem mövzu ətrafında qoyulmalıdır. Düzgün qoyulmuş problem həmişə çoxsaylı fərziyyələr, ehtimallar əmələ gətirir və bunları da yoxlamaq üçün ilk növbədə tədqiqat sualları qurulmalıdır. Buna görə də tədqiqat sualı yeni biliklərin kəşfinə aparan bələdçi, “yolgöstərən ulduz” rolunu daşıyır. İnteraktiv təlimin ilk mexanizminə əsasən məhz problemin olması tələbələrin idrak fəallığının yaranmasının başlıca addımı olur .[5]

Motivasiya psixoloji amil kimi hər hansı işin mexanizmini fəaliyyətə salan sövqedici, təhrikedici prosesdir. Motivasiya - ortaya qoyulmuş problem və onun həlli tələbatı fəal dərsdə

təfəkkür prosesini işləməyə yönəldən və tələbələrin idrak fəallığını inkişaf etdirən amil kimi çıxış edir. Bu prosesin ən əhəmiyyətli nailiyyətlərindən biri düşünmənin sərbəstliyidir: Tələbə öz fikrini "Zənnimcə...", "Mənə belə gəlir ki,...", "Mən belə hesab edirəm ki,..." sözlərindən istifadə etməklə dilə gətirir.

Ali məktəblərdə interaktiv təlim metodlarından olan oyunlar xarici ölkələrdə geniş istifadə olunur. Ali təhsildə oyunların istifadəsi çox vaxt oyunlaşdırma adlanır və öyrənməni daha cəlbedici etmək məqsədi daşıyır.[6,7] Boyük Britaniya da Oyunlaşdırma tədris prosesində xüsusi əhəmiyyət kəsb edir. Böyük Britaniyada Teaching Excellence Framework (TEF) istifadəyə verilməsindən sonra, bir çox ənənəvi tədris yanaşmaları nəzərdən keçirildi. Oyuna əsaslanan üsullar müxtəlif fənlərə tətbiq olundu. Bu fənnlərdən biri də mikrobiologiya fənni oldu. Mikrobiologiya fənnində mikroorqanizmlərin adlarını danışmaqla, onları bir-birilə əlaqələndirmək, orqanizmlərdə xüsusi xəstəliklər yaradan orqanizmləri ssenariləşdirib rollu oyunlarla çıxış etmələri nəticəsində tələbələrdə dərsə maraqlarının, həvəslərinin artdığını müşahidə etmişlər.

MİKROBİOLOGİYANIN TƏDRİSİNDƏ İKT-dən İSTİFADƏ

Müasir dövrdə orta ümümtəhsil məktəblərində, ali məktəblərdə ineraktiv metodlarla yanaşı, həmçinin İKT-dən (İnformasiya – Kommunikasiya Texnologiyaları) geniş istifadə olunur. İKT-nin imkanlarından tədris prosesində istifadəsi nəticəsində təhsilalanların bilikləri müstəqil şəkildə əldə etməsi bir çox təhsil həllərinin əsasıdır.[8] Yeni yaranmış fənn kurikulumları da İKT-dən geniş istifadə etməyi təklif edir, İKT-nin istifadəsi təlim prosesini həm əyaniliyi ilə qüvvətləndirir, həm də bilikləri praktik şəkildə tətbiq etməyə, tələbələri yeni texnologiyaların vasitəsilə düşünməyə, öyrəndiklərini təhlil və tətbiq etməyə, fikir mübadiləsi aparmağa cəlb edir. Bu baxımdan, hər bir dərsin təşkilində informasiya – kommunikasiya texnologiyalarından istifadənin çox mühüm əhəmiyyəti vardır.

Ali məktəblərdə Mikrobiologiya fənninin tədrisi prosesində əyani vəsaitlərdən istifadə etməklə keçirilən dərslər daha səmərəli olur. Buna səbəb əyani vəsaitlərin əqli inkişafın vasitələrindən biri olması, həmçinin tələbələrin təhsilində müəyyən yer tutmasıdır. İKT mikrobiologiya fənninin tədrisi prosesində müəllimlərə əyani metodlardan istifadə üçün şərait yaradır. Belə ki, əksər ali təhsil müəssisələrində tam əhatəli laboratoriya təşkil etmək üçün büdcə olmaya bilər, lakin İKT-dən istifadə edərək şəkillərlə, təqdimatlarla tələbələrə istənilən mikroorqanizmin mikroskopik görünüşünü, inkişaf prosesini göstərmək mümkündür.

Tədris prosesini istər yeni texnologiyalar, istərsə də interaktiv metodlar vasitəsilə keçmək istəyən hər bir mikrobiologiya müəllimi interaktiv texnologiyalardan istifadə etməyə hər zaman hazırlıqlı olub, didaktik materiallar, elektron vəsaitlərdən istifadə etməklə hazırlanmış təqdimatlar, şəkillər, cədvəllər tərtib etməyi bilməlidir. Pedaqoji prosesin bu formada təşkili təhsilalanların idrak bacarıqları, düşüncə əhatəliliyi və motivasiyasının artırılmasında mühüm yer tutur.

Müəllim mövzunu təkcə yazı taxtası, tablo, mulyajlar və şifahi mühazirə şəklində söyləməklə kifayətlənməməlidir. Öyrənənlərin biologiya fənninə, eləcə də tədris edilən mövzuya marağının artırılması, öyrənməyi öyrətmək və öyrənilən biliklərin tətbiqi daha vacib amil hesab olunur.[9]

Müasir dövrdə hər gün yeni və daha çox rəqəmsal tədris resursları (RTR) inkişaf etdirilərək istifadəyə verilir. RTRdən istifadə dərsə hazırlıq zamanı vaxta qənaət etmək, yeni materialın tam mənimsənilməsi üçün lazımi resursları təyin etmək, nəticələrin yoxlanmaq və möhkəmləndirmək üçün şərait yaradır. Rəqəmsal tədris resurslarının köməyi ilə biz vaxt və yer baxımından əlçatmaz olan proses və situasiyaları təqdim etməyi bacarırıq. Məsələn,

mikroorqanizmlərdən virusların və ya bakteriyaların gen quruluşunu tələbələrə nümayiş etdirmək üçün RTR-dən istifadə edilməsi daha məqsədə uyğundur. Bundan başqa, mikroorqanizmlərin insanların daxili orqanlarında çoxalması və əmələ gətirdikləri xəstəliklər haqqında bəhs edərkən rəqəmsal tədris resurslarından istifadə edərək, tələbələrin bu prosesləri əyani görməsinə imkan yaratmaq tədris prosesində daha səmərəli olub, yüksək nəticə əldə etməyə şərait yaradır.

Dərslərin səmərəli keçirilməsi üçün həm müəllim, həm də təhsilalanların zəruri hazırlıq görməsi daha daha məqsədəuyğun prosesdir. Buna əsaslanaraq internetdən və tədris vəsaitlərindən əldə olunan materiallara əsasən PowerPointdə təqdimat formasında dərslər hazırlamaq, worddə toplanan bilikləri sistemləşdirməklə yaradılan cədvəlləri smart lövhədə təqdim etmək olar. Tədrisin belə formada təşkil olunması öyrədənlərin və öyrənənlərin aktivliyinin artırılmasına şərait yaradır.

Mikrobiologiyanın tədrisində müasir texnologiyanın mahiyyətindən danışdıqda, onu söyləmək lazımdır ki, məzmun nə qədər mürəkkəb və qarışıq olarsa, istifadə olunan metod və üsulların üzərinə düşən iş biraz daha artır. Çünki, təhsilalanların fənlərin tədrisi prosesində əldə etdikləri nəzəri bilikləri praktik fəaliyyətdə tətbiq etmək bacarığı inkişafetdirici interaktiv metod və üsulların gücü hesabına təmin olunur. Əgər müəllim təhsilalana hazır bilik verərsə, onda ancaq yadda saxlamaq lazım gəlir.[10] Hamımız bilirik ki, belə formada yadda saxlamanın müddəti uzun olmur. Elə bu səbəbdən də təhsilalanlar İKT-dən və müəllimin öyrənməyi öyrətmək metodundan istifadə etməklə özünüinkişafa nail olmalı, yeni biliklərin öyrənilməsində fərqli metodika təqdim etməlidirlər.

Mikrobiologiyanın tədrisində İKT-dən istifadə etməklə multimedialı təqdimatlar hazırlayarkən müəllimin yeni dərslərlə keçirilmiş dərsləri müqayisə etməsi daha məqsədyönümlüdür. İnternetdən toplanmış şəkillər, dərsləri bəsitləşdirmək, təsnif etmək üçün hazırlanmış cədvəllər də multimedialı təqdimatdan istifadə olunması mümkündür. Təhsildə İKT-nin faydalı cəhətlərindən biri də odur ki, istedadlı pedaqoqlar kompüter vasitəsilə öz tədris işlərini və yaradıcılıq fəaliyyətlərinin nəticələrini fərdiləşdirə bilirlər. Pedaqoji praktikada toplanmış təcrübələr əsasında müəllim standart dərs vəsaitlərində olmayan, özü tərəfindən irəli sürülmüş maraqlı məsələ və tapşırıqları kompüterdə təqdimat şəklində hazırlayıb, digər müəllimlər ilə bölüşə bilər. Düşünürəm ki, hazırlanmış bu tipli materialların digər müəllimlərə üçün də çox böyük faydası vardır.

Müasir dövrdə ali təhsil müəssisələrində ölkənin sosial-iqtisadi inkişaf tələblərinə müvafiq bilik və bacarığa sahib mütəxəssis yetişdirilməsinə, onların təhsil-tədqiqat-innovasiya mərkəzlərinə dönüşməsinə kömək edən standartlar hazırlanıb tətbiq olunması prosesi davam etməkdədir. Ali təhsil müəssisələrində aparılan elmi tədqiqatlar müasir standartlar səviyyəsinə çatdırılmaqla əldə edilən elmi tədqiqat işlərinin nəticələrinin tədris prosesində və istehsalatda tətbiq olunası üçün şərait yaradılır. Nəticə etibarilə, elmin informasiya təminatının möhkəmləndirilməsi, beynəlxalq elmi əlaqələrin dərinləşdirilməsi sahəsində tədbirlərin görülməsi imkanları əmələ gəlir. Hal-hazırda tədris prosesində elektron təhsil texnologiyalarının tətbiq olunmasının daha da inkişaf etməsilə əlaqəli olaraq, müəllim və tələbələr üçün virtual öyrənmə mühiti şərait yaranır.

NƏTİCƏ

Aparılan tədqiqatlardan belə nəticəyə çıxarmaq mümkündür ki, təhsildə, xüsusən biologiya, həmçinin, mikrobiologiya fənninin tədrisində interaktiv təlim metodlarının çox böyük rolu vardır. İnteraktiv təlim metodlarının istifadəsilə bağlı günümüzdə ali təhsil müəssisələrinin

böyük əksəriyyətində Mikrobiologiya dərslərində tələbələrin tətqiqatçılıq bacarığı inkişaf etdirilmir və bu sahədə sistemli şəkildə tədqiqatçılıq xarakterli yoxlanışlar aparılmır. Digər səbəblərdən biri də azərbaycan dilində mikrobiologiya müəllimlərinin işinin istiqamətləndirilməsinə kömək edə biləcək metodik vəsaitlərin olmamasıdır. Tədqiqatçılığın inkişaf etməsi üçün ilk öncə müəllimlər məlumatlandırılmalıdır. Əfsuslar olsun ki, ölkəmizdə müəllimlərin milli kurikuluma qarşı həvəsinin, marağının artırmaq məqsədilə heç bir tədbir görülmür. Kurikulum üzrə təşkil olunan kurslarda isə kifayət qədər kirukulumun, tətqiqatçılığın dərinliyi araşdırılmır. Nəticədə, tam hazırlanmamış müəllimlər tələbələr üçün səmərəli dərslər hazırlaya bilmirlər. Ölkəmizdə interaktiv təlim metodları ilə işləməyi bacaran az sayda müəllimlərin iş təcrübəsi xarici təcrübənin səmərəliliyini sübut edir.

Həqiqi təlim üçün müəllim qarşıya qoyulmuş məqsəd və şəraitdən asılı olaraq uyğun metodları seçməlidir. Müəllimlər fənnə, mövzuya, tələbələrin təcrübə və bilik səviyyəsinə görə bütün təlim modellərində müxtəlif metodika və texnologiyalardan məqsədəuyğun şəkildə istifadə etməyi bacarmalıdırlar. Əsas şərt odur ki, təlim tələbələri inkişaf etdirməlidir. Onlara düşünmək, müstəqil fikir söyləmək, biliklərini tətbiq edə bilmək kimi bacarıqları aşılamaq lazımdır. Tələbələrdə ünsiyyət, anlaşma mədəniyyəti, öz problemlərini həll edə bilmək bacarığı formalaşdırmaq lazimdır.

Mikrobiologiyanın tədrisində interaktiv metodlarla yanaşı, İKT-nində əhəmiyyətli dərəcədə rolu vardır. Buna səbəb, müasir dövrdə təhsilalanların ətrafının kompüterlə, televizorla, smart telefonlarla, uzaqdan idarə olunan cihazlarla və s əhatəyə alınmasıdır. Təhsilalanların diqqətini dərsə yönəltmək üçün müəllimin əsas vəzifələrdən biri də təlim - tədris prosesində informasiya – kommunikasiya texnologiyalarının (İKT-nin) imkanlarından geniş şəkildə istifadə etməsidir. İKT-dən istifadə etməklə təşkil olunan dərslərdə əyanilik üstünlük təşkil etdiyindən dərsin keyfiyyəti də artacaqdır.

ƏDƏBİYYAT

1. Nəzərov, A. (2012). Müasir təlim texnologiyaları. Bakı.

2. Babayev, M., Məcidov, M. (2008). Biologiyanın tədrisi metodikası. Bakı.

3. https://az.wikipedia.org/wiki/%C4%B0nteraktiv_t%C9%99lim

4. https://www.baylor.edu/atl/index.php?id=965136

5. https://metodiktovsiyye.blogspot.com/2015/09/is-usullar.html

6. Moncada SM, Moncada TP. Gamification of learning in accounting education. J High Educ Theory Pract 2014;14:9–19.

7. Robinson LA, Turner IJ, Sweet MJ. The use of gamification in the teaching of disease epidemics and pandemics. FEMS Microbiol Lett 2018;365:1–4.

8. Babayeva, Z. (2009). Biologiyanın tədrisində yeni təlim texnologiyalarından istifadənin metodikası. Bakı.

9. Babayeva, Z. (2020). Rəqəmsal Əsrin Məktəbi Elektron Təhsil Resursları Biologiyanın tədrisində. Elmi Əsərlər Jurnalı. ISSN 2223- 5124. № 3.

10. Babayeva, Z. (2016). Biologiyanın tədrisində Texnoloji İnnovasiyalardan İstifadənin Perspektivləri. Naxçıvan. səh. (238-242)

FRUITS AND VEGETABLES AS A SOURCE OF ANTIOXIDANTS

Hüseynova Nəzrin Vüsal
Odlar Yurdu Universiteti, Biologiya ixtisası
Məmmədov Ramazan Mustafa
b.e.ü.f.d.professor, Odlar Yurdu Universiteti, Təbiət və Texnologiya fakültəsi, Biologiya və ekologiya kafedrası.

Abstract

Fruits and vegetables are important sources of antioxidants for our health. Antioxidants prevent many health problems by protecting the body from the harmful effects of free radicals. Some of the main antioxidants provided by fruits and vegetables are: Vitamin C, Vitamin E, Beta-carotene, Lycopene, Flavonoids, Selenium. Fruits and vegetables protect the body from harmful free radicals. They are full of antioxidants that protect against the effects of aging and reduce the risk of inflammation and many chronic diseases. Therefore, a balanced diet of these fruits and vegetables can help support our health. Vitamin C: Oranges, tangerines, lemons, kiwis and fruits and vegetables like green peppers. Vitamin E: Foods like almonds, hazelnuts, and spinach contain vitamin E.Beta-carotene: Carrots, potatoes, squash, and spinach.Lycopene: Tomatoes, watermelon, cantaloupe, and grapefruit.Flavonoids: Apples, grapes, onions and broccoli. Selenium: Pistachios, mushrooms, and walnuts are sources of selenium. Fruits and vegetables are rich in a variety of antioxidants and are an important part of a balanced diet. Adding these foods to your daily eating habits will greatly help your overall health. Role of Antioxidants: - Antioxidants protect the body against oxidative stress. Oxidative stress is a process caused by free radicals that damage the DNA, proteins and lipids of cells. - Oxidative stress can contribute to the development of many diseases such as cancer, heart disease, diabetes and aging. Antioxidants are important for a good immune system and can increase resistance to disease. Different fruits and vegetables have different antioxidants, so variety is important. Additionally, consuming fruits and vegetables in their fresh and natural form maximizes the effects of antioxidants.

Key words: Antioxidants, Free radicals, Vitamin C, Vitamin E, Beta-carotene, Selenium, Lycopene, Flavonoids.

MEYVƏ VƏ TƏRƏVƏZLƏR ANTİOKSİDAN MƏNBƏYİ KİMİ

Özet

Meyvə və tərəvəzlər sağlamlığımız üçün vacib antioksidant qaynaqlarıdır.Antioksidantlar, bədəni sərbəst radikalların zərərli təsirlərindən qoruyaraq bir çox sağlamlıq problemlərinin qarşısını alır.Bəzi meyvə və tərəvəzlərin təmin etdiyi əsas antioksidanlar bunlardır: Vitamin C, Vitamin E, Beta- karotin,Likopen,Flavonoidlər,Selenium.Meyvə və tərəvəzlər orqanizmi zərərli sərbəst radikallardan qoruyur.Yaşlanmanın təsirindən qoruyan və iltihab və bir çox xroniki xəstəliklər riskini azaldan antioksidantlarla doludur.Ona görə də bu meyvə və tərəvəzləri balanslaşdırılmış pəhriz sağlamlığımızı dəstəkləməyə kömək edə bilər.Vitamin C:

Portağal, naringi, limon, kivi və yaşıl bibər kimi meyvə və tərəvəzlər.Vitamin E: Badam, fındıq, ispanaq kimi qidalarda E vitamini var.Beta-karotin: Yerkökü, kartof, balqabaq və ispanaq.Likopen: Pomidor, qarpız, qovun və qreypfrut.Flavonoidlər: Alma, üzüm, soğanı və brokoli.Selenium: Püstə, göbələk və qoz selenium mənbəyidir.Meyvə və tərəvəzlər müxtəlif antioksidantlarla zəngindir və balanslaşdırılmış pəhrizin vacib hissəsidir.Bu qidaları gündəlik yemək vərdişlərinizə əlavə etmək ümumi sağlamlığınıza böyük köməklik göstərəcək. Antioksidanların rolu: - Antioksidanlar, orqanizmi oksidativ stressə qarşı qoruyur. Oksidativ stress, hüceyrələrin DNT-nə, proteinlərinə ve lipidlərinə zərər verən sərbəst radikalların səbəb olduğu bir prossesdir– Oksidativ stress, xərçəng, ürək xəstəlikləri, diyabet ve yaşlanma gibi birçok hastalığın gelişimine katkıda bulunabilir. Antioksidantlar yaxşı bir immunitet sistemi üçün vacibdir və xəstəliklərə qarşı müqaviməti artıra bilər.Fərqli meyvə və tərəvəzlərdə fərqli antioksidanlar olduğu üçün müxtəliflik vacibdir.Bundan əlavə meyvə və tərəvəzləri təzə və təbii formada istehlak etmək antioksidantların təsirini maksimum dərəcədə artırır.

Açar sözlər: Antioksidantlar, Sərbəst radikallar, C vitamin, E vitamin, Beta-karotin, Selenyum, Likopen, Flavonoidlər.

Giriş

Antoksidləşdiricilər -anti-yunanca: qarşı, əksinə, əleyhinə (antioksidantlar, oksidləşmə inhibitorları) – üzvi birləşmələrin oksidləşməsini ləngidən təbii və ya sintetik, orqanizmdə sərbəst radikalları məhv edən maddələrdir. Bədənimiz özünə lazım olduqca antioksidant maddələri ifraz edir. Buna görə də bu molekulların daimi orqanizmdə lazımi miqdarda olması üçün antioksidanlı çay, meyvə və tərəvəzdən istifadə edilməlidir. (В.М. Школьникова, . Кулиев А.М.).

Orqanizmin normal metabolik fəaliyyəti zamanı meydana gələn və hüceyrələrə hücum edərək strukturlarını pozan molekullar olan sərbəst radikallar ciddi xəstəliklərə səbəb olurlar. Antioksidantar isə zədələnən hüceyrələri qoruyan maddələrdir. Yaş artdıqca orqanizm daha çox sərbəst radikala məruz qalır və daha çox sərbəst radikal ifraz edir. Bununla bərabər, orqanizmin təbii antioksidan istehsalı yaşın artmasıyla azalır. Antioksidant maddələr lazımlı miqdarda qəbul edilmədikdə xərçəng, ürək xəstəlikləri, damarların kiraclənməsi, yüksək təzyiq kimi xəstəliklərə tutulma ehtimalı artır. (Charanjit Kaur Hariş C. Kapur)

Epidemioloji tədqiqatlar meyvə və tərəvəzlərin qəbulu ilə ateroskleroz, xərçəng, şəkərli diabet, artrit və həmçinin yaşlanma kimi xəstəliklərin qarşısının alınması arasında müsbət korrelyasiya müəyyən etmişdir. Onların qocalmağa təsiri o qədər açıq idi ki, onları “gənclik fəvvarələri” adlandırdılar. Beləliklə, meyvələr və tərəvəzlər onlara sağlamlığın yaxşılaşdırılmasına və xəstəliklərin qarşısının alınmasına və ya yüngülləşdirilməsinə qadir olan "funksional qidalar" statusu verdi. Fenolik flavonoidlər, likopen, karotenoidlər və qlükozinolatlar ən çox öyrənilmiş antioksidantlardır. Hazırda qidanın bioaktiv komponentləri kimi fitokimyəvi maddələrə böyük maraq var. Meyvə, tərəvəz və qırmızı şərabın xəstəliklərin qarşısının alınmasında rolu qismən onların tərkib hissəsi olan polifenolların (E və C vitaminləri və karotenoidlər) antioksidant xüsusiyyətlərinə aid edilmişdir. İndi bitki mənşəli flavonoidlərin sulu və lipofil fazalarda antioksidant fəaliyyətini təyin etmək və şərabın və çayın ümumi antioksidant potensialının ayrı-ayrı polifenolların fəaliyyəti ilə nə dərəcədə hesablana biləcəyini qiymətləndirmək mümkündür. Flavonoidlər təbii mikrob infeksiyasına cavab olaraq meyvə və tərəvəzlərdə sintez

edilən iki fenolik halqa ilə xətti karbon zəncirinə əsaslanan ikinci dərəcəli metabolitlər və fitokimyəvi maddələrdir. Meyvə və tərəvəzlərdə mövcud olan bu antioksidan birləşmələr kateqoriyası altı alt qrupda bir alt kateqoriyanı əhatə edir: flavonlar, flavonollar, flavanonlar, katexinlər, antosiyanidinlər və izoflavonlar . Bu təsnifat heterosiklik halqa ilə bağlı fenolik halqanın doyma dərəcəsinin müxtəlifliyinə əsaslanır. Ürək-damar xəstəliklərini və xərçəngi azaltmaq və immunitet sistemini gücləndirmək kimi flavonoid birləşmələrinin qəbulu ilə əlaqəli sağlamlıq faydalarından başqa, flavonoidlər fermentlərin iştirak etdiyi metabolik proseslərə müsbət təsir göstərə bilər. (Rays-Evans C. Miller NJ, Nikolas Miller Corc Paqanqa) (Boskou Dimitrios).

Pəhriz antioksidanlarının iddia edilən sağlamlıq faydaları haqqında ictimaiyyətin məlumatlandırılması, tanınmış və təkmilləşdirilmiş antioksidan keyfiyyətə malik meyvə və tərəvəz məhsullarına tələbi artırmış və antioksidant tərkibini artırmaqla meyvə və tərəvəz keyfiyyətini yaxşılaşdırmaq üçün bağçılıq və qida sənayesi üçün yeni imkanlar yaratmışdır. Bu icmalda əsas meyvə və tərəvəz antioksidantlarının, yəni C vitamini, karotenoidlər və fenoliklərin tərkibinə təsir edən istehsal və emal amilləri təsvir edilmişdir. Meyvə və tərəvəz sortları arasında bu antioksidan növlərinin hər birinin tərkibində əhəmiyyətli genetik variasiya var. Bir çox bitkilər antioksidant xüsusiyyətli olmaları ilə bizi sərbəst radikallardan və zərərlərindən qoruyur. A, C və E vitamini, beta karoten bizi qoruyan antioksidanlardan ilkincidir. Bunlardan əlavə soenzium Q-10 kimi antioksidanlar da çox tanınır. Hər bitki mənşəli maddə zərərsiz deyildir. Bəzi bitkilər xeyri ilə bərabər, insana ziyan da verə bilər. (Catherine Rice-Evans, Nicholas J. Miller),(MC Nicoli ,M Anese ,M Parpinel).

İrlandiyada meyvə və tərəvəz emalı əhəmiyyətli miqdarda tullantı/yarpaq məhsullar yaradır. Əvvəllər bildirilmişdir ki, meyvələrin tullantıları və əlavə məhsulları antioksidant polifenolların zəngin mənbəyi ola bilər . Hazırda meyvə-tərəvəz tullantıları və əlavə məhsullar tez-tez istehsalçıya baha başa gəlir. Buna görə də, tullantıların polifenol mənbəyi kimi istifadəsi qida emal edənlər üçün əhəmiyyətli iqtisadi fayda verə bilər. Meyvə və tərəvəz tullantıları və əlavə məhsullar pomadan (presdən sonra qalıqlar), kələm kəsiklərinə və bütün meyvə və tərəvəzlərə qədər dəyişə bilər. (Hilde H. Wijngaard,Kristian Rösle,Naycel Brunton).

Polifenollar insan pəhrizinin ümumi tərkib hissəsidir, meyvə və tərəvəzlər bu bioaktiv birləşmələrin əsas qida mənbəyidir. Polifenol istehlakının mümkün sağlamlıq faydaları onların antioksidant və iltihab əleyhinə xüsusiyyətlərindən irəli gəlir. Degenerativ xəstəliklərin qarşısının alınmasında onların roluna dair sübutlar ortaya çıxır. Heyvanlar və insan hüceyrə xətləri üzərində aparılan eksperimental tədqiqatlar göstərmişdir ki, polifenollar xərçəng və ürək-damar xəstəliklərinin qarşısının alınmasında rol oynaya bilər. (Hilde H. Wijngaard,Kristian Rösle,Naycel Brunton). Bütün meyvə tullantıları güclü polifenolların və antioksidantların mənbəyi kimi xidmət edə bilər, lakin istifadə edilən çeşidlərin çeşidinə və yaranan nisbətən aşağı səviyyəyə görə, funksional tərkib sənayesi üçün yaxşı resurs ola bilməz. Digər tərəfdən alma püresi antioksidantlarda və polifenollarda yüksəkdir, qida keyfiyyətinə malikdir və bolca mövcuddur. Tərəvəz əlavə məhsulları da polifenol mənbələri kimi yaxşı potensiala malikdir və digər mümkün antioksidantları müəyyən etmək üçün daha çox araşdırma aparılmalıdır. (New England Journal of Medicine)

Qida yoluyla alınan antioksidanlar

A vitamini -Ərik, kök, pomidor, portağal, ispanaq, brokkoli, şaftalı, kələm kimi yaşıl-sarı tərəvəz-meyvələr, qaraciyər, balıq, süd və yumurta ən zəngin A vitamini qaynaqlarıdır. Vitamin A bir sıra metabolik funksiyaların bir hissəsi olduğu üçün vacib bir mikronutrient hesab olunur. Bunlardan bəziləri oksidləşdirici stress ilə əlaqəli xəstəliklərin inkişafının qarşısını ala bilən immun müdafiə və antioksidan funksiyaların qorunmasıdır və bəzi xərçəng növləri, ürək-damar və neyrodegenerativ xəstəliklər, və hüceyrə degenerasiyası

C Vitamini: Cəfəri, yaşıl bibər, ispanaq, üzüm yarpağı, brokoli kimi yaşıl tərəvəzlər, sitrus bitkiləri, çiyələk, itburnu və albalıda var. Askorbin turşusu olaraq da bilinən C Vitamininə gəldikdə, onun antioksidant funksiyası A Vitaminindən daha böyükdür. Digər tərəfdən, bu vitaminin digər mühüm üstünlüyü onun Vitamin E-nin antioksidant formasını bərpa etmək qabiliyyətidir və beləliklə, daha çox əlçatanlığa imkan verir. və bu əsas birləşmələrin insan bədəninin metabolik funksiyaları daxilində olması, sağlamlıq faydalarına səbəb olur. Vitamin C-nin digər mühüm üstünlüyü ondan ibarətdir ki, suda həll olunduğu üçün həm hüceyrədaxili, həm də hüceyrədənkənar tərəfdə hərəkət edə bilər. (Rene du Toit,Yolanda Volsteedt,Zenon Apostolides)

E Vitamini: Bitki mənşəli maye yağlar, yaşıl yarpaqlı tərəvəzlər, yağlı toxumlar və bunlardan əldə edilən yağlar, taxıl dənələri və quru paxlalılar ən yaxşı E vitamini qaynaqlarıdır. Vitamin A kimi, E vitamini də yağda həll olunan vitaminlər kimi təsnif edilən tokoferollar və tokotrienollar kimi tanınan bir neçə əlaqəli birləşmələri ehtiva edir. Onların arasında alfa-tokoferol hüceyrə membranının zədələnməsinə səbəb olan lipid oksidləşdirici reaksiyaların inkişafının qarşısını almaq qabiliyyətinə görə seçilir. Vitamin E-nin digər mühüm faydası onun immun sistemində iştirakı, bakterial infeksiyalardan qorunma, mutagen birləşmələrin əmələ gəlməsinin qarşısının alınması və hüceyrə toxumasının bərpası və digərləridir. Bu fakt, E vitamininin immunitet sisteminə verdiyi gücləndiriciliyi nəzərə alaraq, xərçəng hüceyrəsi və şiş inkişafı ehtimalını azaltmaq üçün vacib bir birləşmə kimi nəzərdən keçirməyə səbəb oldu.

Flavonoidlər: Soğan, kəvər, kartof, kələm, brokoli, ispanaq, çiyələk, alma, gilənar, albalı, ərik, qara üzüm, qırmızı şərab, sitrus bitkiləri, yaşıl çay ən məşhur qaynaqlarıdır.

Selenium: Tərkibində selenium olan qidalar yetişdiyi torpağın selenium miqdarına bağlı olaraq taxıl məhsullarında və paxlalılarda, ət, böyrək, ürək kimi içalatlarda , balıq və dəniz məhsullarında tapılır.

Sink: ət, süd, pendir, yumurta, dəniz məhsulları və balıq kimi heyvan mənşəli qidaların hamısı sinklə zəngindir. Bundan əlavə bütün taxıl məhsulları, quru paxlalılar, soya paxlası və günəbaxan tumu da yaxşı sink qaynaqlarıdır.

Bir çox bitkilər antioksidant xüsusiyyətli olmaları ilə bizi sərbəst radikallardan və zərərlərindən qoruyur. A, C və E vitamini, beta karoten bizi qoruyan antioksidanlardan ilkincidir. Bunlardan əlavə soenzium Q-10 kimi antioksidanlar da çox tanınır.

Üzüm - damar sərtliyini, sərbəst radikalların zərərlərini önləyər, qan dövranını artırar, immuniteti gücləndirər və s. İltihab qaldırıcı təsiri vardır. Yaranın tez sağalmasını sürətləndirər. Kalori dəyəri yüksək olan üzüm kalsium, kalium, natrium və dəmirlə zəngin olduğu kimi, A, B1, B2, və C vitaminləri ilə də əhəmiyyətli bir qida qaynağıdır. Bir sözlə, üzümün faydalarını saymaqla bitməz.

Soya paxlası (lobya): Xolestrolun miqdarını tənzimləyir, zərərli xolestrolun qarşısını alır, ürək xəstəliklərinə, infarkt, xərçəng və xroniki xəstəliklərə qarşı yaxşı təsir göstərir. Menopoz (qadınlarda menstruasiya prosesinin erkən başa çatması) və osteoporaz (sümük əriməsi) xəstəliklərinin müalicəsində əvəzedilməz təsirə malikdir.

